Xalqın qəzeti!

# Xalq qəzeti

№ 163 (30857) 7 avqust 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Dövlətçilik uğrunda savaş yeni mərhələdə



səhifə ⇨ 6

## BP “Şahdəniz”də 2 mühəndis layihəsi gerçəkləşdirəcək



səhifə ⇨ 7

## “Beseqon”: imperializmin elegiyası, sənətin adsız qəbri




səhifə ⇨ 5

## Milli memarlığımızın sənət beşiyi



səhifə ⇨ 9

# Azərbaycan – ABŞ strateji əməkdaşlığında yeni mərhələ



**Azərbaycan Prezidenti İlham ƏLİYEV:**

***Donald Tramp müharibələrə başlamamış yeganə ABŞ Prezidentidir. Həm də hakimiyyətdə olduğu qısa müddətdə müharibələrə son qoyan bir adam olduğu aydın görünür. Biz, həmçinin Azərbaycana və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ona çox minnətdarıq.***

səhifə ⇨ 7

## İlham Əliyev və Donald Trampın liderlik münasibətləri



**Azərbaycan–ABŞ münasibətləri uzun illər ərzində müxtəlif mərhələlərdən keçib, qarşılıqlı əməkdaşlıq və gərginlik dalğaları ilə müşayiət olunub. Lakin Donald Trampın 2024-cü ildə yenidən ABŞ Prezidenti seçilməsi bu münasibətlərin yeni mərhələyə qədəm qoyması üçün real perspektivlər yaradıb. Prezident İlham Əliyev və Prezident Tramp arasında formalaşmış qarşılıqlı anlayış və əməkdaşlıq iki ölkə arasında strateji tərəfdaşlıq üçün güclü zəmin rolunu oynayır. Enerji təhlükəsizliyi, regional sabitlik, iqtisadi əməkdaşlıq və terrorizmə qarşı mübarizə sahələrində ortaq maraqlar liderlər səviyyəsində aparılan dialoqun gələcəyə yönəlmiş xarakterini təsdiqləyir.**

Donald Tramp hələ birinci prezidentliyi dövründə Azərbaycanla dostluq və əməkdaşlığın möhkəmlənməsinə önəm vermişdi. Həmin dövrdə formalaşan etimad bu gün əlaqələrin yeni mərhələyə keçidi üçün baza rolunu oynayır. Enerji və təhlükəsizlik sahələrindəki birgə təşəbbüslər tərəfdaşlığın qarşılıqlı fayda prinsipinə əsaslandığını göstərir. Bu kontekstdə həm liderlərin iradəsi, həm də xalqlar arasında dostluq ənənələri ümidverici əsas yaradır.

İndi isə iki ölkə liderləri arasındakı təmaslara, məktublara və münasibətlərin dinamikasına nəzər salaq.

Prezident İlham Əliyev 2024-cü il noyabrın 6-da Donald Trampa prezident seçilməsi münasibətilə ünvanladığı məktubda Azərbaycan–ABŞ əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verdiyini qeyd edib. O, Trampın prezidentliyi dövründə münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyacağına əmin olduğunu bildirib: “Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik. İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır”.

*(ardı 6-cı səhifədə)*

## Haylar indi də almanlara qəzəbləniblər



səhifə ⇨ 4

# Avropaya viza çətinlikləri: Əsaslı və əsassız səbəblər




**Azərbaycan vətəndaşları bir çox ölkəyə vizasız və ya sadələşdirilmiş viza rejimi ilə səfər edə bilirlər. Bu imtiyazlar əsasən qarşılıqlılıq prinsipi əsasında həyata keçirilir və vətəndaşların rahat və maneəsiz hərəkətini təmin etməyə yönəlib. Belə ölkələr arasında Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Ukrayna və Türkiyə yer alır.**

*(ardı 5-ci səhifədə)*

## Ağ evin Azərbaycan qərarı



səhifə ⇨ 3

# Yamaykanın Baş naziri Zati-aliləri cənab Endryu Holnessə

**Hörmətli cənab Baş nazir!**

Yamaykanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Bu il Azərbaycan ilə Yamayka diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümünü qeyd edəcəklər. Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 avqust 2025-ci il**

# Xəzərin dayazlaşması müzakirə edilib



**BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə Üçüncü Konfransı çərçivəsində Xəzəryanı dövlətlərin hökumət rəsmiləri səviyyəsində iclası keçirilib.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Görüşdə Xəzər dənizinin dayazlaşmasının mənfi təsirlərini azaltmaq üçün birgə fəaliyyətin əsas istiqamətləri müzakirə olunub. İclasda çıxış edən Baş nazirin müavini Şahin Mustafayev Xəzəryanı dövlətlər arasında ticarət dövriyyəsinin dayanıqlı artım dinamikasını qeyd edərək, bunun həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əməkdaşlığın dərinləşməsi üçün möhkəm zəmin yaratdığını bildirib.

Çıxışında ekoloji çağırışlara da toxunan Şahin Mustafayev su səviyyəsinin aşağı düşməsinin bütün regionda narahatlıq doğurduğunu, bu problemin hələ 2022-ci il Aşqabad Sammitində Azərbaycan Prezidenti tərəfindən qaldırıldığını və Bakıda beştərəfli ekspert qrupunun ilk toplantısının təşkilinə hazırlıqların davam etdiyini vurğulayıb.

Baş nazirin müavini qeyd edib ki, səviyyə dəyişikliklərinin mənfi təsirlərinin minimuma endirilməsi üçün elmi-tədqiqat əməkdaşlığının genişləndirilməsi, balıqçılığın, gəmiçiliyin və biomüxtəlifliyin qorunması sahəsində birgə proqramların həyata keçirilməsi zəruridir.

İclas zamanı Xəzər dənizində baş verən dəyişikliklərin öyrənilməsi üçün ümumi standartlar və yanaşmalar formalaşdırmağa imkan verəcək çoxtərəfli qarşılıqlı fəaliyyət mexanizminin işə salınması təşəbbüsü irəli sürülüb.

*

**Həmin gün konfrans çərçivəsində Baş nazirinin müavini Şahin Mustafayevlə İranın yol və şəhərsalma naziri Fərzanə Sadiq arasında keçirilən görüşdə iki ölkə arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq, xüsusilə də birgə sərhəd layihələrinin icrası müzakirə olunub.**

Bildirilib ki, görüş zamanı hər iki tərəf Astara dəmiryolu yük terminalı və tikilməkdə olan sərhəd körpüləri də daxil olmaqla, mövcud layihələrin həyata keçirilməsinin sürətləndirilməsinin vacibliyini vurğulayıb.

Prezidentlər İlham Əliyevlə Məsud Pezeşkian arasında sıx təmasların iki ölkə arasında münasibətlərin dərinləşməsində xüsusi rol oynadığı qeyd edilib.

Tərəflər, habelə yaxın vaxtlarda qarşılıqlı səfərlərlə bağlı razılığa gəliblər. Görüşdə layihələrin irəliləməsi, qarşıda duran problemlərin həlli və əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan–Qazaxıstan nəqliyyat müzakirəsi



**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Prezidentinin müşaviri Asel Janasova və "Qazaxıstan Dəmir Yolları" Milli Şirkətinin İdarə Heyətinin sədri Talqat Aldıbergenov ilə görüşüb.**

Görüşdə avtomobil nəqliyyatı ilə yükdaşımalar, aviadaşımalar, gəmiqayırma sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Həmçinin Orta Dəhlizin inkişafı, limanların və logistika dəhlizlərinin rəqəmsallaşdırılması barədə fikir mübadiləsi aparılıb.

# Kəlbəcərdə hərbi yük avtomobili minaya düşüb

**Avqustun 5-i saat 19:05 radələrində Kəlbəcər rayonu ərazisində təminat tapşırığı yerinə yetirərkən hərbi yük avtomobili Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minaya düşüb.**

Baş vermiş partlayış nəticəsində xəsarət alan Azərbaycan Ordusunun dörd nəfər hərbi qulluqçusu yaxınlıqdakı tibb müəssisəsinə təxliyə edilib. Onların həyatları üçün təhlükə yoxdur.

Faktla bağlı Kəlbəcər Hərbi Prokurorluğunda araşdırma aparılır.

*

**İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva Kəlbəcərdəki mina partlayışına görə beynəlxalq təşkilatlara çağırış edib.**

Ombudsman bir daha müvafiq beynəlxalq təşkilatları dəqiq mina xəritələrinin Azərbaycana təhvil verilməsi istiqamətində Ermənistana ciddi təsir göstərməyə və törədilən hərbi və ekoloji cinayətlərə, o cümlədən humanitar hüquq pozuntularına kəskin reaksiya verməyə çağırıb.

*XQ*

# Milli Məclisin komissiyası ölkəmiz əleyhinə kampaniyanı pisləyir

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası qonşu dövlətlərdən birinin ərazisindən ölkəmiz əleyhinə aparılan qeyri-dost fəaliyyətlərin sosial media və sosial şəbəkə platforması olan “Facebook” vasitəsilə hələ də davam etdiyini bildirir.**




Bir sıra səhifələr (“Echo of Baku”, “Azeri Horizon”, “Xəbər24”, “Merry you”, “Azerbaijan Pulse”, “Az insight” və s.) vasitəsilə adıçəkilən platforma üzərindən Azərbaycan Respublikasının informasiya məkanına hədəfli müdaxilə cəhdləri edilərək ölkəmizdə ictimai fikri çaşdırmağa, dövlətin apardığı uğurlu daxili və xarici siyasətə kölgə salmağa çalışılır.

Geosiyasi manipulyasiya xarakterli məlumatlar Azərbaycan dilində “Facebook”da paylaşıldıqdan sonra istifadəçilərdən “Telegra.ph” kimi platformalara keçid etməkləri istənilir ki, bu da öz növbəsində bir sıra istifadəçi məlumatlarının (IP ünvan, istifadə olunan cihaz və s.) ələ keçirilməsinə səbəb ola bilər.

Vətəndaşlarımızın nəzərinə çatdırırıq ki, bu cür informasiya əməliyyatlarına qarşı müvafiq dövlət qurumları ilə əlaqələndirilmiş şəkildə daim lazımi tədbirlər görülür. Eyni zamanda, qeyd etməliyik ki, “Meta” şirkətinə edilən müraciətlər nəticəsində Azərbaycana qarşı fəaliyyət göstərən həmin səhifələrin bağlanmasına nail olunmuşdur.

Komissiya vətəndaşlarımızı diqqətli olmağa, bu cür məlumatlara inanmamağa çağırır.

# Yəmənin Prezident Şurasının sədri Azərbaycana dəvət edilib

**Yəmənin Prezident Şurasının sədri Rəşad Məhəmməd əl-Alimi 2026-cı ildə Bakıda keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumuna (WUF13) dəvət edilib.**



Azərbaycan Prezidenti İlham Əliyevin dəvət məktubunu ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri və İslam Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi Şahin Abdullayev Yəmənin xarici işlər naziri Şayi əz-Zindaniyə təqdim edib.

Görüşdə Yəmən XİN rəhbəri ölkəsinin Azərbaycanla dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində maraqlı olduğunu ifadə edib.

Eyni zamanda, nazir regionda baş verən son hadisələr, Qırmızı dəniz hövzəsində dünya gəmiçiliyi üçün yaranmış təhdidlər barədə danışıb.

# Slovakiyanın yeni səfiri XİN-də



**Slovakiyanın Bakıya yeni təyin olunmuş səfiri Elçin Qasımov etimadnaməsinin surətini Azərbaycan Xarici İşlər Nazirliyinə təqdim edib.**

Bu barədə Slovakiyanın Bakıdakı diplomatik missiyasının mətbuat xidmətinə istinadən məlumat verilib.

Diplomat etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayevə təqdim edib.

Qeyd edək ki, Elçin Qasımov əslən Kəlbəcər rayonundandır. O, bir müddət Slovakiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili vəzifəsində çalışıb.

*XQ*

# Əmtəə bazarı rəqəmsallaşdırılacaq

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun 2025-ci il üzrə Yol Xəritəsi çərçivəsində görüş keçirilib. Toplantıda Dünya Bankı Qrupunun “Business Ready” layihəsinin “Bazar rəqabəti” indikatoru ilə bağlı Yol Xəritəsində dövlət satınalmalarının rəqəmsallaşdırılması və optimallaşdırılması üzrə görüləcək tədbirlər müzakirə edilib.**




İqtisadiyyat, Maliyyə, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ekologiya və Təbii Sərvətlər nazirlikləri və digər aidiyyəti dövlət orqanları nümayəndələrinin iştirak etdikləri müzakirədə nəzərdə tutulan işlərin reallaşdırılması üzrə müvafiq icra mexanizmlərinin müəyyən edilməsi istiqamətində geniş fikir mübadiləsi aparılıb.

Görüşdə agentliyin dövlət satınalmalarının təhlili şöbəsinin müdiri Elşən Həsənov və digər dövlət orqanlarının nümayəndələri çıxış ediblər. Dövlət satınalmalarında sahibkarlıq subyektlərinin iştirakının təşviqi, bu məqsədlə qanunvericilikdə nəzərdə tutulan güzəşt mexanizmlərinin tətbiqi, dövlət satınalmalarında gender bərabərliyinin, eləcə də qadın sahibkarların iştirakı ilə bağlı maarifləndirmə tədbirlərinin təşkili imkanları, elektron satınalma portalının funksionallığının genişləndirilməsi, standart tender sənədlərinə dayanıqlılıq şərtlərinin əlavə edilməsi və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində təkliflər dinlənilib, görüləcək işlər üzrə prioritetlər müəyyənləşdirilib, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün konkret icra mexanizmlərinin formalaşdırılması barədə razılıq əldə olunub.

*XQ*

# Ağ evin Azərbaycan qərarı

## *Qlobal gücün regional planı*

**Cənubi Qafqazın dəyişən siyasi konfiqurasiyası fonunda Bakı–Vaşinqton xəttinin sürətlə aktuallaşması bölgədə yeni siyasi reallığın formalaşmaqda olduğuna işarə edir. Əgər bir neçə il öncə ABŞ-ın Qafqaz siyasətində qeyri-müəyyənlik, selektiv maraq və passiv müşahidəçilik ön planda idisə, bu gün artıq proseslərə aktiv və sistemli şəkildə müdaxilə edən, yeni regional düzən formalaşdırmaq istəyən Vaşinqtonla qarşı-qarşıyayıq. Və bu konfiqurasiya daxilində Birləşmiş Ştatların əsas strateji dayanacaq nöqtəsi – heç şübhəsiz, Azərbaycandır.**

ABŞ-ın bu seçimi nə geosiyasi təsadüfdür, nə də təcrid olunmuş diplomatik addım. Seçim Vaşinqtonun son illər beynəlxalq münasibətlər sistemində baş verən struktur dəyişikliklərə verdiyi sistemli cavabın bir hissəsidir. Geosiyasi reallıqlar dəyişir – Rusiya zəifləsə də, təsir imkanlarını qorumağa çalışır, İran sərhədyanı siyasətdə dəyişkən mövqe tutur, Çin isə Mərkəzi Asiyadan Qafqaza qədər uzanan yeni iqtisadi və logistik təsir sahələri qurur. Belə bir fonda ABŞ üçün etibarlı, çevik və müstəqil qərarvermə qabiliyyətinə malik aktorlarla yeni ittifaqlar qurmaq zərurətə çevrilir. Azərbaycan bu kontekstdə ABŞ üçün təkcə mümkün tərəfdaş deyil, həm də zəruri siyasi seçimdir.

Azərbaycanın belə gündəmə gəlməsi, əslində, ABŞ-ın bu ölkəyə qarşı əvvəlki münasibətindən prinsipial şəkildə fərqlənir. Xatırladaq ki, 1992-ci ildə qəbul edilmiş Azadlığı Müdafiə Aktının 907-ci düzəlişi ABŞ-ın Azərbaycana birbaşa yardımını qadağan edirdi. Düzəliş Ermənistanın təzyiqləri nəticəsində Konqresdə qəbul olunmuşdu və Azərbaycanın ABŞ-la təhlükəsizlik və iqtisadi əməkdaşlığını uzun illər boyu məhdudlaşdırmışdı. 907-ci düzəlişin mahiyyəti, əslində, Vaşinqtonun Azərbaycanla münasibətlərinə ideoloji və birtərəfli yanaşmasının göstəricisi idi. Həmin dövrdə ABŞ-ın Qafqaz siyasəti əsasən erməni diasporasının maraqlarını əks etdirirdi və Azərbaycan bu prosesdə uzun müddət "kənar müşahidəçi" mövqeyində saxlanılmışdı.

Lakin 11 sentyabr 2001 hadisələrindən sonra dünya siyasətində baş verən dönüş ABŞ-ın Cənubi Qafqaz siyasətinə də təsir göstərdi. Terrora qarşı qlobal mübarizənin əsas komponentinə çevrilən regionlarda ABŞ özünə yeni strateji tərəfdaşlar axtarmağa başladı. Elə bu mərhələdə 907-ci düzəlişin icrası təxirə salındı və Azərbaycanla Vaşinqton arasında ilk real təhlükəsizlik əməkdaşlığı müstəvisində təmaslar quruldu. Bakı ABŞ üçün strateji tranzit nöqtəsi, logistik platforma və enerji təhlükəsizliyində alternativ təminatçı rolunu oynamağa başladı. Bütün bunlar Vaşinqtonun yanaşmasında geosiyasi rasionalizmin emosional və diaspor yönümlü siyasət üzərində üstünlük qazanmasına gətirib çıxardı.



Bugünkü vəziyyət isə bu keçidin artıq tamamlanmış mərhələyə daxil olduğunu göstərir. ABŞ artıq Azərbaycanla münasibətləri yalnız regional təhlükəsizlik kontekstində deyil, qlobal balans siyasətinin ayrılmaz parçası kimi qiymətləndirir. Vaşinqton Azərbaycanın həm Rusiya ilə ehtiyatlı balansını, həm İranla nəzarətli münasibətlərini, həm də İsraillə açıq və dərin əməkdaşlığını strateji baxımdan kompleks güc balansı yaratmaq üçün unikal resurs kimi dəyərləndirir. Məhz bu baxımdan, Azərbaycan indi ABŞ üçün Cənubi Qafqazda sadəcə tərəfdaş deyil – siyasi yöndən əsas dayaqlardan biridir.

Vaşinqtonun bu strateji yanaşması, şübhəsiz ki, geoiqtisadi və hərbi-siyasi qarşılıqlı maraqlara əsaslanır. Azərbaycan nəinki enerji resurslarının Qərbə təhlükəsiz çatdırılması üçün əsas dəhlizdir, həm də Şərq–Qərb və Şimal–Cənub tranzit marşrutlarının qovşağında yerləşən, bir çox regional layihənin siyasi və texniki lokomotividir. Hazırda ABŞ bu imkanları



yalnız enerji müstəvisində deyil, həm də təhlükəsizlik, rəqəmsal infrastruktur və regiondaxili sabitliyin təminatı sahəsində istifadə etməyə çalışır.

Azərbaycanın müstəqil qərarvermə bacarığı və öz maraqlarına əsaslanan xarici siyasəti ABŞ-ın bu ölkəyə yönəlmiş strateji yanaşmasının əsasında dayanır. Çünki Vaşinqton üçün etibarlı tərəfdaş olmaq, ilk növbədə, öz maraqlarını başa düşən və onları açıq müdafiə edən siyasi liderlik deməkdir. Elə bu baxımdan Prezident İlham Əliyevin balanslı, rasional və prinsipial siyasəti ABŞ-da yalnız real təhlükəsizlik partnyoru kimi yox, həm də regionda institusional sabitlik daşıyıcısı kimi qəbul edilir.

ABŞ-ın Cənubi Qafqaz və daha geniş mənada Avrasiya siyasətindəki təməl hədəflər günümüzün çoxqütblü dünya sistemində yeni balans mərkəzləri yaratmaqla bağlıdır. Rusiya Federasiyasının öz təsir sahəsini bərpa etməyə çalışdığı, İranın regionda şaxələndirilmiş təsir mexanizmləri qurduğu, Çinin isə "Bir kəmər, bir yol" təşəbbüsü ilə Avrasiyanın dərinliklərinə iqtisadi nüfuz etməyə başladığı bir vaxtda, Vaşinqton bu üç güc mərkəzinin qarşısında tənzimləyici, balansyaradıcı və sabitləşdirici qüvvə kimi çıxış edə biləcək tərəfdaşlara ehtiyac duyur.

Azərbaycan bu funksiyanı yerinə yetirmək üçün institusional, strateji və siyasi kapital baxımından uyğun aktordur. Bakı regionda öz siyasi iradəsi və dövlətçilik institutları ilə sabitlik təmin edən, eyni zamanda, çoxvektorlu diplomatiya vasitəsilə ziddiyyətli maraqları eyni platformada cəmləşdirə bilən nadir dövlət nümunəsidir.

Son aylarda ABŞ ilə Azərbaycan arasında gedən danışıqların strukturlaşmış və konkret nəticələrə yönəlmiş format alması da bu strateji yanaşmanın real təzahürüdür. Tramp Administrasiyası dövründə daha aydın şəkildə cızılmış bu xətt, xüsusən Stiv Uitkoffun Bakıya səfəri ilə praktik məcraya keçdi. ABŞ daha əvvəl öz geosiyasi təsirini bölgədə əsasən beynəlxalq QHT-lər və diplomatik hesabatçılıq vasitəsilə icra edirdisə, bu gün artıq, o, lokal və regional güclərlə birbaşa əməkdaşlıq əsaslı modelə keçir – və bu modelin mərkəzində Azərbaycan durur.

Azərbaycanın seçilməsi yalnız siyasi stabilikliklə izah olunmur. Bakı uzun illərdir ki, İsraillə yüksək səviyyəli, çoxşaxəli və dərin strateji münasibətlər qurub. ABŞ-ın Yaxın Şərqdəki əsas müttəfiqi olan İsrailə bağlı yeni geosiyasi konstruksiyalarda Azərbaycanın iştirakı artıq təbii zərurət kimi görünür. Bakı bu üçbucaqda – Vaşinqton–Təl-Əviv–Bakı oxunda – dinamik, təşəbbüskar və dayanıqlı oyunçu kimi dəyərləndirilir.

Azərbaycanın əlavə bir üstünlüyü isə onun beynəlxalq sistemdə özünü identifikasiya etmə üsulundadır. Bakı özünü nə "Qərbin forpostu", nə də "Şərqin müdafiəçisi" kimi təqdim edir. Azərbaycan öz suveren qərarvermə modelinə və balanslaşdırılmış diplomatiyasına əsaslanan milli maraq prioritetlərini önə çıxaran ölkədir. Bütün bunlar ABŞ-ın yeni xarici siyasət doktrinasında mühüm yer tutan "reallıq əsaslı tərəfdaşlıq" prinsipi ilə üst-üstə düşür.

Vaşinqton bu dəfə özünə yalnız loyal və itaətkar tərəfdaş axtarmır. O, özünəməxsus geosiyasi kimliyə malik, lakin ABŞ-la maraqları kəsişən ölkələrlə sabit və qarşılıqlı faydalı münasibətlər qurmaq istəyir. Bu mərhələdə Azərbaycanın üstünlüyü onun Yaxın Şərqlə Mərkəzi Asiya arasında əlaqələndirici körpü funksiyasını yerinə yetirməsi və bu körpünün hər iki tərəfində dayanıqlı əlaqələrə malik olmasıdır. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Bəhreyn kimi ölkələrlə paralel şəkildə həm siyasi, həm iqtisadi əməkdaşlıq mexanizmləri, həm də humanitar və mədəni kanallar aktivləşib. Mərkəzi Asiya ilə isə Azərbaycanın enerji, nəqliyyat və ticarət sahəsində qurduğu əməkdaşlıq artıq inteqrativ xarakter alır. Bütün bunlar Azərbaycanın regional lider funksiyasını möhkəmləndirir. ABŞ bu liderliyi dəstəkləməklə, əslində, öz strateji niyyətlərini dolayısı ilə həyata keçirməyə çalışır.

Vaşinqton üçün Azərbaycanla tərəfdaşlıq, eyni zamanda, regional təhlükəsizlik sisteminin yenidən dizaynı baxımından da önəmlidir. ABŞ yeni regional nizam qurmaq üçün güvənə biləcəyi sabit dayaqlara ehtiyac duyur. NATO-nun bilavasitə iştirakı mümkün olmayan coğrafiyada Azərbaycan kimi aktorların rolunu gücləndirmək, həmçinin enerji və hərbi-texniki əməkdaşlıq sahəsində bu ölkələri çevik şəkildə inteqrasiya etmək Ağ Evin strateji planlarında mərkəzi yer tutur.

Azərbaycanın bu sistemə qoşulması, yaxud bu sistemin onun ətrafında qurulması artıq texniki detal məsələsidir. Söhbət ABŞ-ın Cənubi Qafqazda uzunmüddətli "təhlükəsizlik dayağı"ndan gedir – və bu dayağın adı Bakıdır.

Məhz bu prizmadan baxanda, son zamanlar gündəmə gətirilən "İbrahim müqavilələri"nin genişləndirilməsi ideyası da yalnız diplomatik və simvolik səciyyə daşıyır. Azərbaycan üçün İsraillə münasibətlər artıq çoxdan formallaşıb, əməkdaşlıq hərbi və iqtisadi sferalarda dərinləşib. Bu baxımdan "İbrahim sazişinə qoşulmaq" yalnız mövcud münasibətlərin beynəlxalq hüquqi konstruksiyada tanınması olardı.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Dəhlizi dalana "dirəməyin" vaxtı deyil

## *Tehran bu regional layihənin onun üçün də faydalı olacağına inanmağa başlayıb*

**Son vaxtlar Cənubi Qafqaz bölgəsi ətrafında baş verənlərin fonunda region ölkələrinin bir çox məsələlərə yanaşmada ortaq baxışları formalaşmaqdadır. Müsbət tendensiya sayıla biləcək bu durumu şərtləndirən vacib məqamlar var. Onlardan biri, bəlkə də birincisi Ağ Evin yeni administrasiyasının bu bölgəyə artan marağı, mövcud münaqişəyə son qoyulması üçün göstərdiyi səylər və bu zaman yanaşmasında buna qədər aşkar görünən ikili yanaşmadan deyil, reallıqdan çıxış etməsidir. ABŞ Prezidenti Donald Trampın Bakı və İrəvana tərəf atdığı xoşməramlı addımlar bizə bunu deməyə əsas verir.**



Azərbaycan və Ermənistan arasında sülhə nail olunması üçün rəsmi Vaşinqtonun sərgilədiyi siyasi iradə və müsbət dinamika böyük ümidlər doğurub. Bununla yanaşı, Zəngəzur dəhlizinin reallaşması yönündə göstərdiyi təşəbbüslər Ağ Ev Administrasiyasının xarici siyasət xəttində praqmatizmi əsas götürdüyünə dəlalət edir. Bölgə ölkələri üçün strateji sayılan bu dəhlizin reallaşmasını dalana dirəmək istəyənlərin səsi daha eşidilmir. Bu məsələdə həlledici amil kimi Tehran hakimiyyəti ilə Azərbaycan rəhbərliyinin qarşılıqlı etimada söykənən şəffaf, səmimi münasibətlərini, sıx dialoqu qeyd etməliyik. Digər mühüm amil isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngəzur dəhlizinin açılması baxımından İran amilinin vacibliyini qabardıb.

Amma o da məlumdur ki, İran hakimiyyətində məlum qanadın təmsilçiləri "sərhədlərdə geosiyasi dəyişikliyə qarşı" mücərrəd açıqlamalar verir, bu zaman fərqli siyasi ritorika altında niyyətlərini gizlətməyə çalışırlar. Onlar bu yolun açılmasının Ermənistanın ərazi bütövlüyü və suverenliyini pozacağından əndişələndiklərini deyirlər. Amma rəsmi Bakı heç bir ölkəyə qarşı ərazi iddiasının olmadığını dəfələrlə və ən yüksək tribunalardan bəyan edib. Yəni Zəngəzur yolunun açılması Ermənistanın nə ərazi bütövlüyünə, nə də suverenliyinə problem yaradacaq. Tamamilə əksinə, bu layihənin İrəvana siyasi və iqtisadi dividendlər gətirəcəyi şübhəsizdir.

*

Diqqətli oxucuların yadında olar. Tehran Bakının irəli sürdüyü "3+3" formatına da əvvəlcə pozitiv yanaşmırdı. Amma ötən müddət və təcrübə sübut etdi ki, regional məsələlərin həlli bölgə və bölgəətrafı aktorların iştirakı ilə daha tez həllini tapa bilər. İndi hamıya gün kimi aydındır ki, Cənubi Qafqazda təhlükəsizlik Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasından başlayıb və bu normallaşma Zəngəzur dəhlizinin işə düşməsi ilə daha uğurla davam edə bilər.

Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə TDT dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışında Şərq və Qərb arasında təhlükəsiz və fasiləsiz əlaqəni təmin edən, strateji marşrut kimi ön plana çıxan Orta Dəhlizdən söz açmış, Orta Dəhlizin vacib komponenti sayılan Zəngəzur dəhlizi üzərində dayanıb İran amilini qabartmışdı. Tehrandan regionda sülh, sabitlik və inkişafa töhfə verəcək addımları dəstəkləməyi gözlədiyini vurğulayan Türkiyə lideri Orta Dəhlizdə İran İslam Respublikasının da yeri olduğuna işarə vurmuşdu.

Doğrudur, bundan bir qədər sonra İranın Ali rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayətinin Zəngəzur dəhlizi ilə bağlı səsləndirdiyi fikirlər nəinki Azərbaycanda, hətta Ermənistanın özündə belə birmənalı qarşılanmadı. Vilayəti Zəngəzur dəhlizinin işə düşməsinin ilk növbədə, guya, Ermənistanın öz suverenliyi üçün təhlükə yaradacağını iddia etmişdi.

**Bu barədə Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin rəhbəri, politoloq Fərhad Məmmədov** Teleqram kanalında



paylaşdığı analitik şərhində bildirir ki, Vilayətinin səsləndirdiyi iddialar İran hakimiyyətindəki mühafizəkar qrupun region ölkələrinin qərarvermə hüququna göstərdiyi hörmətsiz münasibəti bir daha nümayiş etdirir: "Vilayətinin Zəngəzur dəhlizini İran və Rusiyanı qurudan mühasirəyə almaq məqsədi daşıyan layihə kimi təqdim etməsi təkcə məntiqsiz bəyanat deyil. Bu, reallıqla açıq-aşkar ziddiyyət təşkil edir. Rusiyanın və İranın dənizə çıxışı mövcuddur, həmçinin bu iki ölkə həm Xəzər dənizi, həm də Orta Asiya vasitəsilə birbaşa əlaqəyə malikdir. Belə olan halda bu ölkələrin "qurudan mühasirəyə alınması" iddiası absurddur".

Politoloq hesab edir ki, Tehranın rəsmi nümayəndəsinin "Müqavimət oxu" dediyi ifadə artıq real məzmununu itirib: "Bu "ox"dan, sadəcə, parçalar qalıb. Əslində, qalan yalnız reallığa və praqmatizmə qarşı müqavimətdir. İran tərəfi Zəngəzur dəhlizini ABŞ, NATO, İsrail və guya "pantürkist çevrələrin" layihəsi kimi təqdim etməklə, adi bir dəmir yoluna süni şəkildə strateji çalarlar qazandırmağa çalışır. Məqsəd İranda bəzi dairələrin ölkə daxilində öz nüfuzunu gücləndirmək cəhdidir".

Bu məsələdə İrəvanın mövqeyinə toxunan F.Məmmədov vurğulayıb ki, Ermənistan hakimiyyətinin Azərbaycanla ikitərəfli formatda kommunikasiyaların açılması istiqamətində cəhdlərinə baxmayaraq, İran radikalarının bu tip bəyanatları İrəvanın təşəbbüslərinin uğursuzluğa düçar olmasına səbəb olur: "Əgər Ermənistanın suveren qərarlarına İranın rəsmi müşavirləri bu cür müdaxilə edirsə, Bakı Ermənistan hökumətinin təkliflərini necə ciddi qəbul edə bilər?"

İntəhası, Ermənistan rəhbərliyi də anlamağa başlayıb ki, onların kommunikasiyaların açılması və Zəngəzur dəhlizi mövzusu ilə manipulyasiya cəhdləri iflasa uğrayıb. Sözdə ABŞ-a dəhliz verməkdən imtina etdiyini deyən rəsmi İrəvan özü alternativ təkliflə çıxış edə bilmir. Çünki kənar təzyiq və təhdidlərə məruz qalır. Mövcud vəziyyət 2021–2023-cü illərdə Paşinyanın yürütdüyü düşünülməmiş siyasətinin nəticəsidir. O zaman Qarabağ uğrunda heç bir faydası olmayan "mübarizədə" hər kəsdən yardım istəyən Paşinyana indi ən sərt formada cavab verilir.

*

Bir daha Vilayətinin açıqlamasına qayıdaraq onu deməliyik ki, İranın ən yüksək siyasi dairələrində heç də hamı qonşu ölkələrlə qarşılıqlı anlaşma mühiti yaratmağa, mehriban münasibətlər qurmağa meyilli deyil. Bu kontekstdə Vilayətinin mövqeyi İran prezidenti Məsud Pezeşkianın konstruktiv bəyanatları və təşəbbüsləri ilə ziddiyyət təşkil edir. Prezidentin qonşularla normal münasibətlər qura bilməməkdə məhz Tehranın günahkar olması barədə son açıqlaması isə düşünürük ki, hakimiyyətdəki mühafizəkar qanada ünvanlanmış ismarıcdır.

Maraqlıdır ki, cari ilin iyulun sonlarında İran Xarici İşlər Nazirliyi nəqliyyat yollarının inkişafı ideyasını dəstəkləyib və bunu iqtisadi inkişaf baxımından mühüm məsələ adlandırıb. Nazirliyinin sözçüsü Bəqai Tehranın kommunikasiyaların genişləndirilməsi ilə razı olduğunu, amma marşrutların inkişafının regionun geosiyasətində dəyişikliklərə gətirib çıxarmamasını vurğulayıb. O, sözünün sonunda digər vacib məsələ kimi kənar oyunçuların regiona daxil olmasını qeyd edib ki, onun fikrincə, bu, regionun inkişafına və təhlükəsizlik maraqlarına cavab vermir.

Əslində, Xameneinin müşaviri Vilayətinin bəyanatını İran rəhbərliyinin bu məsələyə ilk ciddi reaksiyası saya bilərik. Axı, ölkənin Ali liderinin müşaviri 16 il xarici işlər naziri vəzifəsində çalışıb. Tehranın nöqteyi-nəzərindən Zəngəzur dəhlizi təkcə Naxçıvanla materik Azərbaycan arasında nəqliyyat marşrutu deyil, Türkiyə, İsrail və ABŞ-ın dəstəklədiyi Xəzər və Aralıq dənizlərini birləşdirən daha böyük planın tərkib hissəsidir. Bu planın həyata keçirilməsi, Tehranın hesab etdiyi kimi, regionun təhlükəsizlik sistemində strateji dəyişikliyə səbəb olacaq. Aydın məsələdir ki, İran Cənubi Qafqazı özünün "qırmızı xətləri"nin kəsişdiyi "ərazi vahidi" kimi görür.

Azərbaycan, nəhayət, 2023-cü ildə öz ərazi bütövlüyünü bərpa edəndən sonra İranın bölgədə, demək olar ki, əsas təsir rıçaqları tükəndi. Bu prizmadan yanaşanda 2023-cü ilin oktyabrında Azərbaycanın Qarabağda həyata keçirdiyi uğurlu antiterror əməliyyatından sonra rəsmi Tehranın Zəngəzur dəhlizinə alternativ yol – "Araz dəhlizi" deyilən marşrutun inşası ilə razılaşması təsadüf sayıla bilməz.

Yazımızın sonunda bir daha Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın TDT-nin Budepeşt sammitində səsləndirdiyi fikirlərə qayıdırıq. Ərdoğan çıxışında İrana Zəngəzur dəhlizinə maneçilik törətməməyi, dolayısı ilə Türk dünyasının qarşısında dayanmamağı tövsiyə etmiş oldu. Yəni o, bu layihənin əleyhdarlarını Türk həmrəyliyi ilə xəbərdar etdi. Yəqin Tehran da bundan öz payını götürdü və son vaxtlar onun Zəngəzurla bağlı mövqeyində sezilən yumşalmanın bir səbəbi də budur. İran rəhbərliyi anlayıb ki, dəhlizi dalana "dirəmək" cəhdlərinə son qoymalı, Avropaya meyillənmiş Ermənistanın deyil, özünün strateji maraqlarını düşünməlidir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Ayvazovskilər bizim ruhumuzu xilas edə bilməzlər

**Qəribə təzadlar dövründə yaşayırıq. Rusiya bizi erməni əsilli rus rəssamı İvan (Ovanes) Ayvazovskinin 2021-ci ilin dekabrında qanunsuz şəkildə qoyulmuş abidəsini Xankəndidən çıxartdığımıza görə mədəniyyətə asilikdə ittiham edir. Şuşanın mərkəzində erməni vandalizminin daş pasportu kimi tarixə möhürlənən güllələnmiş heykəllərin aqibətinə münasibətin adı necə olsun bəs? Görəsən, Azərbaycanı mədəni abidələrlə müharibədə suçlayanlar niyə həmin o məşum vəhşilik aktlarına qarşı çıxmırdılar?**



**ELNARƏ AKİMOVA,**

**Milli Məclisin deputatı, filologiya elmləri doktoru**

Tarixin dərinlərinə ensələr görərlər ki, hələ XV əsrdə rus səyyahı Afanasi Nikitinin qeydlərində Azərbaycanla, onun başqa millətlərin münayəndələrinə, mədəniyyətinə xoş münasibəti ilə bağlı hansı qeydlər yer alır. L.N.Tolstoy, A.S.Puşkin, S.Yesenin yaradıcılığından Azərbaycana sevgi hansı qızıl xətt kimi keçir. Hətta Çar Rusiyasının dini ədavət yayan imperiya siyasəti Azərbaycan ərazisində çoxkonfessiyalıq mühitində problemlər yaratsa da, bunlar cəmiyyətdə dərin kök sala və əhalinin şüuraltısına əsrlər uzunu möhürünü vurmuş humanizm dəyərlərinə xələl gətirə bilmədi. İsa Məsih şəxsiyyəti Azərbaycanın görkəmli aydınları, sənət adamlarının şüurunda əzəli doğmalığını saxladı və bu xalq yanaşma və münasibətlərində humanist, tolerant qayəyə istinad amilini unutmadı.

İndi Rusiya haqsız olaraq mədəni tolerantlıqdan dəm vurur. Bir daş parçasının sökülməsinə belə etiraz ədasında və təəssübündə olanlar görəsən niyə onlarla insanın tələf olduğu təyyarə qəzasının sonuclarına qatlanmaqdan yayınır? Azərbaycanın təyyarə qəzasından sonra Rusiyadan kompensasiya tələb etməsinin qarşılığında Kreml bu haqlı tələbə qarşı məsuliyyətsiz davranmaq bir yana, bərabərhüquqlu əməkdaşlıq ruhuna zidd addımlar sərgiləməkdədir. Mədəni mövqe ucalığından bəhs edən Zaxarovalar, Zatulinlər, Solovyovlar, Şvıdkoylar Yekaterinburqda baş verən ekstremizm və zorakılıq proseslərini niyə gözardı edir, miqrantlara qarşı barbar münasibətləri niyə doğru sayır, məşhur jurnalist-ziyalı Mixail Qusmanın Xankəndidə verdiyi suallara görə, işdən çıxarılaraq cəzalandırılmasına niyə etiraz etməyi bacarmır? Buna onların cəsarəti çatmır, yoxsa mədəni-etik əxlaq ölçüləri?!

Azərbaycanda, paytaxt Bakıda onlarla rus məktəbləri var, onlarla Rusiyalı alim, ziyalı, incəsənət xadiminin heykəli, adlarına küçələr var. Bəs Rusiyada Azərbaycanın hansı şair, yazıçı, rəssamının heykəli var? Buyursunlar, bu imperiya təfəkkürlü sənət aşıqləri Aşıq Ələsgərin abidəsini ucaltsınlar, sonra bizə mədəniyyət dərsi keçməyə çalışarlar. Mən İrəvanda ucaltsınlar demirəm, çünki onsuz da o abidəni İrəvanda özümüz yaxınlarda ucaldacağıq!

Dünyada bestsellerə çevrilmiş məşhur bir Azərbaycan romanı var: "Əli və Nino". Müsəlman Əli ilə xristian Ninonun sevgi macərası üzərində qurulan romanda Azərbaycanın siyasi elitasına daxil insanların toplaşdığı bir yığıncaqda dövrün gərgin siyasi təlatümlərinə münasibət bildirən nüfuzlu şəxs - Bakı milyonçusu, neft maqnatı Ağa Musa Nağıyev deyir: "Mən yaşlı bir adamam... Gördüklərim, eşitdiklərim məni çox kədərləndirir. Ruslar türkləri öldürürlər, türklər ermənilərlə vuruşurlar. Ermənilər isə bizim kökümüzü kəsməyə can atırlar. İndi biz də ölkəmizdən bizə lazım olmayan naqislikləri təmizləməyə çalışırıq. Bu, pis şey deyil! Tutaq ki, kimsə bizdə məktəb, yaxud xəstəxana açıb. Amma orada yalnız boş şeylər tədris edilirsə, o məktəb kimə və nəyə lazımdır? Yaxud bədəni müalicə edib, ruhu yaddan çıxaran xəstəxananın nə faydası var? Bizim ruhumuz Tanrıya doğru getmək istəyir".

İndi biz yaralarımızı sarıyıb yalnız bədəni müalicə etmirik, həm də ruhumuzu xilas etməyə çalışırıq. Bu xilas işində "tufan" təbliğatçıları İvan Ayvazovskilər çətin bizə kara gələ. Ona görə də bizim hər kəsə deyiləcək sözümüz, veriləcək cavabımız var. Yalnız ona görə yox ki, biz öz torpaqlarımızın sahibiyik, kimin heykəlinin orda qalıb qalmaması da müstəqil siyasət aparan ölkə kimi bizim daxili işimizdir. Həm də ona görə ki, indi sahib olduğumuz torpaqlarımız otuz ilə yaxın işğal prosesində olanda və orda təcavüzün bütün çeşidləri təcrübədən keçiriləndə, hətta ən ekstremal şəraitdə belə, biz, ilk növbədə, ali insani duyğuların və nəhayət, beynəlxalq hüquq normalarının qorunmasına çağırış motivləri səsləndirib gözləmə mövqeyi tutduq.

Nəticədə heç bir "humanist"in səsini eşitmədik, heç bir dövlətin haqq uğrunda reaksiyasına şahid olmadıq. "Haqq isə verilmədiyinə görə, alındı"! Odur ki, bizə mədəniyyət dərsi keçməyə çalışanlar gedib öz xislətlərini səhmana salsınlar.

# Haylar indi də almanlara qəzəbləniblər

## *Humanizmi öz maraqları ilə ölçənlər Berlinə irad tuturlar*

**Ermənistanın əksər media orqanları dünyanın harasında hansı hadisənin baş verməsindən asılı olmayaraq, onu dərhal öz maraqları kontekstində şərh etməyə çalışırlar. Ən müxtəlif mövzular – istər siyasi – hakimiyyət böhranları, istər təbii fəlakətlər, istər də beynəlxalq tədbirlər, pop-ulduzların konsertləri və nüfuzlu idman yarışları – onların təbliğat alətinə çevrilir. Bu zaman əsasən İkinci Qarabağ müharibəsinə və 2023-cü ilin sentyabrındakı antiterror əməliyyatına istinad edirlər. Onlar müharibə və antiterror əməliyyatı nəticəsində "etnik təmizləmə" aparıldığını iddia edərək beynəlxalq ictimai rəydə çaşqınlıq yaratmağa çalışırlar. Həqiqətə uyğun olmayan bu yanaşma ilə həm diaspordan maliyyə qoparmağa, həm də Ermənistanın mövqeyini gücləndirməyə çalışırlar.**



Belə dəstə-xətti bugünlərdə Hayastanın özünü bir pillə üstün göstərməyə, hamıya dərs keçməyə çalışan "Armenian Report" analitik informasiya portalında yerləşdirilmiş "Yalançı alman humanizmi" sərlövhəli məqalədə görmək mümkündür. Əvvəlcə yazıda söhbətin nədən getdiyini aydınlaşdırmağa çalışaq. Deməli, Almaniyanın mədəni və intellektual elitasının 200-dən çox nümayəndəsi Federal Kansler Fridrix Mertsə İsrailə silah tədarükünü dayandırmağa çağıran açıq məktub ünvanlayıblar. Məktub Avropa mətbuatında qızğın müzakirələrə səbəb olub. Aktyorlar, rejissorlar, yazıçılar, jurnalistlər və hüquq müdafiəçiləri Qəzza zolağında "humanitar fəlakət" adlandırdıqları və onların fikrincə, silah tədarükü nəticəsində daha da pisləşən hadisəyə qarşı çıxış ediblər. Açıq məktuba emosional başlıq seçilib. O, belə adlanır: "Qəzzanı ölməyə qoymayın, cənab kansler!" Məktubda Almaniyanın silah ixracına nəzarət üzrə beynəlxalq müqavilələrə əməl etmək vəzifəsindən, humanitar risklərdən və beynəlxalq hüququn mümkün pozuntularından bəhs edilir.

Bu xatırlatmadan sonra məqalə müəllifi Razmik Akopcanyan mətləbin üstünə gəlir. Sözünün, necə deyərlər, mustafasını deməyə çalışır. Yenə də avropalıları qınamaq, tənə, giley-güzar motivləri, günahkar axtarışları baş qaldırır. Yazır ki, bəs "Artsax ölərkən" (?) bu səslər harada idi? Bəs deməzsinizmi, Artsaxda yüz minlərlə (?) insan bir ilə yaxın mühasirədə qalıb. Bəs Azərbaycan erməni əhalisini xarici dünya ilə birləşdirən yeganə yol olan "Laçın" dəhlizini bağlayıbmış. Bəs camaat aclığa, dərman, yanacaq, nəqliyyat və rabitə çatışmazlığına məhkum edilibmiş. Sən demə, bu, beynəlxalq humanitar hüququn bütün mümkün normalarını pozan blokada aktı imiş. Müəllif o vaxt həmin 200 alman mədəniyyət xadiminin harada olduğunu soruşub: "Onların "Artsaxı ölməyə qoymayın, cənab kansler" şüarı harada idi? İndi Fələstindəki vəziyyəti hər gün işıqlandıran alman mediası harada idi?"

Yazıda alman elitası nümayəndələrinin humanizminin selektiv olduğu iddia edilir: "Suallar çoxdur və cavablar yoxdur. Amma indi Qəzza zolağındakı vəziyyətdən narahat olan almanların susması fonunda 2023-cü ilin sentyabrı bütün dünya erməniləri üçün təqvimdə qara günlərə çevrildi".

Müəllif həyasızcasına iddia edib ki, Azərbaycan "Artsaxa qarşı cəza tədbiri" həyata keçirib, onun "siyasi və fiziki strukturunu" məhv edbi. Guya, ermənilər kütləvi şəkildə evlərini tərk etmək məcburiyyətində qalıblar. Jurnalist bunu digər haylar və haypərəstlər kimi, "etnik təmizləmə" adlandırıb. Beynəlxalq təşkilatların, hüquq müdafiəçiləri və jurnalistlərin indi bu barədə çox gec və çox sakit danışırdıqlarını qeyd edib.

Berlinin sükut nümayiş etdirdiyini vurğulayan Akopcanyan Almaniyanın Azərbaycanın hərəkətlərini pisləmədiyindən, hətta onunla əməkdaşlığı davam etdirməsindən qəzəbini bu sözlərlə ifadə edib: "Ticarət, enerji sazişləri, siyasi səfərlər. Bakıdan gələn təbii qazın insan həyatından qiymətli olduğu ortaya çıxdı. Bu gün Qəzza mövzusunda tələblər irəli sürən eyni adamlar Azərbaycanın az qala eyni hərəkətlərinə (?) göz yumdular".

*

Yazı bütövlükdə bu cür qərəzli, yalan məlumatlarla doludur. Onu təkcə bir jurnalistin şəxsi yanaşması kimi deyil, həm də Ermənistanın klassik təbliğat üslubunun növbəti nümunəsi kimi qiymətləndirmək mümkündür. Müəllif Almaniyada bir qrup mədəniyyət və ictimaiyyət nümayəndəsinin İsrailə silah ixracına qarşı çıxış etməsini əsas götürərək diqqəti yenidən 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun Qarabağda həyata keçirmək məcburiyyətində qaldığı antiterror əməliyyatına yönəltməyə cəhd edir. Hər zamankı kimi, mövzuya kənardan yanaşan oxucuda elə təəssürat yaradılmasına çalışılır ki, guya, həmin vaxt Qarabağda həqiqətən də "etnik təmizləmə" həyata keçirilib. Halbuki bu yanaşmanın heç bir əsası yoxdur. Çünki ölkəmizin Qarabağda keçirdiyi birgünlük antiterror tədbiri heç bir beynəlxalq sərhədi aşmayıb, ölkənin suveren ərazisində "boz zona"nın aradan qaldırılması məqsədilə həyata keçirilib. Digər məqsəd separatçı silahlı birləşmələrin zərərsizləşdirilməsi olub. Bunu görməmək, yaxud görmək istəməmək ya qərəzdən, ya da obyektivlikdən uzaq mövqedə olmaqdan irəli gəlir.

Müəllifin iddialarından biri də bundan ibarətdir ki, guya, Qarabağdakı erməni əhalisi blokada şəraitində saxlanılıb, aclıq və dərmansızlıqla üzləşib, nəticədə isə "etnik təmizləmə" aparılıb. Bu, artıq neçə dəfə təkzib olunmuş və beynəlxalq ekspertlərin səfərləri ilə təsdiqlənmiş yalandır. Həmin dövrdə Beynəlxalq Qırmızı Xaç Komitəsi və BMT-nin rezident ofisləri bölgəyə dəfələrlə daxil olub, Azərbaycanın həmin vaxt bölgədə olan Rusiya sülhməramlıları vasitəsilə humanitar yardım təklif etdiyi, Laçın yolu ilə paralel Ağdam istiqamətindən yük daşınmasına icazə verildiyi sənədlərlə sübut edilib. Bu baxımdan "blokada" və "mühasirə" kimi məfhumlar, sadəcə, hisslərə toxunmağa, emosiya oyatmağa və reallığı pərdələməyə xidmət edir. Ermənilərin könüllü şəkildə bölgəni tərk etməsi isə Azərbaycanın hansısa təzyiqi ilə deyil, Qarabağdakı keçmiş separatçı xunta rejiminin, Ermənistan mediasının və diasporunun qəsdən yaydığı təşvişedici informasiya fonunda baş verib.

Digər tərəfdən, alman ziyalıların Fələstinə mövqeyini Qarabağla eyniləşdirmək cəhdinin özü absurd və qeyri-ciddidir. Ermənistan Azərbaycana qarşı 30 ilə yaxın işğalçılıq siyasəti yürütmüş, nəinki beynəlxalq hüquqa, hətta BMT Təhlükəsizlik Şurasının qətnamələrinə belə məhəl qoymamış bir ölkədir. Bu baxımdan, "Artsax"a görə, guya, susulması, amma Qəzzaya görə danışılması kimi suallar, əslində, əsassız və absurddur.

Məqalədə diqqət çəkən digər məqam odur ki, müəllif Azərbaycanı "Artsaxın siyasi və fiziki struktur"larını məhv etməkdə ittiham edir. Guya, bu qondarma struktur sülhpərvər, demokratik və legitim bir qurum olub. Halbuki "Artsax" deyilən qondarma separatçı rejim 1991-ci ildən bəri nə beynəlxalq aləmdə tanınıb, nə də hüquqi əsaslara malik olub. Özünü "dövlət" adlandıran keçmiş qondarma rejim, onun "strukturları" qeyri-qanuni silahlı dəstələrin siyasi örtüyü olub. Antiterror əməliyyatı həm də bu psevdoqurumların iflic edilməsi üçün həyata keçirilib. Əgər bu, "strukturun məhvi"dirsə, onda bu, beynəlxalq hüquqa tam uyğun bir məhvdir.

Sonda müəllifin qaldırdığı "niyə o vaxt alman mədəniyyət xadimləri səslərini çıxarmadılar" sualı açıq qalır. Əslində, cavab çox sadədir. Zənnimizcə, məqalə müəllifi də bu sualın cavabını bilməmiş deyil. Məsələ ondadır ki, Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa uyğun, legitim və zəruri idi. Qarabağda aparılan tədbirlər ölkənin suverenliyini təmin etməyə yönəlmişdi və heç bir formada etnik təmizləmə, işğalçılıq, kolonializm və ya irqi ayrı-seçkilik siyasəti deyildi. Əgər bu gerçəklik beynəlxalq ictimaiyyətin susqunluğuna səbəb olubsa, deməli, Azərbaycan doğru olanı edib və dünya bunu qəbul edib. Reallıq ondan ibarətdir ki, Azərbaycan yalnız suveren hüquqlarını bərpa edib və beynəlxalq hüquq normalarına əsaslanıb.

Erməni jurnalistin rəsmi Berlini hədəfə alan bu fikirləri hay təbliğatının ikiüzlülüyünü və siyasi məqsədlərə xidmət etdiyini bir daha göstərir. Azərbaycanın suveren ərazisində apardığı antiterror əməliyyatını Yaxın Şərqdə 70 ildən çox davam edən qanlı hadisələrlə eyniləşdirmək təkcə reallıqdan uzaqlaşmaq deyil, həm də məqsədli təhrifdir. Almaniya Azərbaycana qarşı niyə sərt çıxış etməlidir? Azərbaycanın BMT-nin tanıdığı ərazisində separatizmi ləğv etməsinə, beynəlxalq hüquqa uyğun addım atmasına görə? Almaniyanın bununla bağlı qınanması, əslində, Berlinin ədalətli mövqeyinə qarşı əsassız hücumdur.

Bu cür təbliğat yazılarının əsas məqsədi aydındır: beynəlxalq aləmdə baş verən istənilən humanitar hadisəyə "Artsax prizması"ndan yanaşmaq və bütün diqqəti yenidən "əzabkeş erməni qurbanlıq mifinə" yönəltmək. Ancaq daha bu taktika da tükənib. Dünya ədalət tərəzisində daha ədalətli və realist seçim etməyə başlayıb. Ermənistan və onun informasiya platformaları isə hələ də keçmiş miflərlə yaşamaqda israrlıdır.

*Səxavət HƏMİD*
*XQ*

*Köşə*

# UNICEF Ukraynada və Qəzzada daha çox lazımdır

## *Azərbaycanın bu qurumla yeni fazada əməkdaşlığı dövrün tələbidir*



**Yeganə HACIYEVA,**
**politoloq**

**Xəbər verildiyi kimi, BMT-nin ixtisaslaşmış qurumu UNICEF 3 sentyabr 2025-ci il tarixindən etibarən mərhələli şəkildə Azərbaycandakı fəaliyyətini dayandıracaq. Bu məsələ hələ cari ilin martın 3-də Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovun ölkədə səfərdə olan BMT-nin İnkişafı Əlaqələndirmə Ofisinin Avropa və Mərkəzi Asiya üzrə Regional direktoru Qui-Yeop Sonla görüşündə müzakirə olunmuşdu. Nazir yüksək qonağın nəzərinə çatdırmışdı ki, BMT-nin bəzi qurumları ilə bundan sonrakı tərəfdaşlığı milli prioritetlərə uyğun şəkildə, layihə əsaslı əməkdaşlıq mexanizmləri vasitəsilə davam etdirmək daha məqsədəuyğundur. Həmçinin diqqətə çatdırılmışdı ki, bəzi BMT qurumları ilə gələcək əməkdaşlıq birbaşa mənzil qərargahları ilə işləməklə davam etdiriləcək. Daha sonra bu barədə UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə Kommunikasiya İdarəsinin regional rəhbəri İrina Mazur (Iryna Mazur) mediaya verdiyi açıqlamasında bildirdi.**

Beləliklə, Azərbaycanın UNICEF-lə əməkdaşlığı yeni platformada davam etdiriləcək. Bildiyimiz kimi, UNICEF-in əsas missiyası uşaqların həyatını yaxşılaşdırmaq və onların hüquqlarını, o cümlədən təhsil, sağlamlıq, zorakılıqdan və istismarın digər formalarını təmin etmək üçün hökumətlər, vətəndaş cəmiyyəti təşkilatları və digər tərəfdaşlarla sıx əməkdaşlıq etməkdir.

Hüquqi baxımdan UNICEF beynəlxalq hüquq və Baş Assambleyanın qətnamələri əsasında fəaliyyət göstərən BMT-nin ixtisaslaşmış qurumu kimi dünyada hər bir uşağın müdafiəçisi olmaq kimi bir missiyanı yerinə yetirir. Müxtəlif ölkələrin qanunvericilik dəyişikliklərinin təşviqi, uşaqların həyatının yaxşılaşdırılmasına yönəlmiş proqramların dəstəklənməsi və diqqəti uşaq hüquqları ilə bağlı məsələlərə cəlb etmək kimi mexanizmləri işə salmaqla bu ölkələrin siyasətlərinə təsir etmək imkanı mövcuddur.

Onu da etiraf etmək lazımdır ki, son illər UNICEF uşaq hüquqlarına diqqəti siyasiləşmiş yanaşma ilə müşayiət olunur, xüsusilə böhran və münaqişə vəziyyətlərində təşkilatın fəaliyyətinin heç də həmişə uşaqların real ehtiyaclarına uyğun gəldiyini iddia etmək mümkün deyil.

UNICEF neytral olmağa çalışsa da, açıq-aşkar siyasi fəaliyyətlə məşğul olmasa da, BMT ilə sıx əlaqələri və siyasi müzakirə mövzusu ola biləcək uşaq hüquqlarına diqqət yetirdiyi üçün onun işinin bəzi aspektləri siyasiləşmiş kimi qəbul edilə bilər.

Məsələn, bəzən uşaqların fiziki təhlükəsizliyinin təmin edilməsi kimi daha vacib məsələlərdə təşkilat uşaq hüquqlarının siyasiləşdirilmiş aspektlərinə həddindən artıq diqqət yetirirdi. İndi bütün dünyanı narahat edən məsələ kimi UNICEF-in Qəzzada uşaqların həyatını yaxşılaşdırmaq üçün ciddi səy göstərməsi vacibdir. Fəqət, UNICEF və onun müdafiəçiləri təşkilatın digər regionlarda fəaliyyəti ilə bağlı daha çox narahatdlrlar nəinki bu məsələ ilə.

Azərbaycanla ikitərəfli münasibət haqqında danışırıqsa, ölkəmiz BMT ilə əməkdaşlıq prioritetlərini yeni reallıqlar fonunda yenidən nəzərdən keçirir. Gələcək əməkdaşlıq prioritetlərini də burdan yola çıxaraq formalaşdırmaq planlaşdırır.

Yeni dünya düzəni və bu günün reallıqlarında isə UNICEF-in fəaliyyəti Ukranyada və Qəzzada daha səmərəli, həyati vacibdir, nəinki digər regionlarda. Rəsmi Bakı məhz bu amilləri əsas götürərək UNICEF-lə əməkdaşlığını yeni platofrmada davam etdirməyə qərar verməkdə haqlıdır.

# “Beseqon”: imperializmin elegiyası, sənətin adsız qəbri

## *Yaxud Nikita Mixalkovun “Viktor Hüqoluğu”*

**Hərdən bəzi gedişatları anlamaq, həqiqətən, çox çətindir. Məsələn, necə ola bilərdi ki, humanizm dəyərlərinin daşıyıcısı kimi tanınmış dahi Viktor Hüqo Fransanın Əlcəzairdəki qırğınlarının ideoloqu ampluasında çıxış etsin, vandallığa, barbarlığa, qətl və soyqırımlara bəraət qazandırsın? İnsanın ağlı almır. Hüqonun baxışları yaradıcılığın ifrat yaşantısı idimi, yoxsa maskaların cırılması? Suallar çoxdur, cavablar az.**




Ümumən, sənət dünyasının avantürizm üçün alətə çevrilməsi mürəkkəb psixoloji hadisə kimi diqqət çəkməkdədir. Bu tendensiyaya, hətta, xəstəlik də demək mümkündür. Təəssüf ki, müasir dövrümüz belə xəstəlik təmayüllərindən sığortalanmayıb. Yazımızda həmin təmayüllərin kiçik bir elementinə diqqət yetirəcəyik. Hərçənd, mənfi qəhrəmanımız adi şəxs sayıla bilməz. Söhbət Rusiyanın tanınmış kino xadimi Nikita Mixalkovdan gedir. O Mixalkovdan ki, filmlərini sevə-sevə izləmiş, oynadığı rollara, yaratdığı obrazlara rəğbətimizi ifadə etmişik. İndi isə ifadə etdiyimiz heyrətdir.

Əlqərəz, cənab Mixalkov özünün “Besoqon” layihəsində görünməmiş həyasızlığı ilə də heyrətləndirməyi bacarıb. Onun bu “bacarığının” konkret tərəflərini ümumiləşdirib sonda nəticəyə gələcəyik. Ancaq əvvəlcə bir konkret məqamın üzərində dayanaraq deyək ki, Ulu öndər Heydər Əliyev respublikamıza rəhbərliyinin birinci dövründə azərbaycanlı gənclərin ümumittifaq miqyaslı nüfuzlu ali təhsil müəssisələrində oxumaları təşəbbüsünü qaldırmış və istəyinə nail olmuşdu. Nə üçün buna təşəbbüs deyirik, çünki Vətənimizin də tərkibində təmsil olunduğu keçmiş SSRİ-də xalqımızın nümayəndələrinə qarşı ayrıseçkilik var idi. Heydər Əliyev əzmi duruma qarşı bütün istiqamətlərdə olduğu kimi, təhsil sahəsində də cəbhə açdı və uğur qazandı. Söhbət xalq və millət, onun gələcəyi naminə uğurdan gedir.

Ümummilli lider, faktiki olaraq, ədalətsizliyi aradan qaldırdı. Bu gün isə Nikita Mixalkov özünün “Besoqon”unda bildirir ki, hazırda Azərbaycan Rusiyaya qarşı çıxır və bu nankorluqdur. Sən demə, vaxtilə gənclərimizin keçmiş SSRİ-nin müxtəlif nüfuzlu təhsil müəssisələrinin qapılarını açmaları xalqımıza göstərilmiş böyük lütf imiş və bu lütfə görə indi Rusiyaya minnətdar olmalıymışıq.

Bu yerdə Nikita Mixalkovla Viktor Hüqo, həqiqətən, eyni ampluadadırlar. Əslində, birincinin dediyi də ikincininin “düşüncə məhsulunun” oxşarıdır. Mixalkova görə, azərbaycanlılar yüksək təhsil almalı deyilmişlər. Təhsilsiz xalq isə məhvə məhkumdur. Hüqo da əlcəzairliləri, böyük ölçüdə həm də təhsilsizləri qətlə yetirməyi haqq işi kimi görürdü. Deməli, keçmiş SSRİ dövründə xalqımız tamamilə məhv olmayıbsa, bizə böyük lütf göstərilibmiş. Sabah Mixalkov “Besoqon”unu belə bir sərsəmliyə kökləsə, qətiyyən təəccüblənmərik. Çünki adam özünü, loru dildə desək, dibə endirməkdən, prosesi bədii, estetik çalarlarla “zənginləşdirməkdən” zövq alır.

Cənab Mixalkovun efir həyasızlığı fonunda bəzi suallar yaranır. Birincisi, nə üçün bu adam indiki Rusiya ilə SSRİ arasında paralel aparır? Məgər Rusiya da ittifaqda təmsil olunan müttəfiq respublikalardan biri deyildimi? Görünür, təkcə bu qiyafədə deyilmiş… İkincisi, cənab Mixalkov, yəqin ki, tarixdən az-çox xəbərdardır. Hər ehtimala onun yadına bir vacib məqamı salaq. 1920-ci ildə müstəqil Azərbaycan Respublikasının varlığına son qoyan, Vətənimizi işğal edən Rusiya olmuşdu.

Bir sözlə, cənab Mixalkov düşünməlidir ki, Azərbaycan Rusiyanı deyil, Rusiya Azərbaycanı işğal etmiş, xalqımızı mütiləşdirməyə çalışmış, onun çoxəsrlik tarixinə, mədəniyyətinə xor baxmışdı. Nə qədər həyasız olasan ki, həqiqətləri heçə sayıb minnət qoyasan? Görünür, imperiyabaşlılar özləri üçün belə bir “ixtiyar” müəyyənləşdirmək sərbəstliyinə malikdirlər və duruma görə, əslində, təəccüblənmirik. Bir halda ki, Rusiya Prezidentinin beynəlxalq mədəniyyət məsələləri üzrə xüsusi nümayəndəsi statusunu daşıyan şəxs, yəni Mixail Şvidkoy adlı biri Azərbaycanda Rusiya mədəniyyət günləri tədbirlərinin ləğvini ölkəmizin mədəni mühitinin yoxsullaşması kimi qələmə verib cəfəngiyyata varırsa, cənab Mixalkovdan nə gözləyəsən?

Bəli, keçmiş SSRİ-nin müttəfiq respublikalarının, o cümlədən Azərbaycanın müstəqilliyi Rusiyanın imperiya təfəkkürlü “ziyalılarını” narahat edir. Onlar ölkəmizin suveren siyasət kursunu əsla qəbul etmirlər. Əvvəldə psixoloji xəstəlikdən əbəs yerə söz açmadıq. Mixalkov indiki halda bu xəstəliyin postkolonial təzahür formasının parlaq daşıyıcısıdır. Belələri üçün Azərbaycan və Rusiyanın müttəfiqlik bəyannaməsi yalnız kağız parçasıdır. Axı müttəfiqlik bərabərlər arasında olur. Rusiya isə nəinki ölkəmizi, ümumiyyətlə heç bir dövləti özü ilə bərabər səviyyədə görmür. Ona görə də məsələn, Ukraynada müharibə aqibəti ilə üzləşib. O müharibə ki, ona bataqlıq demək daha düzgündür. Həm də mixalkovların qəddar təfəkkürlərinin sayəsində Rusiya üçün belə bataqlıqların sayı kifayət qədərdir. Sadəcə, onların bir çoxu hələlik aktiv fazada deyillər. Ancaq bu gedişlə…

Bataqlıqların Rusiyanın məhv ssenarisi üçün platformaya çevrilməsi dramatizmi qaçılmazdır. Bir vaxtlar gözəl filmlər çəkən, klassik rus ədəbiyyatının ekranizasiyası ilə məşğul olan Mixalkovun rejissordan ideoloqa çevrilməsi dramatizmdəki miskin mənzərədir. Ona görə miskindir ki, bu şəxsin dilə gətirdikləri imperiyanı süni tənəffüs cihazına qoşmaqdan başqa bir şey deyil. Bir atalar misalımızda deyildiyi kimi, arım var ha, arım var, eşşək arısı. Halbuki, “Besogon” kimi “eşşək arılarına” heç bir ehtiyac yoxdur. Görəsən, Mixalkov arıların sancdıqdan sonra öldüklərini bilirmi?

Ölümdən və Ukraynadan söz düşmüşkən, Prezident İlham Əliyevin ukraynalı tanınmış jurnalist Qordonun sualını cavablandırararkən işğalla barışmamaq mesajını verməsi, bir çoxları kimi, Mixalkovun da kürkünə birə salıb. Bu, obrazlı desək, o qədər böyük birədir ki, kinorejissor 44 günlük müharibəni, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini, az qala, qəsbkarlıq kimi qiymətləndirir. Əslində, Mixalkov çox çürük bir ideyanı təlqin edir: Siz işğalçısınız, biz də həmçinin. Halbuki, onun müqayisəsi absurddur. Çünki ortada əlahəzrət beynəlxalq hüquq var.

Tam əmiliklə deyə bilərik ki, Azərbaycanın təkbaşına öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, regionda oyun qaydalarını müəyyənləşdirmiş, yeni düzən formalaşdırmış dövlətə çevrilməsi Mixalkov kimi sərsəm başlar üçün qorxulu yuxu və əsl kabusdur. Ona görə belələri ölkəmizin müstəqil geosiyasi qərar verməsini xəyanət prizmasından qiymətləndirirlər. Ancaq unudurlar ki, bütün mütərəqqi dəyərlərə tüpürərək xəyanət yolu tutan məhz özləridir.

Mixalkovlar Rusiyanın bəzi ictimai və intellektual dairələrində geniş yayılmış revanşist və etnosentrik düşüncə tərzinin səfeh obrazlarıdır. Onlar öz aləmlərində, mif yaradırlar. Bu mifə görə, Rusiya olmasaymış, nə Cənubi Qafqaz, nə Orta Asiya ölkələri olacaqmış. Bu adamlar XXI əsrdə yaşadıqlarının, dünyanın dəyişdiyinin fərqinə varmayan gerizəkalılar. Elə bilirlər ki, hərəkət və davranışları, fikir və düşüncələri ilə Rusiyaya xidmət edirlər. Halbuki, etdikləri ziyandan, rəzillikdən başqa bir şey deyil.

Sonda onu da deyək ki, Mixalkovun “Besoqon”u Rusiyanın imperialist baxışı üçün elegiyanı xatırladır. Axı imperiyalar da insanlar kimi, qocalır, zəifləyir və nəhayət çökürlər. Ancaq yaxşı insanlar ölümləri ilə əbədiyyət qazandıqları halda, imperiyalar özlərinin məhv aqibətləri ilə üfunət girdabına düşürlər. Onlar xatırlansalar da, bu xatırlanmada mütərəqqi mahiyyət yoxdur. Bu xatırlanma yalnız tarixin istinad məntiqi yükünü daşıyır, başqa heç nə. Mixalkov isə sənətkar kimi milyonların qəlbinə yol tapsa da, “Besoqon” onun sənət dünyasının adsız qəbiridir. Bizə təəssüflənməkdən başqa bir yol qalmır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avropaya viza çətinlikləri: Əsaslı və əsassız səbəblər

**(əvvəli 1-ci səhifədə)**










Azərbaycan Xarici İşlər Nazirliyindən verilən məlumatlara görə, bu ölkələrə səfər zamanı adətən qalma müddəti maksimum 90 gün təşkil edir. Razılaşmalar tarixi, mədəni və iqtisadi əlaqələrin mövcudluğuna əsaslanır və qarşılıqlı etimada söykənir.

Çin ilə Azərbaycan arasında viza rejiminin sadələşdirilməsi istiqamətində atılan son addımlar da diqqətəlayiqdir. Azərbaycan XİN-in məlumatında bildirilir ki, 2025-ci ilin 16 iyul tarixindən etibarən hər iki ölkənin ümumvətəndaş pasportuna malik vətəndaşları qarşılıqlı şəkildə vizasız rejimdən faydalana bilirlər. Bu rejim çərçivəsində Azərbaycan vətəndaşları Çinə 30 günədək vizasız səfər edə və 180 gün ərzində 90 gündən artıq olmamaq şərtilə ölkədə qala bilərlər. Bu yeni qayda Çin və Azərbaycan arasında artan siyasi və iqtisadi münasibətlərin bariz nümunəsi kimi qiymətləndirilir.

Bəzi ölkələr isə Azərbaycan vətəndaşları üçün birtərəfli qaydada vizasız rejim tətbiq edir. Bu ölkələr arasında İran (15 gün), Monteneqro (90 gün), Bosniya və Herseqovina (90 gün), Malayziya (30 gün), eləcə də Honq-Konq (yalnız diplomatik və xidməti pasportlarla, 14 gün) yer alır.

Amma bəzi ölkələr də var ki, azərbaycanlılar onlara vizasız səfər edə bilmirlər. Məsələn, Azərbaycan vətəndaşları üçün Avropa İttifaqı (Aİ) ölkələrinə səyahət getdikcə daha çətin və mürəkkəb bir prosesə çevrilir. Çətinliyin əsas səbəblərindən biri Azərbaycan ilə Aİ arasında vizasız rejimin tətbiq olunmamasıdır. Halbuki qonşu ölkələrdən Gürcüstan və Moldova uzun illərdir ki, Aİ ilə vizasız rejim çərçivəsində əməkdaşlıq edir və onların vətəndaşları Şengen zonası ölkələrinə sərbəst şəkildə qısamüddətli səfərlər edə bilirlər. Azərbaycanın bu rejimdən kənarda qalması isə həm vətəndaşlar üçün əlavə prosedur çətinlikləri yaradır, həm də səyahətlərin xərclərini artırır. Hər səfər üçün ayrıca viza müraciəti zərurəti həm maliyyə baxımından əlavə yük yaradır, həm də vaxt itkisinə və psixoloji gərginliyə səbəb olur.

Bununla yanaşı, bəzi Azərbaycan vətəndaşlarının Avropa ölkələrinə viza alaraq, orada qalmaq, vizanın müddətini pozmaq və ya sığınacaq üçün müraciət etmək kimi hallara yol verməsi də viza prosesinə mənfi təsir göstərir. Belə hallar artdıqca Avropa ölkələrinin diplomatik nümayəndəlikləri Azərbaycan vətəndaşlarını daha çox “miqrasiya riski” kimi dəyərləndirir. Məsələn, Almaniya nizam-intizamına, qayda-qanununa, yüksək həyat şəraitinə görə azərbaycanlılar üçün cəlbedici ölkədir. Təhsil, müalicə və s. məqsədlərlə bu ölkəyə gedənlərin sayı hər il artır. Onların bəziləri sonradan geri qayıtmırlar. Bu səbəbdən də Almaniyaya viza alınarkən Azərbaycan vətəndaşı geri qayıdacağını sübut etməlidir. Əks halda bütün müraciətlərə qarşı ümumiləşdirilmiş ehtiyatlı və sərt yanaşma tətbiq olunur. Bu vəziyyətdən isə ən çox əziyyət çəkənlər, sadəcə, turizm, təhsil və ya işgüzar məqsədlə Avropaya getmək istəyən vətəndaşlardır. Onların müraciətlərinə baxılması ya rədd edilir, ya da əlavə tələblərlə uzadılır.

*

Qanunu pozanlar, yaşayış icazəsi olmayanlar, geri qayıtmaq istəməyənlər isə deportasiya olunurlar. “Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında” Saziş çərçivəsində 2025-ci il iyulun 8-də 28 vətəndaşımız Almaniya Federativ Respublikasından geri qaytarılıb. Bu barədə Dövlət Miqrasiya Xidmətindən (DMX) bildirilib. Qeyd olunub ki, readmissiya prosesi müvafiq beynəlxalq sazişlərə uyğun olaraq həyata keçirilib. Son illərin statistik məlumatları da təsdiqləyir ki, azərbaycanlılar ən çox Almaniyadan deportasiya olunur. Məsələn, 2020-ci il pandemiya səbəbindən sərhədlərin bağlandığı və hərəkətin məhdudlaşdığı dövr kimi yadda qalsa da, Almaniyadan 320 azərbaycanlı çıxarılıb və bu, həmin il üçün ən yüksək göstərici sayılır. 2022-ci ildə 300, 2024-cü ildə isə 500 azərbaycanlı bu ölkədən deportasiya edilib. Sonuncu rəqəm Almaniyanın son beş il ərzində qeydə aldığı ən yüksək göstəricidir.

Ümumilikdə 2020–2024-cü illər ərzində Almaniya deportasiya sayına görə liderliyini qoruyub. Polşa və Niderland kimi ölkələr isə deportasiya siyahısında daha az göstəricilərlə fərqləniblər. İsveç də bu prosesdə iştirak edən, lakin yüksək rəqəmlərlə seçilməyən ölkələrdəndir. Bundan başqa, ABŞ-ın Miqrasiya və Gömrük Xidmətinin (ICE) 2024-cü ilin noyabrında tərtib etdiyi deportasiya olunacaq şəxslərin siyahısına 709 Azərbaycan vətəndaşı da daxil edilib.

Xatırladaq ki, DMX-nin əlaqələndirici rolu ilə yaradılmış Reinteqrasiya üzrə İşçi Qrupu readmissiya olunan şəxslərin qarşılaşdığı çətinliklərin və problemlərin operativ həllini, eləcə də onların cəmiyyətə səmərəli və dayanıqlı sosial-iqtisadi reinteqrasiyasını təmin etmək məqsədilə kompleks tədbirlər həyata keçirir.

Azərbaycan vətəndaşlarının Avropa ölkələrinə viza almaqda üzləşdikləri çətinliklərdən biri də sənədlərin keyfiyyəti və şəffaflıq məsələsidir. Viza müraciəti zamanı təqdim olunan sənədlər səfirlik üçün əsas qərarverici amillərdəndir. Təəssüf ki, bəzi hallarda vətəndaşlar reallığı əks etdirməyən, saxta və ya şübhəli sənədlər təqdim edirlər. Bu, qeyri-real bank arayışları, formal və ya əlaqəsi olmayan şirkətlərdən alınan dəvət məktubları, şişirdilmiş və süni şəkildə hazırlanmış işgüzar planlar şəklində özünü göstərir. Bəzən isə sənədlər real olsa da, təqdimat forması natamam və uyğunsuz olur. Qeyri-dəqiqlik isə səfirlik əməkdaşlarında şübhə yaradır.

Səfirliklər bu cür hallar artdıqca bütün Azərbaycan vətəndaşlarının müraciətlərinə daha ehtiyatla yanaşmağa başlayırlar. Beləliklə, etibarsız və saxta məlumatlarla viza almağa çalışan şəxslər bütövlükdə ölkənin vizaya çıxış imkanlarını daraldır və dürüst müraciət edənlərin də rədd cavabı almasına səbəb olur. Həqiqətən də, son dövrlər Aİ ölkələrindən sığınacaq istəyən azərbaycanlıların bu statusu ala bilməmələrinə səbəb təqdim etdikləri saxta sənədlər olub. Bu, sənədlərin həqiqiliyinin Azərbaycanın müvafiq dövlət orqanlarına verilən sorğu ilə araşdırılması zamanı ortaya çıxır.

*

Dəfələrlə Avropa ölkələrində səfərdə olmuş biznesmen Sahib Eyvazov mövzu ilə bağlı XQ-yə açıqlamasında dedi ki, problemlərin qarşısını almaq üçün ilk növbədə vətəndaşlar məsuliyyətli davranmalı, yalnız real və təsdiqedici sənədlərlə müraciət etməli, səfər məqsədlərini dürüst şəkildə ifadə etməlidirlər: “Eyni zamanda dövlət səviyyəsində də bu cür sui-istifadə hallarına qarşı hüquqi və maarifləndirici tədbirlərin görülməsi, qanunsuz miqrasiya ilə mübarizənin gücləndirilməsi vacibdir”.

Onun sözlərinə görə, maliyyə imkanlarının kifayət qədər olmaması da viza verilməsində əsas maneələrdən biridir: “Avropa ölkələrinə viza üçün müraciət edən şəxs səyahət müddətində özünü təmin edə biləcək maliyyə vəsaitinə malik olmasına və eyni zamanda, ölkəyə geri dönəcəyinə dair inandırıcı sübutlar təqdim etməlidir. Məsələn, Macarıstan səfirliyində müraciət edənlərdən iş yerindən arayış və maaş kartından çıxarışla bərabər vergi ödənməsi ilə bağlı sənəd, gediş-gəliş biletinin alınmış variantını tələb edirlər. Çünki maliyyə mənbələrinin şəffaf və əsaslandırılmış şəkildə göstərilməsi, sabit gəlir mənbələrinin mövcudluğu bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Əgər müraciətçi bu tələbləri qarşılaya bilmirsə və ya təqdim olunan sənədlər şübhəli təsir bağışlayırsa, viza rədd olunur. Təbii ki, vətəndaş əvvəlcədən təyyarə bileti alıb və hotel pulunu ödəyibsə, viza almadığı təqdirdə böyük zərərlə üzləşir. Belə vəziyyətdə onun müraciət etdiyi turizm şirkəti üçün də xoş olmayan vəziyyət yaranır”.

Bundan əlavə, şəxsin yaşadığı ölkə ilə sosial və işgüzar bağlarının zəif olması da viza alınmasına mane olur. Səfirliklər müraciət edən şəxsin Azərbaycana geri dönməsi üçün yetərli səbəblərinin olub-olmadığını qiymətləndirirlər. Əgər şəxsin sabit iş yeri, ailə bağları, mülkiyyəti və ya digər sosial münasibətləri yoxdursa, bu, “geri dönməmə” riskini artırır və nəticədə viza rədd olunur. Beləliklə, sadəcə iqtisadi yox, sosial və şəxsi status da viza prosesində əhəmiyyətli rol oynayır.

Onu da qeyd edək ki, texniki və prosedur çətinliklər də az deyil. Avropaya səyahət etmək istəyənlərin sayının artması ilə viza üçün müraciət edənlərin də sayı yüksəlib. Bu isə viza mərkəzlərində və konsulluqlarda sistemin yüklənməsinə səbəb olur. Nəticədə onlayn qeydiyyat sistemlərində boş yer tapmaq çətinləşir, bəzən aylarla vaxt tapmaq mümkün olmur. Bu texniki çətinliklər və sistem yüklənməsi vətəndaşları alternativ yollar axtarmağa məcbur edir. Boş tarixlərin qeyri-rəsmi yollarla əldə olunması, “vizaya kömək” adı altında təklif edilən xidmətlər və vasitəçilər ortaya çıxır. Bir çox hallarda bu cür vasitəçilər ya yüksək məbləğdə pul tələb edir, ya da vətəndaşları dələduzluq yolu ilə aldadaraq onlara ziyan vururlar. Belə hallarda həm maddi itki baş verir, həm də bəzi vətəndaşlar fırıldaqçılıqla əldə edilən sənədlərə görə qara siyahıya düşürlər.

Bu kimi xidmətlər son illər Polşa, Macarıstan və Rumıniyada artıb. Bu ölkələrdə vasitəçi rolunu oynayan, miqrantları Almaniya sərhəddindən keçirən şəbəkələr ortaya çıxıb. Xarici mətbuatda yayılan məlumatlarda bildirilir ki, Macarıstanda qalmalarının qanuniliyini etibarlı şəkildə sübut edə bilməyən 10 qeyri-leqal miqrant saxlanılıb. Miqrantları daşıyan avtomobillərin sürücüləri ukraynalı qadın və bir azərbaycanlı kişi olub. Onlar polis tərəfindən həbs edilib. Polşada həbs edilən “vasitəçi”lər arasında azərbaycanlılar çoxdur.

*

Viza üçün onlayn qeydiyyat sistemlərində boş yer tapmaq bir çox hallarda mümkünsüz olur. İnsanlar bəzən aylarla tarix axtarır, lakin uğur əldə edə bilmirlər. Bu da, öz növbəsində, qeyri-rəsmi vasitələrin və vasitəçilərin ortaya çıxmasına şərait yaradır. İnsanlar əlavə vəsait ödəməklə süni şəkildə "yer tapan" şəxslərə müraciət edir. Nəticədə həm qanunsuzluq, həm də aldatma risklərini artırır. Viza mərkəzlərində randevu sistemlərinin qeyri-şəffaf fəaliyyəti, bəzi hallarda isə texniki nasazlıqlar əlavə problemlər yaradır.

Uzun yoxlama müddətləri və əlavə sorğular Azərbaycan vətəndaşlarının Avropa ölkələrinə viza alma prosesində üzləşdiyi əsas çətinliklərdən biridir. Müraciətlər teztez standart prosedurlardan kənara çıxaraq daha dərindən yoxlanılır. Bu zaman əlavə sənədlər tələb olunur, müraciət edən etdiyi məlumatlarının dəqiqliyini yoxlamaq məqsədilə telefonla əlaqə saxlanılır, iş yerinə və ya təhsil müəssisəsinə rəsmi sorğular göndərilir. Bəzi hallarda isə müraciətçi səfirliyə müsahibəyə dəvət edilir. Belə yoxlamalar viza qərarının verilmə müddətini xeyli uzadır. Müraciətə standart olaraq 15 günə cavab verilməsi nəzərdə tutulsa da, əlavə yoxlamalar nəticəsində proses bir neçə həftə, hətta aylar çəkir. Məsələn, Böyük Britaniya səfirliyindən cavab almaq üçün nəzərdə tutulan 21 gün daim uzanır.

Uzun sürən yoxlamaların əsas səbəbi bəzi hallarda sənədlərdəki qeyri-dəqiqliklər, təqdim olunan məlumatların inandırıcı olmaması və ya miqrasiya riskinin yüksək qiymətləndirilməsidir. Eyni zamanda, əvvəlki illərdə bəzi vətəndaşların viza şərtlərini pozaraq Avropada qalması da ümumi etimadı zəiflədir və hər bir yeni müraciət şübhə ilə qarşılanır. Bu səbəbdən müraciətçilərin bütün məlumatları dəqiq və şəffaf təqdim etməsi, lazım olduqda əlavə sorğulara vaxtında və tam şəkildə cavab verməsi vacibdir

Beləliklə, viza proseduru, sadəcə, hüquqi və texniki məsələ deyil, həm də insanların gündəlik həyatına, planlarına və psixoloji vəziyyətinə birbaşa təsir göstərən amilə çevrilmiş olur. Mövcud vəziyyətdən çıxış yolları həm fərdi, həm də dövlət səviyyəsində mövcuddur. Fərdi səviyyədə vətəndaşlar müraciət zamanı şəffaflığa, düzgünlüyə və qaydalara riayət etməlidirlər. Səfərin məqsədini aydın şəkildə əsaslandırmalı, maliyyə imkanlarını sübut etməli və sənədləri tam şəkildə təqdim etməlidirlər. Saxta sənədlərdən istifadə etməyin nəticələri ağır ola bilər, çünki bu cür hallar şəxsin gələcək müraciətlərinə də mənfi təsir göstərir.

Dövlət səviyyəsində isə Avropa İttifaqı ilə vizasız rejimə dair danışıqların fəallaşdırılması, miqrasiya məsələlərində qarşılıqlı etimadın gücləndirilməsi və səfirliklərlə koordinasiyanın artırılması olduqca vacibdir.

**P.S.** Azərbaycan Respublikasının və müvafiq xarici ölkələrin diplomatik və ya xidməti (və ya rəsmi/xüsusi) pasportuna malik vətəndaşları üçün vizasız gediş-gəliş rejimi tətbiq olunan ölkələrin sayı 72-dir. Yalnız Liviya ilə vizasız yaşamaq üçün icazə verilən müddət müvəqqəti olaraq dayandırılıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Dövlətçilik uğrunda savaş yeni mərhələdə



IV MƏQALƏ

## Azərbaycan dövlətinin yeni tarixi missiyası

Bizcə, bu fikir dövlətçilik uğrunda aparılan savaşın ana tezisidir. Bir terminoloji dəqiqləşdirmə aparaq: "Yeni tarixi missiya" içi boş gəlişi gözəl söz deyildir – hər bir azərbaycanlı (burada "azərbaycanlı" etnik mənsubluğundan asılı olmayaraq Azərbaycan Respublikasının siyasi-coğrafi hüdudları daxilində yaşayan Azərbaycan vətəndaşını, daha geniş anlamda isə dünya miqyasında bütün azərbaycanlıları əhatə edir) qarşısında dayanan dövləti vəzifədir. Bu tezis nə pafosdur, nə də şişirtmə. Azərbaycan dövlətçiliyinin son 300 ildə keçdiyi keşməkeşli yola "dönüb baxanda" yeni fürsətlə qurulan tələlərin kəsişmə sahəsində tarixi savaşın ifadəsidir. Onun səbəbləri çox düşündürücüdür!

## İmperiya əngəli

Səfəvinin çöküşündən sonra Azərbaycan dövlətçiliyinə qarşı Qərb və Rusiya imperialist düşüncəsi və praktiki təsir vasitələri 1918-ci ilə qədər ölkəmizi coğrafi, mədəni, siyasi, ideoloji, mənəvi və demoqrafik parçalama planlarını durmadan həyata keçirdi. Bir zamanlar 2 milyon kvadratkilometrlik coğrafiyanı əhatə edən nəhəng imperiyanın Şimal hissəsindəki 114 min kvadratkilometrlik ərazidə Demokratik Respublika quruldu. Cəmi bir ilə onu da çökdürdülər. Həm də əlindən ərazisinin yeni hissələrini almaqla "Azərbaycan SSR" yaratdılar.

1922-1939-cu illər ərzində SSRİ tərkibində, ümumi deyək, bədnam "Zaqafqaziya federasiyası" adı altında, sözün həqiqi mənasında Azərbaycan ərazisi, mədəniyyəti, dövlətçilik yapısını insafsızcasına "sökdülər".

Nəticədə 1939-cu ilə ərazimiz artıq 86 min kvadratkilometr qalmışdı, əlifbamız da kirilləşmişdi. Elmimiz rus maraqlarına uyğun institutlaşırdı, ideologiyada millilik böyük cinayət və xəyanət kimi təqdim edilir, minlərlə Azərbaycan türkü əsassız yerə cəzalandırılırdı. Cavidlərimizi özümüzə düşmən kimi təqdim edirdilər. Bolşevik-daşnak yığınının total vəhşiliyinin sərhədi yox idi.

1948-1953-cü illərdə azərbaycanlıları Qərbi Azərbaycandan növbəti dəfə amansız şərtlər altında deportasiya etməklə onlarda dövlətə sahib olmaq mövzusunda psixoloji kompleks, "hər yerə gəlmə adam" sindromu yaratdılar.

1988-1992-ci illərdə isə növbəti deportasiya dalğası ilə Qərbi Azərbaycan torpaqlarında qondarma "Ermənistan" əmələ gətirdilər və elə sandılar ki, Azərbaycan dövlətçilik ənənəsini, dövlətçilik şüurumuzu, demoqrafik kimliyimizi "məhdud siyasi-coğrafi" sahəyə sıxışdırdılar. Elə güman etdilər ki, azərbaycanlılar bir daha Azərbaycan dövlətçiliyinin möhtəşəmliyini bərpa edə bilməyəcəklər. Və bu niyyətin fonunda dövlətçilik kimliyimiz baxımından daha dəhşətli prosesləri formalaşdırmağa çalışdılar.

## "Sən müstəqil dövlət ola bilməzsən"

Öncə XVIII əsrin əvvəllərindən XX əsrin ikinci onilliyinin sonuna qədər Qərb və Rusiya imperialist dairələri azərbaycanlılara "sən müstəqil ola bilməzsən" psixologiyasını yeritməklə məşğul idilər. Bunu erməni terrorunu şiddətləndirmək və müxtəlif bəhanələrlə ermənilərin dövlətçilikdə bizdən üstün olduğunu təlqin etməklə həyata keçirdirlər.

Məhz Azərbaycan Xalq Cümhuriyyəti (AXC və ya ADR) bu zehniyyətə öldürücü zərbə vurdu. 200 illik məhvetmə siyasətində Azərbaycan dövlətçiliyi baxımından əsas məqsədlərinə çata bilmədiklərini rəsulzadələr, topçubaşovlar, ağayevlər və yüz minlərlə qəhrəman Azərbaycan övladları sübut etdilər. Hansı xalq olsaydı, başına açılan oyunlardan sınar və geri çəkilərdi. Azərbaycanlılar isə Avropa demokratiya və azadlıq hərəkatı səviyyəsində kükrədilər və Şərqdə ilk demokratik dövlət qurdular!

Bu, çox ciddi bir siqnal idi. Bütün dünyaya göstərildi ki, azərbaycanlıların müstəqil dövlət qurmaq bacarıqlarını, imkanlarını və dövlətçilik şüurlarını yox etmək mümkün deyildir. Bununla həm də anladılar ki, azərbaycanlıların dövlətçilik şüurlarının qədim kökləri vardır! Bizcə, məhz bu keyfiyyətlərinə görə, sovetlər azərbaycanlılara qarşı daha amansız və güzəştsiz siyasət yeritməyə başladılar. Bizim dövlət qurmaq əzmimizi qırmaq üçün torpaqlarımızı, mədəniyyətimizi, kimliyimizi, adət-ənənələrimizi, mətbəximizi hissə-hissə erməni vəhşilərinə hədiyyə etdilər.

## Oyanışın sinerjisi: Azərbaycan türk nümunəsi

Azərbaycan xalqının dövlətçilik şüurunun "səsi" bax, o dərinliklərdən, sonsuz əngəllərin yaratdığı bataqlıqlardan gəldi! Heydər Əliyevin məharətli siyasəti o səsi sinerjiyə çevirdi, öncə azərbaycanlıların özlərinə, sonra isə bütün dünyaya dinlədə bildi! Dövlətçilik şüuru, qəlbi, mənəviyyatı, vicdanı və tərbiyəsini dinlədik və müqəddəs oyanışın yeni mərhələsi başladı.

Azərbaycanlılar tarixi baxımdan qısa bir müddətdə Ulu öndərin siyasəti ilə ölkənin və millətin təbii sərvətlərini milli sərvətə çevirdilər və müstəqil dövlətçiliyin siyasi institutlarını qurdular, sonra isə ərazi bütövlüyünü 44 günə bərpa etdilər. Ondan üç il sonra bir neçə saata düşmənin 15 minlik hərbi qüvvəsini darmadağın edərək tam suverenliyə qovuşdular! Alimlər deyirlər ki, XX əsr və XXI əsrin ilk üç onilliyində analoji nailiyyətə çatan başqa dövlət yoxdur!

## Tarixi yüksəliş

Çox uzatmaq istəmirik. Ancaq Azərbaycan dövlətçiliyi, səhv etmiriksə, tarixində ilk dəfə olaraq yeni zirvə fəth etmişdir. O zirvəni Azərbaycançılıqdan görmək olar. Lakin bunun üçün Azərbaycançılıq məfkurəsi "Azərbycanşünaslıq" nəzəri təliminin "çırağında nurlanmalıdır" (AMEA çox haqlıdır!). Çünki XXI əsrin çağırışları dövlətçilik viziyonunu yüksək səviyyədə elmiləşdirməyi, məfkurələşdirməyi, bir sözlə, "intellektləşdirməyi" tələb edir. Bu parametrlər AMEA-nın strateji inkişaf konsepsiyasının əsas hədəflərinə aiddirlər.

Əlbəttə, Azərbaycan müasir mərhələdə müstəqil dövlətçiliyin tarixi yüksəlişinin memarı Heydər Əliyev-İlham Əliyev xəttidir. Məhz bu kursun çərçivəsində Azərbaycanşünaslığın daim inkişaf etdirilməsi zərurətini hər kəs qəbul etməlidir. Bizim üçün bu məqam "dövlətçilik vizyonu" adlandırdığımız prosesin mahiyyətinə aiddir. Azərbaycan Prezidentinin yüksək səviyyədə "intellektləşdirdiyi" milli dövlətçilik viziyonunu Azərbaycanşünaslıq kontekstində sistemli təbliğ və təşviq etməliyik. Məhz bu mənada AMEA-nın yeniləşməsi fəlsəfəsini təşkilatın rəhbərliyi mövcud dövlətçilik tələbatına adekvat müəyyən etmişdir!

Bütün bunların fonunda "dövlətçilik vuzyonu" anlayışının təhlilinə keçmədən öncə bir mühüm məqama aydınlıq gətirək.

Dövlətçilikdə növbəti tarixi yüksəliş 2020-ci il Vətən müharibəsindən sonra başlamışdır. Bizim baxdığımız kontekstdə bu, son 300 ildə Azərbaycanın ilk dəfə müdafiə mövqeyindən hücum mövqeyinə keçidini ifadə edir. O mənada ki, Azərbaycan ərazi bütövlüyü və suverenliyini tam təmin etmiş dövlət kimi, artıq qlobal dairələr tərəfindən güclü dövlət olaraq qəbul edilir. Bu vaxta qədər Azərbaycanı imkanlarının maksimum hansısa dəyərlərini qorumağa çatan və lazımi gücə sahib olmayan dövlət (əsasən də ölkə) kimi təsəvvür edirdilər. Onlara elə gəlirdi ki, böyük anlamda Azərbaycan dövlət kimi hansısa dəyişikliyi (xüsusilə, geosiyasi) etmək iqtidarında deyildir.

Kütlədə isə belə bir fikir formalaşdırmışdılar: "Azərbaycan bütün qonşularından – İrandan, Rusiyadan, Gürcüstandan, Ermənistandan və s. qorxur". Ola bilər ki, kənardan belə bir fikir yeridilirdi, lakin məişət həyatında eşidirdik: "Azərbaycan filan dövlətdən qorxdu, qarşısına çıxa bilmədi", "Rusiya bir neçə saata buranı viran qoyar", "İran dağıdar" və s.

Bütün bunların fonunda Azərbaycan dövləti 44 günə dünyanın ən güclüləri sayılan dövlətlərinin siyasi, diplomatik, ideoloji, informasiya, geosiyasi və hərbi dəstək verdiyi Ermənistanı hərb meydanında darmadağın etdi, başqa sferalarda da ağır məğlubiyyətə uğratdı. Bu, dövlətçilik idenitkliyinin qəbul edilməsində dönüş nöqtəsi idi. Yəni hər kəs anladı ki, Azərbaycan nəinki kimsədən qorxmur, hətta artıq öz müstəqilliyi və dövlətçiliyi üçün uğurlu hücumlar edən dövlətə çevrilmişdir! Azərbaycan dövlətçiliyi uğrunda savaşa yeni nəfəs vermişdir və tarixin hər bir dönəmində bu prosesi davam etdirəcək.

Buradan ən azı üç nəticə çıxarmaq olar.

Birinci, Azərbaycanın dövlət kimi identikliyində demokratiya, hüquq, əməkdaşlıq, barış kimi ümumbəşəri parametrlərlə yanaşı, özünü daimi inkişaf etdirmək, güclü dövlətçiliyi təkmilləşdirmək və güclü vətəndaş cəmiyyəti formalaşdırmaq kimi strateji faktorlar da ön sıraya çıxarılmışdır.

İkinci, bu vəziyyət Azərbaycanı dövlətçiliyi uğrunda mübarizəsinin prinsipcə yeni mərhələsinə çıxarmışdır. Bu mərhələ müasir dövlətçilik tariximizin dönüş nöqtəsi və bu anlamda ən məsuliyyətli dönəmidir.

Üçüncü, vurğulanan iki dəyişiklik uğurlu olmanın formulunu tapmağı tələb edir. Bu formulu Prezident İlham Əliyev dəqiq müəyyən etmişdir. Onu biz yığcam olaraq "müstəqil dövlətçilik vizyonunun genişləndirilməsi" adlandırırıq.

## Dövlətçilik vizyonu

Dövlətçilik vizyonunun fəlsəfi-nəzəri anlamı genişdir. Bu termin özündə dövlətçilik haqqında tarixi və müasir təsəvvürlərin ortaq məntiqi sahəsində daha uğurlu dövlət quruculuğunun başlıca ideyasını, prinsiplərini, prioritetlərini və reallaşma fəlsəfəsini ehtiva edir. "Vizyon" dövlətçilik kontekstində bu anlamda statik baxış deyildir, daim yeniləşən və adaptasiyadan dəyişdiriciliyə yönələn dinamik prosesdir.

Daha sadə formada dövlətçilik vizyonu hər kəsdən öncə, liderin dövlətin inkişafı kursunun mahiyyətini təşkil edən baxışlar sistemidir. Bunun adekvat dərk edilməsi cəmiyyət üçün strateji əhəmiyyət daşıyır. Toplum liderin dövlət quruculuğu vizyonunu doğru dərk edə bilirsə, bütövlükdə konkret tarixi dönəmdə dövlətçilik vizyonu inklüziv legitimləşir. İnklüziv legitimlik, yəni xalqın dövlətçilik vizyonunun doğru və hüquqi olduğuna inamı mühüm faktordur.

Buna görə də daim dövlətçilik vizyonunun düzgün, obyektiv və sistemli təbliği aparılmalı və o, təşviq edilməlidir. Bu prosesdə ideoloji baxımdan aparıcı rolu, təbii ki, Azərbaycançılıq və onun fəlsəfi-nəzəri, konkret elmi intellektual təcəssümü olan Azərbaycanşünaslıq oynamalıdır.

Bu tezis AMEA rəhbərliyi tərəfindən yeniləşmə kursu çərçivəsində konkret olaraq məzmunlaşdırılmışdır! Onun əsas tezisləri sırasında "Dövlətçilik vizyonunun genişləndirilməsi", "Azərbaycançılığın yeni tarixi mərhələdə dövlətçilik uğrunda mübarizə məfkurəsi" olması, "Azərbaycanın türk dünyası ailəsinin üzvü kimi dövlətçiliyinin XXI əsrin çağırışları fonunda inkişaf etdirilməsi" xüsusi yer tutur.

Bunları vahid məntiqi bucaq altına gətirsək, ümumiləşdirici tezisi belə formulə edə bilərik: "Dövlətçilik uğrunda yeni tarixi mərhələdə aparılan savaşda əsas məqsəd Azərbaycanın regional liderliyi təmin edən dövlət quruculuğu strategiyasından, onu türk ailəsinin aparıcı qüvvəsi olmağı ehtiva edən səviyyəyə yüksəldən strateji vizyona keçidindən ibarətdir".

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# İlham Əliyev və Donald Trampın liderlik münasibətləri

**(əvvəli 1-ci səhifədə)**

Bu fikirlər Azərbaycan rəhbərliyinin ABŞ-la əməkdaşlığa strateji yanaşmasını və bu münasibətlərin inkişafına dair iradəsini göstərir. Prezidentin mesajı ABŞ-ın yeni administrasiyası ilə qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlığın davam etdirilməsinə olan inamı ifadə edir.

2024-cü il noyabrın 25-də Prezident İlham Əliyev Donald Trampa zəng edərək onu təbrik etmiş və Trampın beynəlxalq təhlükəsizliyin təmin olunmasında roluna inam ifadə etmişdi. O, ilk prezidentlik dövründə əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək gələcək birgə səylərə ümidini bildirmişdi. Tramp isə səmimi təbriklərə görə təşəkkürünü ifadə edərək, əməkdaşlığın inkişafı üçün birgə çalışmanın vacibliyini vurğulamışdı.

2025-ci il yanvarın 21-də Prezident İlham Əliyev Donald Trampa yeni prezidentlik dövrünün sülhün təşviqi və beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcəyinə inandığını bildirib. Məktubda belə qeyd olunur: "Biz həm ənənəvi, həm də yeni əməkdaşlıq sahələri üzrə Birləşmiş Ştatlar ilə fəal və səmərəli birgə işimizi, qarşılıqlı inam və etimada əsaslanan tərəfdaşlığımızı bundan sonra da qətiyyətlə davam etdirmək və Sizinlə bu istiqamətlərdə sıx işləmək niyyətindəyik".

Prezidentin bu fikirləri münasibətlərin genişlənməsinə dair strateji baxışın ifadəsidir. Burada yeni əməkdaşlıq sahələrinin müəyyən edilməsi niyyəti də açıq şəkildə ifadə olunub.



olmaq istiqamətində ABŞ ilə tərəfdaşlığınızı yüksək qiymətləndiririk. 30 ildən artıq diplomatik münasibətlərimiz müddətində əlaqələrimiz əhəmiyyətli dərəcədə inkişaf edib. Biz ümidvarıq ki, ikitərəfli prioritetlərimiz, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığımız, iqtisadi münasibətlərimiz və enerji inkişafı üzrə tərəfdaşlığımız bundan sonra da davam edəcək.

ABŞ Azərbaycan və Ermənistan arasında möhkəm sülhü dəstəkləməkdə davam edir. Davamlı sülh Cənubi Qafqaz regionunun daha firavan olmasını təmin edəcək və ABŞ-la əməkdaşlıq üçün daha geniş imkanlar yaradacaq. İndi sülhə nail olmağın və Cənubi Qafqaz xalqları üçün yeni firavanlıq dövrünə qədəm qoymağın vaxtıdır", – deyə Tramp məktubunda vurğulayıb.

İyulun 1-də Prezident İlham Əliyevin ABŞ-ın Müstəqillik Günü münasibətilə Trampa ünvanladığı təbrik məktubunda da bir sıra mühüm strateji mesajlar yer alıb. Prezident Azərbaycanın enerji sahəsində ABŞ-la möhkəm tərəfdaşlıq münasibətlərini vurğulayaraq deyib: "Məmnunluqla qeyd etmək istərdim ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın uzun illərdən bəri enerji sahəsində sadiq tərəfdaşıdır. Bu sahədə xoş ənənələrə əsaslanan və sağlam təməllər üzərində qurulmuş əməkdaşlığımız hazırda da uğurla davam edir. Azərbaycanın enerji strategiyasına, eləcə də regionda sabitliyə və inkişafa xidmət edən nəhəng infrastruktur layihələrinin həyata keçirilməsinə ABŞ-ın göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndiririk".

Həmçinin iqtisadiyyat, nəqliyyat, sənaye, texnologiyalar və sərmayə qoyuluşu sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu qeyd edilib.

Prezident İlham Əliyev yanvarın 30-da Vaşinqton yaxınlığında baş vermiş helikopter qəzası ilə bağlı Donald Trampa başsağlığı məktubu ünvanlayıb. Bu humanitar jest ikitərəfli münasibətlərin yalnız siyasi deyil, insani əsaslara da söykəndiyini göstərir.

Yanvarın 20-də Davosda Çinin CGTN kanalına müsahibəsində Prezident İlham Əliyev ABŞ-da administrasiya dəyişikliyi ilə bağlı sualı cavablandıraraq bildirib: "Mənim müşahidələrimə görə, əsas qeyri-müəyyənlik Avropa liderləri arasındadır. Azərbaycana gəlincə, bizdə heç bir qeyri-müəyyənlik yoxdur. Biz Prezident Trampın ABŞ-a rəhbərlik etdiyi zamanı xatırlayırıq və son 4 ildə Bayden administrasiyasının Azərbaycana ədalətsiz yanaşması səbəbindən əlaqələrimizin tamamilə korlanmasından fərqli olaraq, bizim əlaqələrimiz çox uğurla inkişaf edirdi. Beləliklə, Prezident Trampla birgə işləməklə bağlı əvvəlki təcrübəmiz çox müsbət idi. Biz gözləyirik ki, ABŞ-Azərbaycan münasibətlərində itirilmiş illər hesab etdiyimiz bu 4 il artıq tarixə qovuşacaq və biz yenidən başlayacağıq".

Prezident Qərb liderlərinin Trampa qarşı ədalətsiz davrandıqlarını və ABŞ-ın Tramp dövründə heç bir müharibəyə başlamadığını da vurğulayıb. Bu mövqe Azərbaycanın yeni administrasiya ilə daha uğurlu əməkdaşlığa olan inamını ifadə edir.

Martın 13-də XII Qlobal Bakı Forumu çərçivəsində "Euronews"a müsahibəsində də Prezident İlham Əliyev bu mövqeyini bir daha təsdiqlədi: " Biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq".

Bu açıqlama Azərbaycanın tərəfdaşlığa dair möhkəm siyasi iradəsini və ikitərəfli etimadın bərpasına yönəlik səylərin davam etdiyini göstərir.

Prezident Donald Tramp 2025-ci il aprelin 10-da Prezident İlham Əliyevə Novruz bayramı münasibətilə məktub ünvanlayaraq ABŞ–Azərbaycan əməkdaşlığının zəngin tarixə malik olduğunu vurğulayıb. O bildirib: "Ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır".

Trampın bu sözləri ikitərəfli münasibətlərin davamlılığına və strateji mahiyyətinə inamın göstəricisidir. Cənubi Qafqazda sülh səylərinə verilən dəstək də ABŞ-ın regional sabitliyə önəm verdiyini göstərir.

Mayın 28-də Müstəqillik Günü münasibətilə ünvanlanan məktubda isə Tramp əməkdaşlığın xüsusilə enerji təhlükəsizliyi və terrorizmlə mübarizə sahəsində yüksək qiymətləndirildiyini bildirib. "Biz Azərbaycan Respublikası ilə əlaqələrimizi və terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin inkişafında, qonşunuzla sülhə nail

İyulun 19-da Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev ABŞ-la münasibətlərin yüksək səviyyəyə qalxacağına ümid etdiyini bildirib. "Ümid edirik ki, yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq. Düşünürəm ki, bu, tamamilə təbiidir, çünki bir çox məsələlər bizi, xüsusən də cənab Trampın administrasiyası ilə birləşdirir. Yeri gəlmişkən, onun ilk prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri çox müsbət olmuşdur. Fikrimcə, artıq gördüyünüz və söylədiyim həmin müsbət tendensiyaların davamı olacaq. Hazırda o, bütöv qlobal məsələlərlə və müharibələrin dayandırılması ilə çox məşğuldur. Lakin eyni zamanda o, Cənubi Qafqaz prosesində fəal iştirak edir və uzunmüddətli münaqişənin həllinin tapılması üçün Azərbaycana və Ermənistana yardım etməkdə əla iş görür. Beləliklə, düşünürəm ki, gələcəkdə daha çox yaxşı xəbərlərimiz olacaq" – deyə Prezident vurğulayıb.

Bu açıqlama yeni diplomatik dövrün konturlarını müəyyənləşdirir və Xankəndidən Vaşinqtona ünvanlanan siyasi mesaj kimi qiymətləndirilə bilər.

Bu mesajın diplomatik çəkisi qısa müddətdə öz təsirini göstərdi. İyulun 22-də Prezident Donald Tramp "Truth" sosial şəbəkəsində Prezident İlham Əliyevin Şuşa Forumundakı çıxışından sitat paylaşdı.

Trampın bu paylaşımı həm siyasi jest, həm də strateji tərəfdaşlığa verdiyi önəmin göstəricisi kimi qiymətləndirilir. Bu, qarşılıqlı hörmətə və dialoqa əsaslanan münasibətlərin daha da dərinləşdiyini təsdiqləyir.

Həmin gün Prezident İlham Əliyev "X" sosial şəbəkəsində Trampa təşəkkür mesajı yaydı: "Şuşa Qlobal Media Forumunda ABŞ-Azərbaycan tərəfdaşlığı və həmçinin Prezident Donald Trampın həm qlobal, həm də regionumuzda sülh gündəliyinə sadiqliyi ilə bağlı qeyd etdiyim fikirlərimi öz sosial media platformasında paylaşdığına görə ona minnətdarlığımı bildirmək istərdim.

Mən bir daha Prezident Trampın bütün dünyada, o cümlədən regionumuzda sülhün və sabitliyin təşviq edilməsi ilə bağlı baxışını və səylərini dəstəklədiyimizi vurğulamaq istəyirəm. Biz, həmçinin ailə ənənələrinin əhəmiyyəti kimi ortaq dəyərləri bölüşürük və onun prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətlərinin yeni səviyyəyə qalxacağına ümid edirik. Biz ona bu məqsədə nail olunması istiqamətində bütün səylərində uğurlar arzulayırıq".

Bu təşəkkür mesajı iki ölkə liderləri arasında mövcud olan səmimi dialoqun və strateji əməkdaşlığın dərinləşməsinə xidmət edən siyasi iradənin göstəricisidir.

# Azərbaycan – ABŞ strateji əməkdaşlığında yeni mərhələ



**Azərbaycan – ABŞ arasında iqtisadi-ticari, energetika, nəqliyyat, sənaye, aviasiya, yüksək texnologiyalar, sərmayə qoyuluşu və digər mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün böyük potensial mövcuddur. Bu əməkdaşlığın konkret sahələrinin, xüsusilə enerji və yüksək texnologiyalar üzrə inkişaf potensialı münasibətlərin yalnız keçmiş təcrübə ilə deyil, gələcəyə yönələn strateji baxışla formalaşdırıldığını göstərir.**

Belə bir yanaşma, eyni zamanda, tərəfdaşlığın keyfiyyətcə yeni mərhələyə keçməsinə zəmin yaradır. Azərbaycan ilə ABŞ arasında mövcud münasibətlər uzun illərdir ki, qarşılıqlı maraqlar və ortaq strateji hədəflər üzərində qurulub. Bu əməkdaşlıq təkcə diplomatik və siyasi müstəvidə deyil, eləcə də iqtisadi-ticari, energetika, nəqliyyat, sənaye, aviasiya, yüksək texnologiyalar və sərmayə qoyuluşu kimi mühüm sahələri əhatə edir. Son illərdə iki ölkə arasında münasibətlərdə müşahidə olunan dinamizm, tərəfdaşlığın təkcə keçmiş təcrübələrə deyil, gələcəyə istiqamətlənən strateji baxışlara əsaslandığını nümayiş etdirir.

İki dövlət arasında münasibətlərin mühüm dayaqlarından biri enerji sahəsindəki əməkdaşlıqdır. ABŞ Azərbaycanın Xəzər dənizindəki enerji resurslarının istismarı və dünya bazarına çıxarılması istiqamətində daim dəstək verib. Xüsusilə “Əsrin müqaviləsi”nin imzalanmasında və Cənub Qaz Dəhlizi kimi strateji layihələrin reallaşmasında ABŞ-ın rolu əhəmiyyətli olub. Hazırda isə bu əməkdaşlıq bərpa olunan enerji və “yaşıl” texnologiyalar kontekstində yeni mərhələyə daxil olur. Azərbaycanın “yaşıl” enerji sahəsindəki ambisiyaları, ABŞ-ın texnologiya və investisiya imkanları ilə birləşərək ikitərəfli münasibətləri daha da gücləndirə bilər.

Azərbaycanın rəqəmsal transformasiya və yüksək texnologiyalar sahəsindəki islahatları ABŞ ilə əməkdaşlıq üçün yeni imkanlar açır. Süni intellekt, kibertəhlükəsizlik, innovasiya ekosistemləri və startapların inkişafı kimi sahələrdə ABŞ şirkətləri ilə əməkdaşlıq potensialı böyükdür. Bu sahədə bilik və təcrübə mübadiləsi, birgə texnoloji layihələrin həyata keçirilməsi və investisiyaların təşviqi, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi məqsədinə xidmət edir. ABŞ-ın qabaqcıl texnologiyalara malik olması və Azərbaycan hökumətinin bu sahədə açıq siyasəti, ikitərəfli əməkdaşlığın strateji səviyyəyə yüksəlməsinə zəmin yaradır.

İki ölkə arasında ticarət dövriyyəsi ildən-ilə artır. Azərbaycanın əlverişli coğrafi mövqeyi, sabit iqtisadi mühiti və geniş bazar imkanları Amerika investorları üçün cəlbedici perspektivlər vəd edir. Xüsusən qeyri-neft sektorunda – kənd təsərrüfatı, turizm, logistika və yüngül sənaye sahələrində bu ölkə sərmayəsinin artması tərəflərin qarşılıqlı maraqlarına uyğundur. Ticarət əlaqələrinin genişlənməsi üçün qarşılıqlı sərgilər, biznes forumlar və ikitərəfli investisiya təşviq mexanizmləri mühüm rol oynayır.

Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən nəqliyyat qovşağına çevrilməsi ABŞ üçün də maraq kəsb edir. Bakı–Tbilisi–Qars dəmir yolu, Zəngəzur dəhlizi perspektivi, eləcə də Transxəzər Nəqliyyat Marşrutu kimi layihələr ABŞ-ın Orta Asiya və Avropa ilə ticarət əlaqələrində alternativ yollar açır. Bu baxımdan sözügedən ölkə ilə Azərbaycan arasında nəqliyyat-logistika sahəsində strateji əməkdaşlıq regional və beynəlxalq ticarətin təhlükəsiz və səmərəli inkişafına töhfə verə bilər.

Azərbaycanın sənaye sektorunun modernləşdirilməsi istiqamətində atdığı addımlar ABŞ-ın texnoloji bilik və təcrübəsi ilə tamamlanır. Aviasiya sahəsində isə hava nəqliyyatı infrastrukturunun yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində birgə layihələr gündəmdədir. Bu, turizm və ticarət əlaqələrinin inkişafına da müsbət təsir göstərə bilər.

Azərbaycan ilə ABŞ arasında mövcud əməkdaşlıq artıq ənənəvi tərəfdaşlıq çərçivəsindən çıxaraq strateji baxışla yeni mərhələyə qədəm qoyur. Bu yanaşma münasibətlərin, sadəcə, ötən dövrlərin təcrübəsi əsasında deyil, gələcəyə yönələn planlarla inkişaf etdirilməsini nəzərdə tutur. İki ölkə arasında möhkəm siyasi dialoq, qarşılıqlı hörmət və maraqlar üzərində qurulan əməkdaşlıq, regional sabitliyə və qlobal enerji təhlükəsizliyinə mühüm töhfə verir.

Azərbaycan – ABŞ münasibətləri qarşılıqlı maraq və strateji hədəflərlə zəngin, çoxşaxəli tərəfdaşlıq modelidir. Enerji, texnologiya, sənaye, nəqliyyat və sərmayə kimi sahələrdə əməkdaşlıq bu münasibətləri daha da möhkəmləndirir. Gələcəyə istiqamətlənən baxış və qarşılıqlı etimada əsaslanan yanaşma iki ölkə arasında əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçəyini göstərir. Bu isə yalnız hər iki tərəfin deyil, bütövlükdə, regionun və beynəlxalq ictimaiyyətin də xeyrinə olacaq.

# BP “Şahdəniz”də 2 mühəndis layihəsi gerçəkləşdirəcək

**BP şirkəti “Şahdəniz” qaz və kondensat yatağının işlənməsi layihəsinin və Səngəçal terminalının operatoru kimi mühəndis-layihələndirmə işləri üzrə 2 irihəcmli müqavilənin imzalandığını açıqlayıb. Bu podrat müqavilələri 2025-ci il iyunun 3-də Bakı Enerji Həftəsi çərçivəsində yekun investisiya qərarı elan olunmuş hər iki layihənin icra mərhələsinə keçidinə doğru mühüm bir irəliləyişdir.**

Şirkətdən verilən məlumata görə, müfəssəl mühəndis-layihələndirmə və təchizat xidmətlərini əhatə edən bu müqavilələrin icrası SOCAR-KBR birgə müəssisəsinə verilib. Bu podrat müqavilələri “Şahdəniz kompressiya” (ŞDK) və “Səngəçal terminalının elektrikləşdirilməsi” (STEL) layihələrinin icrası üçün mühüm bir mərhələdir.

BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə, Yaxın Şərq və Şimali Afrikada layihələr üzrə vitse-prezidenti Mətt Kirkham deyib: “Şahdəniz Kompressiya” və “Səngəçal terminalının elektrikləşdirilməsi” layihələrinin irəliləyişində bu mühüm mərhələnin əldə olunduğunu bölüşməkdən çox məmnunam. İyun ayının əvvəllərində qəbul edilmiş yekun investisiya qərarlarının ardınca biz podratçı seçimi mərhələsini uğurla tamamladıq və SOCAR-KBR birgə müəssisəsi ilə 2 əsas podrat müqaviləsi imzaladıq. SOCAR-KBR şirkətinin Xəzər regionunda oxşar layihələrdə təsdiqlənmiş təcrübəsi, o cümlədən “Şahdəniz Kompressiya” layihəsi üzrə əvvəlki işləri uğurla yerinə yetirməsi bu seçimdə həlledici amil olmuşdur. Bu nailiyyətin əldə olunmasında əməyi və zəhməti keçən hər kəsə dərin təşəkkürümü bildirirəm. Ümid edirəm ki, davamlı əməkdaşlığımız nəticəsində hər iki layihə təhlükəsiz, rəqabətqabiliyyətli və qrafikə uyğun şəkildə həyata keçiriləcək”.

ŞDK layihəsi üzrə verilmiş müqavilə 43 milyon funt sterlinq dəyərindədir və 1 iyul 2025-ci il tarixində qüvvəyə minib. Bu müqavilə çərçivəsində işlərin 2026-cı ildə başa çatacağı planlaşdırılır. İş həcminə aşağıdakı qurğuların tikintisi üzrə mühəndis-layihələndirmə və təchizat dəstəyi, o cümlədən quraşdırmaya hazırlıq, istismaravermə və əməliyyat hazırlığı daxildir:

– ŞDK platforması üçün üst tikililər;
– ŞDK platforması üçün dayaq bloku və payalar;
– Quruda və dənizdə yerləşən mövcud qurğular (Şahdəniz Alfa, Şahdəniz Bravo və Səngəçal terminalı);
– Sualtı sistemlə inteqrasiyanı təmin etmək üçün sistemin layihələndirilməsi üzrə mühəndislik işləri.

STEL layihəsi üzrə verilmiş müqavilə 7 milyon funt sterlinq dəyərindədir. 2025-ci il iyulun 1-də tarixində qüvvəyə minmiş bu müqavilə çərçivəsində işlərin isə 2028-ci ildə başa çatacağı planlaşdırılır. Müqavilə elektrik şəbəkəsindən enerjinin ötürülməsi və fasiləsiz enerji təminatı üçün qoruma mexanizmini təmin etmək məqsədilə Səngəçal terminalı ərazisində bir sıra yeni avadanlıqlar və mövcud obyektlərdə aparılacaq dəyişikliklər üçün mühəndis-layihələndirmə və təchizat üzrə dəstək xidmətlərini əhatə edir.

Xatırladaq ki, 2,9 milyard ABŞ dolları dəyərində olan ŞDK layihəsində məqsəd “Şahdəniz” yatağındakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olunmaqdır. Layihənin yataqdan, təxminən, 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Layihə çərçivəsində yeni kompressiya obyektinin – elektriklə işləyən, heyətsiz kompressiya platformasının (və ya əsasən heyətsiz qurğu) inşası nəzərdə tutulur. Üzərində 4 ədəd 11 meqavatlıq kompressor quraşdırılacaq ŞDK platforması həm “Şahdəniz Alfa”, həm də “Şahdəniz Bravo” platformalarından hasil edilən qazın kompressiyası üçün ana qurğu kimi xidmət göstərəcək. Bu o deməkdir ki, hər iki platformadan hasil edilən ixrac qazı qurudakı Səngəçal terminalına göndərilməzdən əvvəl ŞDK-da kompressiya olunacaq. Layihə, həmçinin “Şahdəniz” müqaviləsahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri, ŞDA, ŞDB və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri də əhatə edir.

2025-ci ilin sonlarında başlanacağı planlaşdırılan tikinti işlərinin 2029-cu ildə başa çatdırılması və bununla da ŞDK platformasının həmin ildə ŞDA-dan, 2030-cu ildə isə ŞDB platformasından hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacağı planlaşdırılır. Tikinti işləri ölkə daxilində yerli resurslardan istifadə etməklə həyata keçiriləcək və 4 minə qədər iş yeri yaradacaq.

STEL layihəsi terminalın dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa ediləcək. Hazırda isə terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə və BP-nin Azərbaycanda idarə etdiyi ən böyük obyekt sayılan terminalın əməliyyatlarından yaranan emissiyaların azaldılmasına imkan verəcək.

Artıq 230 milyon dollar dəyərində olan STEL layihəsi üzrə tikinti işləri başlanıb. Bu işlərin iki mərhələdə başa çatacağı nəzərdə tutulur. 1-ci mərhələ 2027-ci ilin ortalarında, 2-ci mərhələ isə 2028-ci ilin sonunadək yekunlaşdırılacaq.



# KOB evlərində xidmətlər çoxalıb




**2025-ci ilin ilk yarısında Azərbaycandakı KOB evlərində sahibkarlara, ümumilikdə, 208 min 194 xidmət göstərilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 23,2 faiz çoxdur.**

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumata əsasən, hesabat dövründə “Yevlax KOB evi” üzrə 31,2 faiz, “Xaçmaz KOB evi” üzrə 6,8 faiz, “Bakı KOB evi” üzrə isə 6,7 faiz artım qeydə alınıb. Bununla yanaşı, cari ilin yanvar-iyun aylarında KOB evlərində sahibkarlara göstərilmiş dövlət – biznes və biznes – biznes xidmətlərinin ümumi sayında da müvafiq olaraq 22,8 faiz və 26,7 faiz artım baş verib.

Qeyd edək ki, KOB evləri ölkəmizdə kiçik və orta sahibkarlığın stimullaşdırılması məqsədilə ölkəmizdə yaradılıb. Artıq Bakı, Xaçmaz və Yevlax şəhərlərində belə məkanlar fəaliyyət göstərir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin struktur bölməsi olan KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin təqdim olunduğu vahid məkandır. Sahibkarlar bu məkana daha çox biznes fəaliyyəti üçün zəruri sənədlər, vergi və gömrük məsələləri, kommunal xidmətlər üçün müraciət edirlər. KOB evlərinə sahibkarların marağının artması, onların bir məkanda müxtəlif xidmətlərə asan çıxış əldə etməsi, prosesin sürətli, şəffaf və sahibkar məmnunluğu prinsiplərinə əsaslanmaqla təşkil olunması, həmçinin biznes subyektlərinin vaxt və xərclərinə qənaət imkanı ilə bağlıdır.

Yeri gəlmişkən, 2024-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzi Azərbaycanın KOB evi modelini qabaqcıl innovativ təcrübə və nümunəvi model kimi qiymətləndirərək tətbiqini təşkilata üzv ölkələrə tövsiyə edib. Artıq bir sıra ölkələr Azərbaycanın KOB evi modelinə maraq göstərir. Belə ki, KOB evləri ilə bağlı təcrübə mübadiləsi məqsədilə KOBİA və Qazaxıstanın Beynəlxalq Sahibkarlar Birliyi “KIT” arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

# 6 ayda özəlləşdirmə 79,5 milyon manat gəlir gətirib

**Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına əsasən, 2025-ci ilin yanvar – iyun ayları ərzində özəlləşdirmədən dövlət büdcəsinə 79,5 milyon manat vəsait ödənilib. Hesabat dövründə adı çəkilən qurum tərəfindən dövlət əmlakının özəlləşdirilməsi, hərracların təşkili sahəsində işlər davam etdiriliib, 22 hərrac keçirilib. Hərraclarda 4 səhmdar cəmiyyətinin səhm paketi, 1 kiçik dövlət müəssisəsi, 463 nəqliyyat vasitəsi satılıb.**

Bu müddətdə yeni iş yerlərinin açılması, sosial-iqtisadi inkişafın daha da sürətləndirilməsi baxımından iri dövlət müəssisələrinin investisiya müsabiqələri vasitəsilə özəlləşdirilməsi də diqqətdə saxlanılıb. İlin ilk yarımilində “Bakı Ayaqqabı Fabriki” ASC-nin investisiya müsabiqəsi vasitəsilə satılmış səhmlərinin alıcısı tərəfindən müqavilə öhdəliklərinin icrası yekunlaşdırılıb.

Bununla yanaşı, “Tibb Texnikasının Təmiri Zavodu”, “Bakı Nef-Qaz Mədən Avadanlıqları Zavodu” və “Gəncə-Qənnadı” ASC-lərdə, eləcə də “Sumqayıt Tekstil”, “Gəncə Xalça Kombinatı”, “Bakı Alüminium Profil” və “Bakı Mərmər Qranit” MMC-lərdə investorlar tərəfindən görülən işlərin monitorinqi aparılıb və investorlarla mövcud vəziyyət müzakirə edilib.

Bu ilin yanvar – iyun ayları ərzində özəlləşdirmədən dövlət büdcəsinə 79,5 milyon manat vəsait daxil olub, ötən ilin eyni dövrü ilə müqayisədə 6 faizə yaxın artım qeydə alınıb.



# “Startap”çı sahibkarların sayı 220-yə çatıb



**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) 5 mikro və kiçik sahibkara “Startap” şəhadətnaməsi verib. Bununla da “Startap”çıların sayı 220-yə çatıb.**

KOBİA-nın məlumatında daha sonra qeyd edilir ki, “Startap” şəhadətnaməsinin verilməsi üzrə Ekspertlər Şurasının növbəti iclasında KOB subyektlərindən daxil olmuş 14 müraciətə baxılıb. Şuranın qərarına əsasən, “Steamland Factory”, “Mənzil Park”, Noosheard”, “Adscreen” və “Onrepetitor” şirkətlərinin müvafiq layihələrinə “Startap” şəhadətnamələri verilib. Bununla da adları çəkilən qurumların şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə edilən gəlirlərin mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad olunması qərara alınıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*İzimiz, tariximiz...*

# Səfəvi şahzadəsinin oğlu Moğol hökmdarı I Böyük Əkbər

(VIII yazı)

**Səfəvi Şahzadəsi Həmidə Banu Bəyimin və Moğol (Baburi) hökmdarı Humayunun oğlu Cəlaləddin Məhəmməd Əkbər (Taxta çıxdıqdan sonra Böyük Əkbər) hakimiyyətə gəldiyi gündən özünü sidq ürəkdən elm, incəsənət və memarlığın hamisi kimi göstərib.**

Əkbər şah memarlar, alimlər, şairlər, yazarlar və rəssamlarla xüsusi münasibət qurub, onlara hörmətlə yanaşıb. Əkbər şahın dövründə rəssamlıq məktəbinin bünövrəsi qoyulub, saraylarının divarları freskalarla bəzədilib. Böyük Əkbərin qayğısı sayəsində təxminən 24 min cilddən ibarət zəngin bir kitabxana yaradılıb. 1569-cu ildə Aqra yaxınlığında "Qələbə şəhəri" olan yeni paytaxt Fatehpur Sikri şəhərinin tikintisinə başlanıb. Əkbər şahın dövründə türk memarlığının ən gözəl nümunələri yaranıb, bu abidələr indi də durur və insanları valeh edir.

Əkbər şah müsəlman ölkələr arasında çadranı qadağan edən ilk hökmdar olub. Babürilərin ən parlaq dövrü Əkbər şahın imperator olduğu dövr sayılır.

Əkbərin ən yaxın ətrafı bacarıqlı və savadlı vəzirlərdən ibarət idi, onlar bir çox dildə danışırdılar. Böyük Əkbərin hakimiyyəti haqqında Əbülfəzl (1551-1602) "Əkbərnamə" əsərini yazmışdı. "Əkbərnamə" kitabında Böyük Əkbərin hakimiyyəti, qələbələri, insan kimi xarakteri haqqında ətraflı məlumat verilir, Əkbər şah sərkərdə və hökmdar kimi təqdim olunur. Orada deyilir ki, Əkbər şahın boyu qısa olsa da güclü bədən quruluşuna malik idi, döyüşdə şücaət göstərən çevik sərkərdə olmaqla yanaşı nadir hallarda qəddarlıq göstərib, əsir götürdüyü düşmənləri ilə humanist davranıb, vəhşi heyvanları ovlamağı sevib.



İndus Brahmin Birbal (1528-1586) Böyük Əkbərin hakimiyyəti dövrünə aid hikmətli sözlər, hind folklorunun ayrılmaz hissəsinə çevrilmiş lətifələr kitablarını çap edib.

Əkbər özü bir neçə əsəri fars dilindən sanskritə, sanskritdən fars dilinə tərcümə etmişdi.

Böyük Əkbərin dövründə məscidlərin, böyük və gözəl abidələrin tikintisinə diqqət yetirilib, Şimali və Mərkəzi Hindistanda indus məbədlərinin, həmçinin Qoadakı xristian kilsələrinin tikintisi üçün vəsait və torpaq sahələri ayrılıb. Bu abidələrin və məscidlərin bir hissəsi indi də durur.

Hökmdarlığının ilk illərində Böyük Əkbər induizm, islam, zərdüştilik, xristianlıq və digər dinlərə münasibətdə eyni mövqe nümayiş etdirib, bütün dinlərin sərbəst şəkildə fəaliyyət göstərməsinə icazə verib. Böyük Əkbər 1582-ci ildən etibarən ölkədə Əbülfəzllə birlikdə inkişaf etdirdiyi və induizm, zərdüştilik, islam və qismən də xristianlıq elementlərinin birləşməsini təmsil edən "ilahi inanc" adlandırdığı yeni bir mistik təlimi bərqərar etməyə çalışıb. Böyük Əkbər deyib: "Yalnız əqli təsdiq edən iman haqqdır". O, Hindistanda və onun hüdudlarından kənarda Moğol İmperiyasının nüfuzunu möhkəmləndirib, hərbi və diplomatik üstünlüyünü təmin edib. O həmçinin bir sıra sosial islahatlar, o cümlədən dul qadınların yenidən evlənməsinin qanuniləşdirilməsi və nikah yaşının artırılması kimi tədbirlər həyata keçirib.

Şahzadə Cəlaləddin Məhəmməd Əkbər 1542-ci il oktyabrın 14-də Umarkot şəhərinin Racput qalasında Səfəvi Şahzadəsi Həmidə Banu Bəyimin və Baburi hökmdarı Sultan Humayunun ailəsində anadan olub. Böyük Əkbər Böyük Moğol (Baburilər) İmperiyasının üçüncü hökmdarı, İmperiyanın yaradıcısı Zəhirəddin Məhəmməd Baburun nəvəsi idi.

## Cəlaləddin Məhəmməd Əkbər I Böyük Əkbər adı ilə taxta çıxır

Böyük Əkbər 12-13 yaşından atasının icazəsi ilə yürüşlərə gedir, bu səfərlərdə böyük döyüş məharəti nümayiş etdirirdi. Dehlinin alınmasından bir neçə ay sonra Sultan Humayun bədbəxt hadisə nəticəsində 48 yaşında vəfat edir. Humayun şahın ölümü bir müddət Şahzadə Əkbərdən gizlədilir, bu vaxt döyüşdə olan Şahzadə Əkbər 20 gün sonra Dehliyə qayıdır və1556-cı il fevralın 15-də 14 yaşında Şahzadə Əkbər hökmdar elan olunur. Atasının vəziri Bayram xan Əkbərin qəyyumu təyin edilir. Əkbər yetkinlik yaşına çatana qədər ölkəni Bayram Xan idarə edir.

1556-cı ilin noyabrında Əkbər İkinci Panipat döyüşündə imperator Hemu məğlub edir. Böyük Əkbər 1560-cı ildə,18 yaşında hakimiyyətdə bütün səlahiyyətləri ələ alır və dörd il onun yanında olan, hakimiyyət sirlərini ona öyrədən, Səfəvilərdən bu torpaqlara gələn Azərbaycan türkü Bayram xanı qovur.

Öz hakimiyyətini möhkəmləndirmək və Şimali və Mərkəzi Hindistanın (Qucarat, Benqal və Kəşmir) üsyankar hökmdarlarını tabe etmək üçün Böyük Əkbər hazırlıqlar aparır. O, Racputlara illik xərac ödəmək və ordu üçün lazımi sayda adam vermək şərti ilə muxtariyyət verir. Əkbər vergi və rüsumların yığılmasını nizama salır və babası Babur şah kimi ticarətin inkişafına yardım edir.



1574-cü ildə dövlətin ərazi quruluşunu əsaslı şəkildə başa çatdıran Əkbər şah daxili islahatlar aparmağa başlayır. Əkbər Moğol sülaləsinin qüdrətini gücləndirir və işğallar yolu ilə dövlətin sərhədlərini xeyli genişləndirir, üsyanların və parçalanmaların qarşısını alır. 1578-ci ildə Benqal, 1581-ci ildə Kabil, 1587-ci ildə Kəşmir, 1592-ci ildə Sind və 1594-cü ildə Qəndəharı tam olaraq öz torpaqlarına qatır.

Əkbər şahın hakimiyyətinin sonuna, yəni 1605-ci ilə qədər Moğol İmperiyası şimal və mərkəzi Hindistanın çox hissəsini əhatə edib. O, bir sıra böyük dövlət, hərbi və dini islahatlar həyata keçirib. Böyük Əkbərin dövründə Hindistan mədəniyyəti və incəsənəti öz inkişafının zirvəsinə çatıb.

İmperiyada keçirilən islahatların məqsədi burada yaşayan bütün xalqlara ədalətli və bərabər münasibətə əsaslanan mərkəzləşdirilmiş dövlət yaratmaq idi. O, ilk növbədə rütbələr sistemi tətbiq etməklə orduya nəzarəti gücləndirir, dövlətin yeni inzibati bölgüsünü həyata keçirir, pul şəklində ödənilən vahid vergi sistemini tətbiq edirdi. Vergi islahatı ən ciddi uçota əsaslanıb ki, bu da məmurlara rüsumların əhəmiyyətli hissəsini gizlətməyə və oğurlamağa imkan verməyib. Eyni zamanda qıtlıq zamanı vergilərin alınmaması, nağd pul və taxıl şəklində kreditlərin verilməsi nəzərdə tutulub. Əkbər şah qeyri-müsəlmanlar üçün vergiləri (cizyə) və induslar üçün alçaldıcı anket vergisini ləğv edib. İmperatorluqda vahid ölçü və çəkilər sistemi, eləcə də Uluqbəyin cədvəllərindən alınan məlumatlar əsasında vahid günəş təqvimi tətbiq edilib. Əkbər şah hətta avropalılarla ticarətin inkişafına böyük əhəmiyyət verib. Hindistanda Moğol İmperiyasının hökmranlığını genişləndirmək və indus cəmiyyətini qazanmaq üçün Əkbər şah indus racalarını fəal şəkildə dövlət və orduda mühüm vəzifələrə cəlb edib.



## Əkbər şah Makedoniyalı İsgəndərlə müqayisə edilib

Əkbər şah çox bacarıqlı bir sərkərdə idi və buna görə Makedoniyalı İsgəndərlə müqayisə edilirdi. Döyüş meydanında məğlubedilməzliyinə görə ona "Böyük" epiteti verilmişdi. Əkbərin tətbiq etdiyi rütbələr (mənsəblər) sistemi ordu üzərində nəzarəti gücləndirimişdi. Moğol ordusu toplar və döyüş filləri ilə təmin olunmuşdu. Odlu silah və artilleriya əldə etmək üçün Osmanlı sultanlarından və avropalılardan, xüsusən də portuqal və italyanlardan kömək istəyir. Əkbərin ordusu odlu silahlarına görə qonşu dövlətlərin ordularından üstün idi, bu baxımdan alimlər və tarixçilər tərəfindən Moğol İmperiyası ilə bağlı tez-tez istifadə edilən "odlu silahlar imperiyası" termini yaranıb.



Əkbər şah mərkəzi hökumət sistemində Dehli Türk Dövlətində mövcud olan sistemə uyğun islahatlar aparıb. Maliyyə məsələlərinə torpaqların idarə edilməsinə cavabdeh olan vəzir rəhbərlik edib. Mir Bəxşi ali hərbi sərkərdə kimi hərbi məsələlərə məsul olub, əmirləri yaxın adamları arasından seçib.

Mir Səman imperator sarayına, o cümlədən hərəmxanalara məsul şəxs idi, həmçinin saray və şah mühafizəçilərinin işinə nəzarət edirdi.

Ədliyyə sahəsi ayrı bir təşkilat olub, bu sistemə baş qazi rəhbərlik edib, o həm də dini inanc və adət-ənənələrə cavabdeh idi.

Əkbər şah Hindistan numizmatika sahəsində də islahatlar aparıb, yeni sikkələr zərb etdirib. Yeni sikkələrdə dekorativ nəbati və nöqtəli haşiyələr, dördbucaqlı motivlər var idi. Tarixçilər Əkbər şahın portreti olan qızıl sikkəni onun oğlu Şahzadə Səlimə (sonralar İmperator Cahangir) aid edirlər. Məlum olduğu kimi Şahzadə Səlim əvvəl atasına qarşı üsyan edib, sonra barışıq təklif etdikdən sonra Əkbərin portreti olan qızıl möhürlər zərb etdirib və atasına bağışlayıb.

Əkbər şahın hakimiyyətinin əvvəlində Moğol hökmranlıqlarına yalnız Aqra və Dehli ətrafı, Pəncabın şərq hissəsi və Əfqanıstanın Kabil bölgəsi daxil idi. 17-ci əsrin əvvəllərində onlar bütün Şimali Hindistanı və bəzi digər əraziləri də zəbt ediblər. İşğalların çoxu Əkbərin hakimiyyətinin birinci yarısında həyata keçirilib. Malva və Qucaratdakı sultanlıqlar, Benqal, Sind və Kəşmirdəki müsəlman dövlətləri, Racput knyazlıqları bu sırada idi. Qəndəhar Səfəvilərdən geri alınıb və beləliklə, bütün Şərqi Əfqanıstan Baburilərin hakimiyyəti altına keçib. Əkbər Əhmədnaqar sultanlığının ağalıqlarının şimal hissəsini Dekandan alıb və dəniz ticarəti ilə seçilən zəngin bir bölgə olan Benqaldakı Qucarat Sultanlığının ilhaq edib ki, bu əməliyyat xüsusi əhəmiyyət daşıyırdı.

Əkbərin hakimiyyətinin əvvəlində portuqallar Hindistan yarımadasının qərb sahillərində bir neçə qala və fabrik qurmuşdular. Bu bölgədə dəniz gəmiçiliyinə və ticarətinə nəzarət edirdilər. Nəticədə ticarət Portuqaliyadan asılı vəziyyətə düşür ki, bu da hökmdarların və tacirlərin narazılığına səbəb olur.

1572-ci ildə Moğol İmperiyası dənizə çıxışı diplomatik yolla həll etməyə qərar verir və uğur qazanır. Razılığa görə Əkbər şah portuqalların Hind okeanındakı nüfuzunu tanıyır və gəmi ilə ticarət, o cümlədən Məkkəyə həcc ziyarətinə getmək üçün limanı tərk etməzdən əvvəl onlardan icazə almağa məcbur olur.

## Əkbər şahın dövründə Osmanlı İmperiyası ilə münasibətlər

1555-ci ildə Əkbər hələ uşaq ikən Osmanlı admiralı Seydi Əli Rəis Moğol İmperiyasına səfər edir. Daha sonra 1569-cu ildə başqa bir Osmanlı admiralı Kurtoğlu Xızır Rəis Moğol İmperiyasının sahillərinə gəlir. Bu admirallar Hind okeanında Portuqaliya imperiyasının hegemonluğuna son qoymağa çalışırdılar. Əkbər öz dövründə Qanuni Sultan Süleymana altı məktub göndərmişdi.

1576-cı ilin oktyabrında Əkbər şah ailə üzvlərinin də daxil olduğu Yəhya Salehin başçılığı ilə böyük bir zəvvar dəstəsini 600 min qızıl və gümüş sikkə, 12 min kaftan və böyük partiya düyü ilə Məkkəyə göndərir. Surətdən zəvvarları aparan iki gəmi 1577-ci ildə Ciddə limanına çatır. 1577-1580-ci illər arasında Məkkə və Mədinə hakimiyyətləri üçün nəfis hədiyyələrlə daha dörd karvan göndərilir.

Moğollar dörd ilə yaxın Hicazda qalırlar və dörd dəfə Həcc ziyarətində iştirak edirlər. Bundan əlavə, Əkbər şah Qədiri sufi təriqətinin kasıb müsəlman dərvişlərinin Həcc ziyarətinə getməsini də maliyyələşdirir. Ciddədəki Osmanlı paşası Moğolların Surətə qayıtmasına kömək edir. Əkbər şahın Hicazda Moğol varlığını tanımaq cəhdləri nəticəsində yerli şəriflər Moğal İmperiyasından maliyyə dəstəyi alacaqdı.

## Səfəvi dövləti ilə əlaqələr

Səfəvilər və Moğollar arasında uzun müddət diplomatik əlaqələr olub. Hümayun Şer şahın təzyiqi ilə Hindistandan qaçmağa məcbur olanda Səfəvi hökmdarı I Təhmasibə sığınıb. 16-17-ci əsrlərdə Səfəvilər və Osmanlılar Asiyada hakimiyyət uğrunda mübarizə aparıblar. Səfəvilər Moğol və Osmanlılardan onunla fərqlənirdilər ki, Səfəvilər şiə, Moğollar və Osmanlılar sünni idi. Səfəvilər və Moğollar Hindiquşda Qəndəhar şəhərinə nəzarət etmək üçün mübarizə aparırdılar. Nədən ki, Hindiquş iki imperiya arasında sərhəddə yerləşirdi və mühüm strateji rola malik idi. Əkbərin hakimiyyətinin ilk iki onilliyində Moğollarla Səfəvilər arasında münasibətlər isti idi, lakin 1576-cı ildə Təhmasbın ölümündən sonra Səfəvilər imperiyasında vətəndaş müharibəsi başlayır və iki imperiya arasında diplomatik əlaqələr kəsilir. Münasibətlər on il sonra Şah Abbas taxta çıxdıqdan sonra bərpa olunur. Bundan sonra Əkbər şah Kabilin alınmasını başa çatdırır və imperiyanın şimal-qərb sərhədlərini möhkəmləndirmək üçün Qəndəhara qoşun göndərir.

1595-ci il aprelin 18-də Qəndəhar müqavimət göstərmədən təslim olur və hökmdar Müzəffər Hüseyn öz ailəsi və qohumları ilə Əkbərin sarayına köçür. Qəndəhar 1646-cı ildə Şah Cahan tərəfindən ələ keçirilənə qədər bir neçə onilliklər ərzində Moğolların hakimiyyəti altında qalır. Səfəvilərlə Moğollar arasında diplomatik əlaqələr Əkbərin hakimiyyətinin sonuna qədər davam edir.

## Böyük Əkbərin ailəsi və evliliyi

Cəlaləddin Məhəmməd Əkbərin ilk evliliyi 1551-ci ilin noyabrında öz əmisi Məhəmməd Xindal Mirzənin yeganə qızı Rukiyyə Sultan Bəyim Sahibə ilə olub. Onda Əkbərin 9 yaşı vardı və Rukiyyə Sultan Bəyim onun birinci və əsas arvadı idi. Rajputlar arasında mövqeyini möhkəmləndirmək üçün Böyük Əkbərin Rajput şahzadəsi Məryəm üz-Zaman Bəyim Sahibə (Jodha) ilə diplomatik evliliyi də vardı. Adətən hökmdar birinci evləndiyi qadına əsas arvad statusu verir, Əkbər şah isə iki xanımına-əmisi qızı Rukiyyə Sultan Bəyim Sahibəyə və Məryəm üz-Zaman Bəyim Sahibəyə birinci xanım statusu vermişdi.

Mənbələrin məlumatına görə Əkbər şahın 30 arvadı, (bəzi mənbələrdə 36 arvadı) altı oğlu, altı qızı olub. Övladlarının təxminən yarısı uşaqkən ölüb. Böyük Əkbərin oğlanlarından sağ qalanlar bunlardır: Sultan Cahangir, Sultan Murad Mirzə və Sultan Danial Mirzə...

1605-ci il oktyabrın 3-də Əkbər şah dizenteriya xəstəliyinə tutulur, saray həkimlərinin səylərinə baxmayaraq vəziyyəti getdikcə pisləşir. Belə olanda Böyük Əkbər oğlu Cahangir Mirzəni çağıraraq qılıncını öz əliylə onun belinə taxır və hökmdar sarığını başına qoyur. Böyük Əkbər ölümündən əvvəl Aqrada özü üçün türbənin tikintisinə başlamağı əmr etmişdi. Türbə oğlu Cahangir tərəfindən tamamlanır və Əkbər şah 1605-ci il oktyabrın 26-da (bəzi mənbələrdə oktyabrın 16-da) 63 yaşında vəfat edir və bu türbədə dəfn olunur.



Böyük Əkbərin ölümündən 70 il sonra, 1691-ci ildə Moğollara qarşı üsyan qaldıran catlar türbəni qarət edərək üzərində tikilmiş məqbərəni dağıdır, Əkbərin qalıqlarını isə yandırırlar.

"Time" jurnalı Böyük Əkbərin adını "Dünyanın ən yaxşı 25 lideri" siyahısına daxil edib.

**Böyük Əkbərin həyatı və hökmdar kimi fəaliyyəti bədii yaradıcılıqda:**

- Smoll B. "Vəhşi Jasmin", roman, ingilis dilindən rus dilinə tərcümə A. Sokolov, S. Sokolova, Moskva, AST, 525 s. (1998)
- Salman Rüşdi "Florensiyanın sehrbazı", (2008)
- Aleks Rutford "Dünyanın hökmdarı" (2011)
- Gerber Denis "Günəşdə duran mələk"
- Şri Çinmoy "Moğol İmperatorları" (2000)

**Kinematoqrafiyada:**

- Böyük Moğol (1960)
- Jodha və Əkbər (2008)
- Jodha və Əkbər, "Böyük sevgi hekayəsi", serial, (2013)

Hökmdarlığı müddətində istedadlı sərkərdə kimi ad qazanan, döyüş meydanında məğlubedilməz olduğuna görə "Böyük" epiteti verilən, Makedoniyalı İsgəndərlə müqayisə edilən Əkbər şah həm Moğol İmperiyası, həm də bütövlükdə Hindistan yarımadası üçün zəngin bir irs qoyub. O, dini dözümlülük prinsipinə əsaslanaraq müxtəlif dinlərə mənsub ən yaxşı alimləri, şairləri, musiqiçiləri, sənət adamlarını taxt-tacının ətrafına toplayıb. Məhz Əkbər şahın böyüklüyünüün bir qolu da buradan qaynaqlanır.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***
**Daşkənd**

*ALİ MEMARLIQ TƏHSİLİ – 105*

# Milli memarlığımızın sənət beşiyi

**Azərbaycanda ali memarlıq təhsilinin 105 yaşı tamam olur. 1920-ci ildən Bakı Politexnik, 1930-cu ildən İnşaat və Memarlıq, 1934-cü ildən Azərbaycan Sənaye, 1951-ci ildən Azərbaycan Politexnik institutlarında, 1975-ci ildən Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda, 2000-ci ildən isə Azərbaycan Memarlıq və İnşaat Universitetində tədris edilən bu ixtisas 1968-ci ildən ayrıca fakültəyə çevrilib.**



**Bir əsrdən artıq müddətdə bu ali ixtisas məktəbi yalnız memarlar yetişdirməklə kifayətlənməyib, həm də şəhərsalmanın, abidələrin qorunması və bərpasının, memarlıq düşüncəsinin formalaşmasının mühüm akademik məkanı olub. Bu barədə qəzetimizə müsahibəsində son 10 ildə fakültəyə rəhbərlik edən Əməkdar memar, professor Zahidə Məmmədova bildirdi:**

– Tarixi xidmətləri və zəngin ənənələri ilə seçilən ali memarlıq təhsilimiz təkcə Azərbaycanda deyil, regionda və dünyada nüfuzlu arxitektura mərkəzi kimi tanınır. Bu üstünlüyün təməlində professor-müəllim heyətimizin yüksək elmi və peşəkar potensialı dayanır.

Hazırda fakültədə memarlıq üzrə 8 elmlər doktoru, 9 professor, 25 fəlsəfə doktoru və dosent fəaliyyət göstərir. Onlar memarlıq layihələndirilməsi, şəhərsalma, abidələrin bərpası sahələrində ölkəmizin tanınmış alimləri və praktik mütəxəssisləridir. Fakültəmizdə "Şöhrət" ordenli pedaqoqlar, Əməkdar memarlar və Dövlət mükafatı laureatları tədris prosesində bilik



və təcrübələrini gənc memarlarla bölüşürlər.

Biz bu tarixi irsə arxalanaraq, onu müasir çağırışlarla sintez edir və beynəlxalq təhsil standartlarına uyğun təhsil modeli qururuq. Bu baxımdan Bolonya sisteminə inteqrasiya, elektron universitet modelinin tətbiqi və fakültəmizin nüfuzunun artması – bütün bunlar son illər ərzində əldə etdiyimiz mühüm nailiyyətlərdəndir.

Bu gün memarlıq fakültəsi nəinki Azərbaycanın, həm də beynəlxalq elmi-ictimaiyyətin diqqət mərkəzindədir. Britaniya Memarlarının Kral İnstitutu – RIBA tərəfindən 2 dəfə qeydiyyatdan keçməsi bu fakültənin dünya səviyyəsində tanındığının və yüksək tədris keyfiyyətinin sübutudur.

Fakültənin son illərdə həyata keçirdiyi diqqətçəkən layihələrdən biri də SABAH qrupları ilə işlənən "Ağdam nümunəsində Qarabağın davamlı inkişafı" adlı elmi-tədqiqat və konseptual tədqiqatdır. Bu layihə hələ 2017-ci ildə – Qarabağın işğaldan azad olunmasından 3 il əvvəl hazırlanaraq ictimaiyyətə təqdim olunmuşdu. Bu, o deməkdir ki, memarlıq fakültəsinin professor-müəllim heyəti həmin torpaqların azad ediləcəyinə qəti inanır, bu istiqamətdə elmi baxışlarını öncədən formalaşdırırdı. Bu gün isə həmin ərazilərin bərpasında, dirçəldilməsində fəal iştirak edirik.

2021-ci ildə fakültənin professor-müəllim heyəti ən yaxşı tələbələri ilə birgə "Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələri"ni təqdim etdi. Bu layihə yenicə azadlığa qovuşan Şuşa üçün bir nəfəs oldu, Prezident, Ali Baş Komandan İlham Əliyevin "Əziz Şuşa, biz səni dirçəldəcəyik" bəyanatına layiqli cavab və dəstək oldu.

**– Bu ixtisas təhsilinin təməlini qoymuş görkəmli memarlar Azərbaycanda memarlığın və sənaye inşaatının da qurucuları olublar. Paytaxtın və böyük şəhərlərimizin çağdaş siması onların layihələri ilə formalaşıb.**

– Memarlıq fakültəsinin bu gün əldə etdiyi nüfuz və elmi-pedaqoji nailiyyətlər, şübhəsiz ki, onun təməlini qoymuş və inkişafında mühüm rol oynamış görkəmli alim və memarların fədakar əməyinin nəticəsidir. Bu təhsilin ilk təşkilatçısı olmuş dosent Boris Revazovun adı həmişə hörmətlə xatırlanır. Əməkdar memar Həsənağa Məcidov, dosent Elcarun Kanukov, professorlar Ramiz Əbdülrəhimov və Tofiq Abdullayev kimi tanınmış simaların rəhbərliyi ilə bu ixtisas təhsili mükəmməlləşib, həm tədris, həm də elmi istiqamət inkişaf edib.

Bu gün də həmin ənənələr yaşadılır və yeni mərhələdə davam etdirilir. Hazırda fakültəmizdə ölkəmizin memarlıq elminin aparıcı nümayəndələri tədris prosesində yaxından iştirak edirlər. Universitetin rektoru, memarlıq doktoru, professor Gülçöhrə Məmmədova, Memarlar İttifaqının idarə heyətinin sədri professor Elbəy Qasımzadə, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi professor Səbinə Hacıyeva, professorlar Aybəniz Həsənova, Rayihə Əmənzadə, Nizami Nağıyev, Ramiz Əbdülrəhimov, Şəhla Qəhrəmanova, Elkin Ələsgərov, dosentlər Nərmin Yusifli və Nazim Vəliyev kimi nüfuzlu alim və memarlar var.

Ötən 1 əsrdən artıq müddətdə çoxsaylı məzunlarımız Azərbaycanın memarlıq tarixində və bu təhsilin yüksək səviyyəyə qalxmasında silinməz izlər qoyublar. Mikayıl Useynov, Sadıq Dadaşov, Ənvər Qasımzadə, Əbdülvahab Salamzadə, Kamal Məmmədbəyov, Qəzənfər Əlizadə, Davud Axundov kimi isimlər bu məktəbin yetirmələri və fəxri olublar. Onların və sonrakı nəsil memarlardan Cəfər Qiyasi, Ramiz Əbdülrəhimov, Aybəniz Həsənova, Elbəy Qasımzadə, Rafael Həsənov, Fəxrəddin Miralayev və digərlərinin müəllifi olduqları layihələr bu gün şəhər mühitimizin simasını müəyyən edir.

Eyni zamanda, fakültə əməkdaşları tərəfindən tərtib olunmuş 100-dən çox monoqrafiya, dərslik və metodik vəsait memarlıq sahəsində tədrisin elmi əsaslarla aparılmasına xidmət edir. Bu nəşrlər – "Qafqaz Albaniyasının memarlığı", "Azərbaycan memarlıq tarixi", "Memarlıq abidələrinin bərpasının əsasları", "Ümumdünya memarlıq tarixi", "Şəhərsalmanın layihələndirilməsi", "Memarlığın tipologiyası" kimi fundamental əsərlər – gənc memarların formalaşmasında bu gün də əsas qaynaq kimi istifadə olunur.

Bütün bunları ümumiləşdirsək, əminliklə deyə bilərik ki, bu gün memarlıq fakültəsi yalnız tarixi irsə söykənmir, həm də onu inkişaf etdirən və gələcək nəsillərə ötürən mərkəz kimi fəaliyyət göstərir.

**– Bəs, əvvəldə qeyd etdiyiniz, "RIBA qeydiyyatını necə qazanmısınız? Bu uğur fakültəyə hansı imkanlar qazandırır?**

– RIBA qeydiyyatı Britaniya Memarlarının Kral İnstitutunun təsdiqidir, bu gün memarlıq sahəsində beynəlxalq tanınmanın və etimadın ən yüksək göstəricilərindən biridir. Bu nüfuzlu qurumun tələbləri olduqca sərtdir. Bu səddi aşmaq və qeydiyyat almaq üçün tədrisin keyfiyyətindən tutmuş, maddi-texniki baza, müəllim heyəti, dərslik və proqramlar, layihə tapşırıqları, ən başlıcası tələbələrin təqdim etdiyi portfoliolar və təhsil mühiti yüksək standartlara cavab verməlidir.

Azərbaycan Memarlıq və İnşaat Universiteti olaraq biz bu uğuru ilk dəfə 2019-cu ildə qazandıq. Bu, bizim üçün tarixi bir nailiyyət idi. Təsəvvür edin, həmin il bütün dünyada cəmi 11 ali memarlıq məktəbi bu hüququ qazandı və onların arasında bizim fakültə də yer aldı. Bu, bizi MDB məkanında RIBA akkreditasiyasına sahib olan yeganə ali məktəbə çevirdi.

Bu uğur təsadüfi deyildi. 2015-ci ildən fakültəmizdə əsaslı islahatlar həyata keçirilmişdi. Tədris planlarımız, kurs layihələrinin məzmunu, dərslik və proqramlarımız RIBA-nın tövsiyələrinə əsasən yenidən hazırlanmışdı. Maddi-texniki baza gücləndirilmişdi, yeni və müasir tədris binamız istifadəyə verilmişdi. Smart texnologiyalar, kompüter laboratoriyaları, 3D printerlər, lazer skanerlər və digər avadanlıqlarla təchiz olunmuşduq. Tələbələrin yaradıcılığını inkişaf etdirən studiyalar və layihə dərslərinə xüsusi önəm verilmişdi.

2024-cü ildə isə biz bu qeydiyyatı növbəti dəfə uğurla yenilədik. RIBA-nın ekspert heyəti AzMİU-ya səfər edərək həm fakültədəki tədris keyfiyyətini, həm də layihə sərgilərimizi, müəllim-tələbə əlaqələrini və beynəlxalq əməkdaşlıqlarımızı yüksək qiymətləndirdi. Bu, o deməkdir ki, bizim memarlıq təhsilimiz artıq yalnız ölkə daxilində deyil, beynəlxalq aləmdə də tanınır və rəqabətə davamlıdır.

Bu keyfiyyət göstəricisi həm tələbələrimiz, həm də müəllim heyəti üçün çoxsaylı imkanlar açır. Məzunlarımız diplomlarına əlavə olunan RIBA qeydiyyatı sənədi ilə Avropa İttifaqı ölkələrində və Böyük Britaniyada tanınan memarlar kimi fəaliyyət göstərə bilirlər. Bu isə onlara genişmiqyaslı karyera perspektivləri və sərhədsiz iş imkanları qazandırır. Müəllimlərimiz üçün isə bu, beynəlxalq şəbəkəyə qoşulmaq, müasir tədris metodlarını tətbiq etmək və qlobal memarlıq cərəyanlarını daha yaxından izləmək imkanı deməkdir.

Biz bu uğuru yalnız bir sertifikat kimi yox, həm də ölkəmizin memarlıq təhsilinin beynəlxalq səviyyədə tanınmasının bariz nümunəsi kimi qiymətləndiririk. Bu, Azərbaycanın çoxəsrlik memarlıq irsinin davam etdirilməsində, müasir və davamlı şəhərsalmanın formalaşmasında müasir memarlıq təhsilimizə ciddi töhfə verən bir addımdır.

**– Tədris prosesi memarlığın çağdaş tələblərini necə cavablandırır?**

– Bu gün memarlıq təhsili yalnız nəzəri biliklərlə kifayətlənməməlidir. Tələbənin memar kimi formalaşması üçün o, mütləq şəkildə real layihə mühitində işləməli, multidissiplinar düşünməyi öyrənməli, fərqli məktəblərin yanaşmaları ilə tanış olmalı və praktik bacarıqlara yiyələnməlidir. Məhz bu məqsədlə biz memarlıq fakültəsində tədrisin əsasını layihə studiyaları üzərində qurmuşuq.

Layihə studiyalarında aparılan işlər tələbənin yaradıcı potensialını üzə çıxarır, düşüncəsini sərbəstləşdirir və ona fərqli funksional, estetik və texniki problemləri kompleks şəkildə həll etməyi öyrədir. Tələbə burada yalnız kağız üzərində deyil, real kontekstə uyğun şəkildə dizayn etməyi öyrənir. Üstəlik, bu dərslərdə kollektiv müzakirələr, müəllim və tələbə arasında interaktiv dialoqlar tələbənin qərarvermə qabiliyyətini və öz layihəsini əsaslandırmaq bacarığını formalaşdırır.

Ustad dərsləri isə tələbələrimiz üçün əsl ilham mənbəyidir. Bizim fakültəyə müxtəlif ölkələrdən – İtaliya, Fransa, Türkiyə, ABŞ, Almaniya, İspaniya və digər ölkələrdən tanınmış memarlar dəvət olunur. Onlar tələbələrlə birbaşa işləyir, real layihə təcrübələrini bölüşür, yanaşma fərqlərini izah edirlər. Bu, tələbələrin dünyagörüşünü genişləndirir və onlara beynəlxalq memarlıq diskursuna inteqrasiya olunmaq imkanı yaradır.

Bütün bunlar tələbələrin yalnız bilik deyil, həm də bacarıq, düşüncə tərzi və yaradıcılıq baxımından tam formalaşmış memar kimi yetişməsinə xidmət edir. Bu yanaşma nəticəsində məzunlarımız təkcə yerli deyil, qlobal əmək bazarında da rəqabətə davamlı və tələb olunan mütəxəssislərə çevrilirlər.

**– Bu gün azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma və şəhərsalma layihələrində necə iştirak edirsiniz?**

– Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma və şəhərsalma layihələrində Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsinin rolu aydın hiss olunur. Azərbaycanda fəaliyyət göstərən memarların 90 faizi məhz bizim fakültənin məzunlarıdır.

Torpaqlarımız azad olunandan sonra biz kurs işləri, magistr disertasiyalarının mövzularında radikal dəyişiklik etdik. İndi bütün mövzular azad olunmuş ərazilərin memarlığı, bərpası, şəhərsalması ilə bağlıdır. Biz təkcə kadr yetişdirməklə kifayətlənmirik, həm də önəmli layihələr hazırlayırıq. 2021-ci ildə Beynəlxalq Abidələr Gününə həsr olunmuş "Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələri"nin təqdimat mərasimini keçirdik. Bu layihədə Şuşanın ayrı-ayrı memarlıq abidələrinin arxivlərdən eskizləri, cizgiləri, fotoşəkilləri və s. kimi məlumatlar götürülərək



onların tarixi, memarlıq-dekorativ xüsusuyyətləri tədqiq edilib, internet resursları vasitəsi ilə indiki vəziyyəti araşdırılıb və eskiz-bərpa layihələri işlənib.

Tələbələr Aşağı və Yuxarı Gövhər Ağa məscidinin, Xan qızı Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Həsən bəy Vəzirovun və başqalarının ev muzeyləri, hamam, karvansaray və bulaqların bərpa eskiz layihələrini hazırladılar. Onlar yeni nəfəs verdikləri o abidələri, tikililəri öz gözləri ilə gördülər, əlləri ilə toxundular, nə qədər şərəfli bir işlə məşğul olduqlarını bir daha hiss etdilər.

Bilirsiniz, azad olunmuş ərazilərdə bu gün gerçəkləşən şəhərsalma layihələri artıq təkcə fiziki bərpa deyil, həm də milli kimliyin, tarixi yaddaşın və müasir memarlığın harmoniyasını əks etdirən unikal nümunələrdir. Ağalı "ağıllı kənd" konsepti, Füzuli və Laçın şəhərlərinin baş planları, Şuşada tarixi irsin qorunması ilə yanaşı, müasir tələblərə cavab verən məkanların yaradılması – bunların hər birində memar məzunlarımızın imzası var.

Bizim üçün xüsusilə qürurverici məqamlardan biri də budur ki, bu layihələrdə çalışan memarlar yalnız texniki icraçı deyil, həm də məkanın ruhunu anlayan, onun tarixi-mədəni kontekstinə həssas yanaşan yaradıcı peşə sahibləridir. Bu isə yalnız yüksək keyfiyyətli təhsil və elmi əsaslarla formalaşan bir məktəbin nəticəsi ola bilər. Azad olunmuş ərazilərdə baş verən memarlıq inkişafı təkcə tikinti və layihələndirmə deyil, bu, bizim fakültənin illərlə formalaşdırdığı peşəkarlığın, milli məsuliyyətin və qabaqcıl memarlıq dünyagörüşünün təcəssümüdür.

**– Fakültənin UNESCO, İtaliya, Fransa, ABŞ və digər ölkələrlə əməkdaşlıq etdiyi layihələr də genişdir.**

– Biz daim beynəlxalq inteqrasiyaya xüsusi önəm vermişik. UNESCO, İtaliya, Fransa, ABŞ və digər ölkələrin aparıcı memarlıq məktəbləri ilə əməkdaşlığımız artıq uzun illərə söykənir. Son illər Türkiyə ilə də sağlam və faydalı əlaqələr qururuq. Bu əməkdaşlıqların həm tələbələrimiz, həm də müəllim heyətimiz üçün çoxşaxəli faydaları olub.

İlk növbədə, bu əlaqələr vasitəsilə biz tədris prosesini qlobal miqyasda qəbul edilən meyarlarla uyğunlaşdırmışıq. Müxtəlif ölkələrdə təşkil olunan beynəlxalq layihələr, yay məktəbləri və ustad dərslərində iştirak müəllim və tələbələrimizin dünyagörüşünü genişləndirir, yeni yanaşmalarla tanış olmağa şərait yaradır. Bu cür təcrübə mübadiləsi təkcə nəzəri biliklərin deyil, həm də praktiki bacarıqların inkişafı üçün mühüm platformadır.

Tələbələrimiz üçün bu əməkdaşlıqlar beynəlxalq layihələrdə iştirak və portfoliolarının zənginləşdirilməsi deməkdir. Bu gün artıq bizim tələbələrimiz Parisdə, Romada, Florensiyada, Kopenhagendə keçirilən beynəlxalq tədbirlərdə AzMİU-nu təmsil edirlər. Müəllim heyətimiz üçün isə bu əlaqələr elmi tədqiqatların genişləndirilməsi, birgə nəşrlər, konfrans çıxışları və yeni tədris metodlarının tətbiqi baxımından böyük imkanlar açır.

Eyni zamanda, bu əməkdaşlıqlar sayəsində biz fakültədə beynəlxalq ekspertləri, xarici memarlıq məktəblərinin tanınmış nümayəndələrini tez-tez qonaq edirik və özümüz də beynəlxalq ekspert kimi dəvətlər alırıq. Bu isə təhsilin keyfiyyətinə, tələbələrin motivasiyasına və ümumilikdə fakültənin akademik mühitinə çox müsbət təsir göstərir. Məqsədimiz daim açıq, qlobal və gələcəyə yönəlmiş bir memarlıq məktəbi olmaqdır.

Dünya memarlığı sürətlə dəyişir. Təkrar olaraq qeyd edirəm. Süni intellektdən tutmuş biomimetikaya qədər bir çox yeni yanaşmalar gündəmdədir. Gənc memar hər zaman açıq fikirli olmalı, yeniliklərə adaptasiya bacarığını inkişaf etdirməlidir. Memarlıq yalnız peşə deyil, həyat tərzidir.

**– Maraqlı söhbət üçün təşəkkür edirik.**

*Müsahibəni çapa hazırladı:*
*Tahir AYDINOĞLU*
*XQ*

*Toğrul Nərimanbəyov – 95*

# Solmayan rənglərin nağıl aləmi

**Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Toğrul Nərimanbəyov öz əsərlərində milli dəyərləri, tarixi yaddaşı və vətən sevgisini incə fırça ustalığı ilə canlandıran sənətkarlardan idi.**





Anası İrma Lya Rude fransız idi. Atası – şuşalı Fərman Nərimanbəyov onu Tuluza universitetində oxuyarkən sevib almışdı. Repressiya dalğaları onları Sibirə və Özbəkistana atmış, məşəqqətlərə salmışdı. Yeri gəlmişkən, Toğrul Nərimanbəyov bir müddət anası ilə birgə həbsdə yaşayıb. Səhərlər dərsə gedib axşam yenidən həbsxanaya qayıdaraq çətin şəraitdə təhsil alıb. Xeyli sonra Vilnüsdə oxuyan tələbə Toğrul anası ilə Səmərqənddə görüşüb. 1961-ci ildə İrma Lya Rude, bir qədər sonra isə Fərman Nərimanbəyov bəraət alaraq Bakıya qayıdıblar.

Toğrul hələ tələbə ikən müxtəlif sərgilərdə iştirak edib. Dünyada tanınandan sonra Moskvada, Bostonda, Lüksemburqda və anasının vətəni Parisdə yaşayıb-yaradıb. Toğrul Nərimanbəyov "Fransa Müasir İncəsənət Ensiklopediyası"nda haqqında məlumat olan yeganə azərbaycanlı rəssamdır. Azərbaycanlı ruhunu heç vaxt dəyişməyib.

Görkəmli rəssamın mənzərə, portret, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı kimi müxtəlif sahələrdə yaratdığı parlaq əsərlər mövzu və janr rəngarəngliyi, estetik kamilliyi və özünəməxsus üslubu ilə fərqlənib. Toğrul Nərimanbəyovun iç dünyasını təcəssüm etdirən bənzərsiz lövhələri Azərbaycan müasir təsviri sənətinin simasını formalaşdıraraq mədəniyyətimizin nadir inciləri xəzinəsinə daxil olub. Nar onun rəsmlərində Göyçaydan Bakıya, oradan da Parisə, Nyu-Yorka, İstanbula, Londona, Moskvaya və neçə-neçə uzaq şəhərlərə gedib çıxıb.

Qəribə və qeyri-adi yaradıcılıq qabiliyyətinə malik rəngkar təkcə doğma vətənində deyil, dünyanın əksər ölkələrində yaxşı tanınır. Onun əsərləri bir çox xarici ölkənin incəsənət muzeylərində, fondlarda saxlanılır. Çexiya, Rusiya, Hindistan, Fransa, Litva, ABŞ və digər ölkələrdə görkəmli rəssamın fərdi sərgiləri keçirilib.

Dünyaşöhrətli fırça ustasının "Şuşa" tablosu parlaq və isti boyalarla işlənmiş "Şuşa" tablosunun qarşısında dayanıb düşüncələrə dalmamaq mümkün deyil. Bu nağılvari əsərində o, təkcə Şuşanın mənzərəsini deyil, həm də şəhərin keçmişini, mədəni irsini və vətənsevərlərin onunla bağlı sevgi dolu duyğularını əks etdirə bilib. Tabloda Şuşanın qaynar həyatı, əlvan rəngləri Azərbaycanın mədəni ruhunun beşiyini dolğunluğu ilə gözlər önündə canlandırır. Bu tablo da məhz Toğrula xas özəl cəhətləri ilə sanki pardaxlanmış böyük, şipşirin bir nar "dad"ı verir.

Xalq rəssamı narın vurğunu olduğunu əsərlərində dəfələrlə bu meyvəni çəkməklə bizə çatdırıb. Təsadüfi deyil ki, rəssam bəzi natürmortlarında soyadını "NAR - imanbəyov" kimi qeyd edib. Fırçası elə hey nara "iman" gətirib. Onun 1965-ci ildə kətan üzərində yağlı boya ilə çəkdiyi "Göyçay bağlarında" tablosunda xalça üzərinə sallanmış nar ağacının meyvəli budaqları təsvir olunub. Bu əsər özünəməxsusluğu ilə seçilən nümunələrdəndir.

Ötən il Minskdə Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin təşəbbüsü ilə qeyd olunan nar bayramını konsert nömrələri və hər kəsə pay verilən nübar narlar qədər, Toğrul Nərimanbəyovun nar təsvirli rəsmlərindən ibarət sərgi də dada, duza gətirmişdi. Böyük rəssam ruhu ilə orada iştirak edirdi.

Dahi rəssam teatr dekorasiyası yaratmaqda, səhnə avadanlığı hazırlamaqda da mahir olub. Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovla birlikdə "Sevil" operası, "Nəsimi" və "Min bir gecə" baletləri üzərində işləyən Nərimanbəyov parlaq kolorit baxımından çox gözəl dekorativ kompozisiyalar hazırlayıb. O, həmçinin Fərəc Qarayevin "Qobustan kölgələri" (1969) və Qara Qarayevin "Yeddi gözəl" (1972) baletlərinin səhnə dekorasiyalarının eskizlərini çəkib.

T.Nərimanbəyovun portret janrında da dəyərli əsərləri var. İctimai xadimləri, söz sənəti ustalarını, musiqiçiləri və rəssamları təsvir etdiyi "Mahatma Qandi", "Şair Fikrət Qoca", "Yazıçı Anar", "Bəstəkar Emin Sabitoğlu", "Müğənni Yavər Kələntərli", "Gənc bəstəkar Romeo Meloni", "Siqaret çəkən Səttar Bəhlilzadə" , "Gürcü rəssamı Niko Pirosmani" və s. kimi portretləri məşhurdur. Toğrulun öz anasını təsvir etdiyi "Anamın portreti" əsəri də rəssamın yaradıcılığında mühüm yer tutur. Onun özünü təsvir etdiyi "Avtoportret" əsərində sənət axtarışında olduğunu anlamaq mümkündür.

Bostonda, Nyu-Yorkda, Parisdə sənətkarın Azərbaycan və dünya mədəniyyəti qarşısındakı xidmətləri hər zaman yüksək qiymətləndirilib. Bernd R.Seizinger Bostonda onun adına sərgi salonu - muzey açıb. Məşhur qırğız yazıçısı Çingiz Aytmatov Lüksemburqda səfir olan zaman oradakı sərgidə iştirak edib və Lüksemburq jurnallarından birinə verdiyi müsahibəsində Toğrul Nerimanbəyov sənətini yüksək qiymətləndirib: "...Toğrul rənglərə duyğu qatan, insanları yaşamağa inandıran rəssamdır. Sərgidə nümayiş olunan əsərlərə, xüsusən də "Çingiz Aytmatovun oğlu Eldarla" tablosuna baxdıqdan sonra bunu daha dərindən hiss etdim".

Ulu öndər Heydər Əliyev Toğrul Nərimanbəyovun yaradıcılığına böyük dəyər verib. 2000-ci ildə onu "İstiqlal" ordeni ilə təltif edib. 2010-cu ildə isə Prezidenti İlham Əliyevin sərəncamı ilə rəssam "Şərəf" ordeni ilə mükafatlandırılıb.

Bunu da deyək ki, Toğrul Nərimanbəyov təkcə rəssam deyil, həm də opera ifaçısı idi. Onun gözəl, məxməri bariton səsi var idi. Klassik operalardan, xüsusilə İtaliya bəstəkarlarının əsərlərindən ariyaları peşəkar səviyyədə ifa edirdi. O, müsahibələrindən birində deyib: "Rəssam olmasaydım, yəqin ki, heykəltaraş, ya bəlkə də vokalist olardım. Rəssamlıqda hər şey əvvəldən məlumdur. Başlanğıc da, iş prosesi də, sonluq da. Vokal isə tamam başqa bir aləmdir. Mən hər səhərimi torağay kimi mahnı ilə açıram". Rəssam Bakıda "Kirxa" konsert salonunda, Opera və Balet Teatrında, Bolonyadakı (İtaliya) "Oratoria di San Rosso" zalında böyük konsertlər verib.

Yeri gəlmişkən, musiqiyə vurğunluğu rəssamın "Muğam" kompozisiyasından da boy göstərir. Bu tablo Azərbaycan rəsm sənətinin şah əsərlərindən hesab edilir.

2013-cü ilin yayında böyük sənətkar 82 yaşında Parisdə dünyadan köçüb və gözəlliklərin əksi olan rəsmlərini bizə yadigar qoyub. Oğlu Fransua atasının yolunu davam etdirərək rəssamlıqla məşğul olur.

***Ə.DOSTƏLİ***
***XQ***

*Tarixi irsimiz*

# Gəncəsər monastırı – Alban xristian memarlığının yadigarı



**Qarabağın qədim torpaqlarında – Ağdərə rayonunun Vəngli kəndində, Xaçınçayın sol sahilində yerləşən Gəncəsər monastırı (Qandzasar) Azərbaycanın qədim dövlətlərindən biri olan Qafqaz Albaniyasının dini-mədəni mərkəzlərindən sayılır. XIII əsrə aid edilən bu abidə həm memarlıq özəllikləri, həm də yaşatdığı tarixi-etnik izlər baxımından böyük əhəmiyyət daşıyır.**

Qarabağdan həmkarımız Nemət Tahir yazır ki, monastırın baş kilsəsi – Müqəddəs İohann Kilsəsi, Xaçın knyazı Həsən Cəlal Dəvlənin göstərişi ilə, daha əvvəlki bir kilsənin yerində inşa edilib. Tikinti işləri 1216-cı ildə başlanıb, 1238-ci ildə tamamlanıb. Kilsənin inşasına dair məlumatlar daş üzərindəki epiqrafik yazılarda yer alıb və bu abidənin Həsən Cəlalın anası Xorişə Xatunla birlikdə inşa etdirdiyi təsdiqlənib.

Kilsə xaçvari-günbəzli kompozisiyaya malik olub, səliqəli kəsmə daşlardan tikilmişdir. Mərkəzdə ucaldılmış hündür barabanlı gümbəz, 4 iri və 4 kiçik pəncərə vasitəsilə interyeri işıqlandırır. Kilsənin çöldən və içəridən örtüyü kirəmit plitələrlə tamamlanıb. Salonun qərb tərəfinə birləşdirilmiş kvadrat planlı iri zal və onun üstündəki 8 sütunlu rotonda isə memarlıq baxımından diqqət çəkən detallardır. Stalaktitli tağ-nervyurlar və çətirvari dam örtüyü monastırın incəliklə işlənmiş üslubunu nümayiş etdirir.

Memarlıq bəzəklərində mifoloji simvollar, oyma naxışlar, heyvan və quş fiqurları, eləcə də Elxanilər dövrünə aid ornamentlərə rast gəlinir. Qərb divarındakı iri xaçda İsa fiquru Turani tipdə, monqol hörükləri ilə, ətrafındakı apostollar isə türk-monqol papaqları ilə təsvir olunub. Bu detal Elxanilər dövrünün təsirini göstərməklə yanaşı, Gəncəsərin türk-müsəlman təsir mühitindən qidalandığını sübut edir.

Monastırın ətrafında Həsən Cəlal və onun nəslindən olan alban hökmdarlarının, ruhanilərinin qəbirləri yerləşir. Lakin XIX əsrdən başlayaraq bu alban abidəsi erməni qriqoryan kilsəsi kimi təqdim edilməyə çalışılıb. 1836-cı ildə çar I Nikolayın fərmanı ilə Alban Apostol Kilsəsinin ləğv olunması, onun erməni qriqoryan kilsəsinə tabe etdirilməsi bu prosesin əsasını qoyub.

Tarixçilər bildirirlər ki, 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən sonra ermənilərin Qarabağa köçürülməsi ilə erməniləşdirmə prosesi başlandı. Bu abidələr üzərindəki epiqrafik yazılar silindi, yerinə erməni dilində uydurma yazılar və xaçdaşlar əlavə edildi. Halbuki Gəncəsər alban memarlığının özünəməxsus elementlərini – türklərə məxsus qurbangah əsası, yerli ornamentlər və memarlıq texnikası ilə bu saxtakarlığı inkar edir.

Azərbaycan tarixçiləri qeyd edirlər ki, Gəncəsər təkcə dini ibadətgah deyil, həm də qədim türk tayfalarının mədəni irsidir. Gələcəkdə bu abidələrin tarixi-mədəni statusu bərpa edilməli, turizm və tədqiqat mərkəzinə çevrilməlidir. Çünki bu tikililər, artıq sadəcə, məbəd deyil – xalq yaddaşının, milli kimliyin daşlaşmış salnaməsidir.

***XQ***

*Yeni kitablar*

# "Salam, cənab Baş nazir..."

**Əməkdar jurnalist, fəlsəfə doktoru, yazıçı-publisist Akif Əlinin yeni çapdan çıxmış "Salam, cənab Baş nazir" kitabı ulu öndər Heydər Əliyev komandasının layiqli nümayəndəsi, Prezident İlham Əliyevlə uzun illər çiyin-çiyinə işləmiş Artur Rasi-zadənin zəngin və maraqlı həyat yoluna həsr olunub.**




Vaxtilə Nazirlər Kabinetinin Mətbuat Xidmətinin rəhbəri vəzifəsində işləmiş müəllif Azərbaycan Respublikasının sabiq Baş nazirinin portret cizgiləri ilə oxucuları yaxından tanış edir, xarakterinin özəlliklərini, onunla bağlı bir sıra ilginc məqamları, çoxşaxəli fəaliyyətindəki maraqlı epizodları publisistik düşüncələr şəklində sərgiləyir.

Müstəqil Azərbaycan dövlətinin inkişafı fonunda Baş nazirin fəaliyyəti dövründəki (1996–2018) müxtəlif məqamlardan, maraqlı hadisələrdən bəhs edən "Dirçəliş illəri", "Hökumət gəlir", "Bir nömrəli problem", "Rəsmi səfərlər", "Dövlət qulluğu", "Qəbullar, görüşlər, danışıqlar...", "Yaddan çıxmaz Qarabağ", "Bağlı qapılar arxasında açıq söhbətlər", "Aprel döyüşləri", "Siyasi mədəniyyət" və s. bölmələr faktiki materialların bolluğu ilə diqqəti cəlb edir, tarixilik baxımından mühüm əhəmiyyət daşıyır.



Kitabın Ön sözündə müəllif oxuculara müraciətlə deyir: "Hörmətli oxucu!

Azərbaycan Respublikasının tarixində ən uzun müddət, 22 il Baş nazir vəzifəsində işləmiş, ölkəmizin iqtisadi, sosial, mədəni inkişafında müstəsna xidmətləri olmuş Artur Tahir oğlu Rasi-zadə haqqında bu kitabı yazmaqda məqsədim əlamətdar yubileyi ilində onun həyat və fəaliyyətinə nəzər salmaq, müəyyən müşahidələrimi, fikir-düşüncələrimi sizinlə bölüşməkdir. Əlbəttə, müstəqil Azərbaycan hökumətinə rəhbərlik etmiş görkəmli dövlət xadiminin səmərəli fəaliyyətinin miqyasını, şəxsiyyətinin mahiyyətini və ziyalı xarakterini tam açmaq üçün bir kitab bəs etməz... Lakin birgə işlədiyimiz illər ərzində ona dəfələrlə təklif olunsa da, son dərəcə təvazökar təbiətli bu alicənab insan özü haqqında nəinki kitabın, hətta kiçik bir məqalənin belə yazılıb dərc olunmasına razılıq verməyib. Yalnız o, vəzifədən getdikdən və bir müddət sonra mən də öz istəyimlə dövlət qulluğundan ayrılıb yenidən yaradıcılıq sahəsinə qayıtdıqdan sonra, belə bir məsuliyyəti öz üzərimə götürdüm. Çünki milli dövlətçilik tariximizin mühüm səhifəsinə çevrilmiş sabiq Baş nazirin fəaliyyətindən yazmaq üçün daha izn almaq lazım deyildi. O artıq tarixi şəxsiyyət olaraq xalqa məxsusdur.

Kitabda Baş nazirin portret cizgiləri və onun rəhbərliyi dövründə Nazirlər Kabinetinin fəaliyyəti barədə çoxsaylı müşahidələrdən yalnız müəyyən bir qismi qələmə alınıb. O zamanlar şahidi olduğum maraqlı epizodlar barəsində bloknotumda geniş qeydlər aparanda, onsuz da A.Rasi-zadənin özü ilə bağlı məqamları ictimailəşdirməyə razılıq verməyəcəyini bilirdim. Ancaq buna baxmayaraq, bir vətəndaş kimi düşünürdüm ki, axı bunlar tarixdir. Yazılması, qorunub saxlanması zəruri olan Vətən tarixidir. Bir ara uçurum qarşısında olan Azərbaycanın necə xilas edildiyi, onun addım-addım dirçəldildiyi, dövlətin öz müstəqilliyini qoruya-qoruya gücünü toparlayaraq, məcburən cəlb edildiyi müharibə şəraitində, ərazisinin 20 faizinin işğal altında, əhalisinin 1 milyondan çoxunun qaçqın və məcburi köçkün vəziyyətində olmasına baxmayaraq, inkişaf yolları ilə inamla, əzmlə irəlilədiyi – dövlətçiliyimizin şərəf salnaməsidir. A.Rasi-zadənin zəngin həyat və fəaliyyəti fonunda həmin şərəfli illərin mənzərəsini də oxuculara göstərməyə çalışmışam...



Əmin olmaq istərdim ki, kitab layiqli Vətən oğlunu daha yaxından tanımağa kömək edəcək. Əlbəttə, rəhbər vəzifəli ictimai şəxs barəsində hərənin öz fikri, mövqeyi ola bilər, hər kəs subyektiv mülahizələrini yürüdə bilər. Mən də bu dəyərli şəxsiyyəti iş prosesində bilavasitə yaxından müşahidə edərək, necə görüb tanımışamsa, olduğu kimi də yazıram. İnanıram ki, kitabın məhz indi, heç birimizin vəzifədə olmadığımız dövrdə qələmə alınmasını hörmətli oxucular müəllifin səmimi, təmənnasız və xoş niyyətinin əlaməti olaraq obyektiv qiymətləndirəcəklər."

Qeyd edək ki, faktlar, sənədlər, şəxsi müşahidə və mülahizələr əsasında yazılan 240 səhifəlik, rəngli foto-illüstrasiyalarla zəngin kitab nəfis tərtibatla çap edilib. Akif Əlinin yeni kitabının ictimai-siyasi sferada çalışan mütəxəssislər, politoloqlar, tarixçilər, jurnalistlər, sosioloqlar, iqtisadçılar və ümumən müasir Azərbaycan dövlətçiliyinin inkişaf prosesləri ilə maraqlanan geniş oxucu kütləsi üçün faydalı mənbə olacağına inanırıq.

***Ə.ƏLİYEV***
***XQ***

*"Xalq qəzeti"nin qonağı*

# "Ortaq tariximizlə bağlı filmlərə ehtiyac var..."

## *Tanınmış türkiyəli jurnalist və kinomenecer Menderes Dəmir bu qənaətdədir*

**Əvvəlcə qonağımız barədə qısa bilgilər: Menderes Dəmir istedadlı jurnalist və kinomenecerdir. Ankarada nəşr olunan "Həsrət" qəzetinin redaktoru və naşiridir. Son illər həvəslə, yorulmaq bilmədən türk kino sənətinin, eləcə də bu sahədə çalışan istedadlı və ünlü sənətçilər barədə yazır. Eyni zamanda, Türkiyədə və türkdilli dövlətlərdə istehsal olunan bədii və sənədli filmlərin təbliği və təşviqində fəal iştirak edir. Bir çox populyar sənədli filmin ssenari müəllifidir.**

M.Dəmir bir neçə il öncə isə "Türk Dünyası Qəzetçilər Federasiyası"nın baş direktoru seçilib. Onun sözlərinə görə, qurumun əsas missiyası türkdilli xalqların tarixi, mədəniyyəti, incəsənəti, həmçinin həyat tərzi, qayğı və problemləri ilə bağlı filmlərə informasiya dəstəyi verməkdir.

**Menderes bəy əvvəlcə Bakıya budəfəki gəlişinin səbəbini açıqladı:**

– "Türk Dünyası Qəzetçilər Federasiyası"nın fəaliyyətinin əsas istiqamətlərindən biri, əslində, elə birincisi türk sənədli filmlərinin böyük coğrafi arazidə yayılmasına nail olmaqdır. Qeyd etmək istəyirəm ki, bu, müasir qlobal informasiya mücadiləsi dönəmində çox vacib amildir. Bu, həm də milli identikliyimizi və mənəvi-əxlaqi dəyərlərimizi qoruyub saxlamaq üçün də vacib amildir.

Məlumdur ki, bədii və sənədli filmlərin cəmiyyətin mənəvi intibahına böyük təsiri olur. Bir daha vurğulayıram: Amacımız qədim və zəngin türk mədəniyyətini bədii və sənədli filmlər vasitəsilə bütün dünyaya tanıtmaqdır.

**– İlk türk sənədli filmlər festivalının təşkilindən 10 ilə yaxın vaxt keçir. Bu ilin sentyabrında Ankarada yubiley festivalı olacaq. Bu əlamətdar hadisə ilə bağlı hansı hazırlıq işləri görülür?**

– Hər il böyük uğurla təşkil olunan bu festivallar, ilk növbədə, yaradıcılıq hesabatıdır. Biz bir-birimizin uğurlarına sevinir, yeni hədəflər ortaya qoyuruq. Ötən festivalda, məsələn, türkün mənəvi gücü, qüdrəti barədə "Biz" adlı gözəl bir sənədli film nümayiş olundu. Əsər yüksək mükafata layiq görüldü. Festivalda Qarabağla bağlı filmlər də uğurla nümayiş olunur.

Yubiley festivalında isə 200-ə yaxın filmin nümayişi gözlənilir. Yeri gəlmişkən, iştirakla bağlı müraciətlər festivalın təşkilat komitəsi tərəfindən avqustun sonunadək qəbul ediləcək.

**– Menderes bəy, qədim və çağdaş türk tarixinin, mədəniyyətinin, bütövlükdə sivilizasiyasının müasir kino təcəssümü sizi qane edirmi?**

– Bu, bir həqiqətdir ki, türkdillli xalqlar arasında ədəbi, mədəni, ticarət əlaqələri əsrlər boyu olub. Bu gün isə bu proses daha da intensivləşib. Həyat bizi yeni çağırışlar qarşısında qoyub. Belə ki, bu gün türk xalqlarının mənəvi birliyinə son dərəcə böyük ehtiyac var. Milli kino sənətimiz bu istiqamətdə çox iş görə bilər və görməlidir.



Xoşbəxtlikdən, Türkiyə kinematoqrafı hazırda özünün intibah dönəmi yaşayır. Bu, müasir dünyada gedən kəskin milli, ideoloji mübarizə dönəmində həm də yumşaq güc deməkdir. Bədii və sənədli, tam və qısametrajlı filmlər vasitəsilə biz, ilk növbədə, türk xalqları arasında mənəvi bağları daha da gücləndirə bilərik və bunu etməyə borcluyuq. Böyük Atatürk deyib ki, "öz mənəvi dəyərlərini qoruya bilməyən xalqlar yad mədəniyyətlərin yeminə çevrilirlər". Bu, böyük həqiqəti heç vaxt unutmaq olmaz!

**– Bildiyimizə görə, siz Azərbaycanın heyranlarındansınız. Çoxsaylı müsahibələrinizdə bu barədə ürəkdolusu söz açıbsınız. Düşünürəm ki, Azərbaycanın son illərdəki uğurları sizi çox sevindirir...**

– Bunlar təkcə uğur deyil, tarixi zəfərlərdir. Azərbaycan Prezidenti sayın İlham Əliyevin lideri olduğu müstəqil Azərbaycan təkcə Qafqazda deyil, bütün regionda böyük strateji gücə, yüksək mədəni və siyasi əlaqələrə malik olan güclü bir ölkədir.

Ulu öndər Heydər Əliyev "İki dövlət, tək millət" ifadəsi ilə Azərbaycan və Türkiyəni bir millət kimi dəyərləndirmişdir. Yadımdadır, 2022-ci ildə Türk Dövlətləri Təşkilatının sammitində Türkiyə Prezidenti sayın Rəcəb Tayyib Ərdoğan "6 dövlət, tək millət" fikrini söyləyərək dahi siyasətçi Heydər Əliyevin səsləndirdiyi "2 dövlət, tək millət" ifadəsinə yeni bir dəyər qatmışdır.

Mən şəxsən "can Azərbaycanı" çox sevirəm. "Şəhərlər gözəli" Bakıda, Gəncədə, Şuşada dəfələrlə olmuşam, hər yerdə işgüzar əlaqələr qurmaqla bərabər, çox sayda əsl, həqiqi, necə deyərlər, ürək dostları qazanmışam. Bu illər ərzində bizimlə birgə çalışan Azərbaycan Mətbuat Şurasının sədri olmuş, hazırda isə "Xalq qəzeti"nin redaktoru Əflatun Amaşovla bu festivalın 10-cu ildönümünün yüksək səviyyədə işıqlandırılması üçün müəyyən işlər görməyi düşünürük.

**– Türk dövlətləri kinematoqrafları milli birlik və həmrəyliyimizin tarixi ənənələrindən bəhs edən ortaq film, eləcə də filmlər çəkmək barədə düşünürmü?**

– Böyük İsmayıl bəy Qaspıralının dediyi kimi, türklər dildə, fikirdə, əməldə bir olmalıdır. Türkün Əli bəy Hüseynadə, Əhməd bəy Ağayev, Yusif Akçuralı, Ziya Göyalp və sair böyük millət mücahidləri, mütəfəkkirləri var. Türk dövlətləri mediası onları tanıtmağa borcludur. Təəssüf ki, hələ də türk dünyasının ortaq mədəniyyəti, incəsənəti, tarixi və s. mövzulardan bəhs edən böyük sənət uğuru hesab ediləcək bir film ortaya qoya bilməmişik. Amma, buna ən yaxın vaxtlarda nail olacağıq.

Düşünürəm ki, belə bir film çəkməyin artıq zamanıdır. Məsələn, Səlcuq imperatorluğu dövründən bəhs edən ortaq bir film ərsəyə gətirmək mümkündür. Sizə bir sirr açım. Bu istiqamətdə də müəyyən işlər görülür.

Bura gəlməzdən əvvəl mən Azərbaycan Kinematoqrafçılar Birliyinə getdim, rəhbərliklə görüşüm oldu. Əvvəldə də qeyd etdiyim 10-cu film festivalı barədə müzakirələr etdik.

**– Sizcə, Böyük Turan mədəniyyətinin təbliği və təşviqində türk dünyası mediasının üzərinə hansı vəzifələr düşür?**

– Bu suala görə təşəkkür edirəm. Çox yerində soruşdunuz. Biz də qəzetçilər olaraq türk dövlətlərinin sərgilədikləri bu siyasi iradənin, gücün zirvəsinin şahidləriyik. Mətbuat Şurası, Türk Dövlətləri Qəzetçiləri Birliyi ilə bu siyasi uğurları hər zaman işıqlandırırıq və bu bizim vətəndaşlıq borcumuzdur.

Qürurverici haldır ki, son illər türk bədii və sənədli filmləri bütün dünyada böyük şöhrət qazanmağa başlayıb. Zatən, kinematoqrafiya məhsullarının yayılma həcminə görə artıq biz Hollivuddan sonra 2-ci yerdəyik. Əlbəttə, əldə olunan uğurlarla kifayətlənmək olmaz. Bu prosesə yeni bir dinamizm vermək lazımdır. İnanıram ki, buna səriştə və hünərimiz yetər!

***Söhbəti yazdılar:***
***Məsaim ABDULLAYEV,***
***Fidan SALMANOVA***
***XQ***

# Borçalı gəncləri Xankəndidə VI Yay Düşərgəsində

**Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunan Diaspor Gənclərinin VI Yay Düşərgəsi Xankəndidə davam edir. Gürcüstanın "24News.ge" portalı xəbər verir ki, avqustun 3-9-da düşərgədə dünyanın 61 ölkəsindən 128 azərbaycanlı və Azərbaycana dost münasibəti bəsləyən xalqların çoxsaylı nümayəndələri iştirak edirlər. Onların arasında Gürcüstandan Borçalı əsilli 6 gənc – Şirvan Namazov, Elyana Məmmədova, Gülgün Məmmədxanova, Edda Qocayeva, Ülkər Hüseynova və Turan Məmmədov da yer alır.**






Borçalıdan olan iştirakçılar Şirvan Namazov düşərgə təəssüratlarını bölüşərək bildirib ki, Bakıda yüksək səviyyədə qarşılandıqdan sonra Qarabağa yollanıblar: "Qarabağda ermənilər tərəfindən dağıdılmış milli, mədəni və dini abidələri gördə kədərləndik. Lakin hazırda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri bizdə böyük ümid yaratdı. Düşərgə bizim üçün həm bilik, həm də milli kimlik baxımından çox faydalı oldu. Eyni zamanda, dünyanın müxtəlif ölkələrindən gəlmiş soydaşlarımızla yeni əlaqələr qurduq. Bu təşəbbüsə görə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə dərin təşəkkürümü bildirirəm".

Digər iştirakçı Edda Qocayeva isə qeyd edib ki, bu onun Qarabağa ikinci səfəridir, lakin hər dəfə yeni emosiyalar yaşayır: "Xankəndidə olmaq qəlbimdə qürur duyğuları oyadır. Düşərgənin açılışından dərhal sonra yaradılan mühit bizi valeh etdi. Hüquqşünas olaraq burada xarici universitetlərdə təhsil alan həmkarlarla fikir mübadiləsi apardım. Hətta Avropada bir universitetdən təlim üçün dəvət aldım. Bu da düşərgənin yalnız bu gün deyil, gələcək üçün də dəyərli olduğunu göstərir".

İştirakçı Ülkər Hüseynova da düşərgənin həm mənəvi, həm də elmi baxımdan zəngin keçdiyini vurğulayıb: "Bakıdakı Fəxri Xiyaban, Şəhidlər Xiyabanı və Zəfər abidəsinin ziyarəti bizə tariximizi bir daha xatırlatdı. Xankəndidə keçirilən panellərdə Konstitusiya, suverenlik və diaspor fəaliyyəti mövzularında dəyərli məlumatlar əldə etdik. Təşkilatçılığı yüksək səviyyədədir və bizə gələcək fəaliyyətimiz üçün yaxşı təcrübə qazandırır".

Qeyd edək ki, düşərgə çərçivəsində müxtəlif panel iclasları, görüşlər, təlimlər, ekskursiyalar və əyləncəli proqramlar təşkil olunub.

***P.ƏMİRCANOV***
***XQ***

**Sərlövhəyə çıxardığımız cümlə 22 il əvvəl başqa cür səslənirdi. "Xalq qəzeti"ndə dərc olunan o vaxtkı yazımızın adı "Qaçın, müxbir gəlir!" idi və məqalə o illərdə qeyri-peşəkar jurnalistikanın tüğyan etdiyi bir vaxtda oxucu auditoriyası tərəfindən ciddi müzakirələrə səbəb olmuşdu. İndi isə həmin cümləyə ironiya, bir qədər də xəbərdarlıq çaları əlavə etmişik.**

# Nə qaçın, nə də gizlənin...

## *Amma diqqətli olun, müxbir gəlir*




...Bəs niyə bu gün bu mövzuya qayıdırıq? Axı görünən odur ki, həmin illərdə barmaqla sayılan "reket jurnalistlər", yəni qələm vəsiqəsini ciblərində silah kimi gəzdirənlər, indi sanki "tanınmışlıq dövrünü" yaşayıb ifşa olunmuşlar. Deyirlər, maskaları düşüb. Düşübsə, niyə hələ də bir nəfər durub Tovuz Rayon İcra Hakimiyyətinin rəsmi sosial media səhifəsində "mən gəlirəm, çəkiliş aparacağam, sizi ifşa edəcəyəm, sayt rəhbəriyəm!" – deyə bəyanatlar verir?

### "Sayt rəhbəriyəm!" – sözün devalvasiyası

Bugün kim istəsə, özünü "sayt rəhbəri" elan edir. Gərək nə jurnalistika ixtisası olsun, nə redaktə bilsin, nə də sadə orfoqrafiya. Tovuzun timsalında qeyd etdiyim sayt rəhbərinin, 10 cümləlik xəbərdarlığında yüz orfoqrafik səhv var. Nə cümlənin əvvəli görünür, nə sonu, nə vergül, nə nöqtə. Sanki yazının özü də qorxudan qaçıb gizlənib.

Belələri indi rayondan-rayona "çıxarışa" gedir – yanında da iki "operator", bir telefon və bir qovluq. Müəssisənin qarşısında maşını saxlayıb yazır: "Rəhbərlik hazırlaşsın, mən gəlirəm!" Kimi təhdid edir? Həmin o rəhbər ki, bu gün rayonda məktəb təmir etdirir, kəndin yolunu çəkdirir, şəhid ailələrinə baş çəkir, səyyar qəbul keçirir. Amma o "jurnalist" üçün bütün bu işlər yalnız bir sualın cavabıdır: "Məni niyə qəbul etmədilər?"

### Tanındılar, ifşa olundular, amma...

İndi artıq hər kəs onları tanıyır. Müəssisə rəhbərləri onlara qapı açmır, telefon zənglərinə cavab vermir, "əlində vəsiqə olan" bu adamların sözü ilə yoxlama başladılmır. Amma bu, onları dayandırmır. Əksinə, indi daha sərt üsluba keçir, şantaja, böhtana əl atırlar. Çünki başqa yolları yoxdur. Saytlarının gündəlik oxucu sayı 20 nəfərdir, o da dost-tanış. Amma hər gün bir icra başçısına "ultimatum" yazırlar.

Belələrinin xəbər dilindən çox, hədə dilinə üstünlük verdiyi məqalələrdə "fakt" deyilənlər telefon zənglərinə, ya da çayxana söhbətlərinə söykənir. Müxbirlik isə elə bil "özfəaliyyət qrupu" səviyyəsində bir fəaliyyətə çevrilib.

### Bəs günah kimdədir?

Əvvəllər bəziləri bu adamları "ver get, qurtul" prinsipi ilə yola salırdı. Amma indi o "qurtulmaq" çətinləşib. Çünki bir "ver", iki "yaz", üç "şantaj" və nəticədə həmin rəhbər barəsində sosial şəbəkədə status, yalandan "araşdırma" və "araşdırmanı satmaq" cəhdləri başlayır.

Azərbaycan Mətbuat Şurası, ötən illərdə olduğu kimi, bu gün də öz funksiyasını lazımınca icra edir. Amma bu gün vəziyyət nisbətən fərqlidir. Çünki oxucu da ayılıb. Redaksiyalar da bu tip adamları əməkdaş kimi tanımır. Regionlardakı jurnalist kollektivləri də artıq susmur. Onlar bilirlər ki, peşəyə ləkə gətirənlərə qarşı mübarizə yalnız Mətbuat Şurasının deyil, cəmiyyətin, elə medianın özünün də borcudur.

### Hədə-qorxu yaymaq, pul qoparmaq

Reket jurnalistikanın əsas "iş metodu" qorxutmaqdır. Qəzet və ya sayt adında "Qanun", "Cəza", "İfşa", "Korrupsiya", "Məhkəmə", "Təhqiqat"... kimi ifadələr olan "nəşrlər"in əksəriyyəti sadəcə dırnaqarası brend effektidir, içi isə boşdur.

Gəncədə, Qazaxda, Tovuzda, Şəmkirdə, Goranboyda belə jurnalistlərə artıq "yol yoxdur" deyilir. Bu, yaxşı haldır. Amma daha bir problem var: Bu adamların arxasında bəzən vəzifə sahibləri durur. Onlara qələm verib istədikləri şəxsi cəmiyyət qarşısında gözdən salmaq üçün istifadə edirlər.







### Mətbuatın nüfuzunu qoruyaq

İndi jurnalistika yenidən keyfiyyət mərhələsinə qədəm qoyur. Yeni nəsil media peşəkarları, ixtisaslı, savadlı gənclər önə çıxır. Amma bu mübarizədə susmaq olmaz. Bilməliyik ki, bu qara qüvvələrə qarşı mübarizə təkcə Mətbuat Şurasının yox, bizim – bu sahədə on illərdir çalışan insanların da borcudur.

Bu yaxınlarda Qərb bölgəsində mətbuatımızın 150 illiyinə həsr olunmuş tədbirlərdə səslənən fikirlər də əsl jurnalistikanın qiymətinin verildiyini göstərdi. Gəncə, Goranboy, Naftalan, Şəmkir, Qazax, Tovuz, Samux və Ağstafada keçirilən həmin tədbirlərdə yerli icra strukturlarının rəhbərləri təşkil etdikləri görüşlər zamanı Qərb bölgəsində fəaliyyət göstərən jurnalistlərə olan inamlarını və ehtiramlarını ifadə etdilər. Tovuzun icra başçısı Məmməd Məmmədov çıxışında dedi: "Biz sizə inanırıq, yazın, tədbir görək. Təbii ki, biz hər çatışmazlığı dərhal görə bilmərik, böyük rayondur." Qazaxda Rəcəb müəllim vurğuladı ki, "Sizinlə fəxr edirik! Oturuşunuz, duruşunuz da xoşdur, bir nümunədir" Ağstafanın rayon rəhbəri isə belə dedi: "Bax, bu çay süfrəsi arxasında sizinlə bir yerdə əyləşməyimiz belə, bizə ləzzət verir."

Bu cür münasibətlər onu göstərir ki, əsl jurnalistika hələ də cəmiyyətin ən dəyərli dayaqlarından biridir. Etibarlı sözə, dürüst informasiyaya və peşəkar müxbirə ehtiyac var. Və bu ehtiyacı qarşılayan jurnalistlər cəmiyyətin, dövlətin, xalqın yanındadır.

Unutmayaq, müəllimimiz, unudulmaz Şirməmməd Hüseynovun bu məşhur sözlərini: "Cahil və nadanın əlinə odlu silah vermək ətraf üçün nə qədər qorxuludursa, siyasi mədəniyyəti, milli qeyrəti, şərəfi olmayan kəmsavadların və qələm dəllallarının əlinə söz silahı, mətbuat orqanı vermək cəmiyyət üçün ondan yüz qat qorxuludur."

...Mətbuat dördüncü hakimiyyətdir. Amma o "hakimiyyət" əgər reket üsullarına, hədələrə, şantaja söykənirsə, onun adı mətbuat ola bilməz. Gəlin biz, əsl jurnalistlər, əsl oxucular, əsl məmurlar bu saxta obrazlara qarşı bir yerdə duraq. Axı sözümüzün çəkisi onların səsindən qat-qat artıqdır. Təki susmayaq.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Əməkdar jurnalist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 163 (30857) 7 avqust 2025-ci il, cümə axşamı



# Səfərdə qələbə, evdə məsuliyyət

## “Qarabağ” addım-addım Çempionlar Liqasına doğru irəliləyir

**“Səfərdə qələbə qazanmaq çox vacib idi. Oyun ərzində səhvlərimiz çox olsa da, yekunda lazım olan nəticəni qazana bildik. Bakıda “Şkendiya”ya qarşı daha diqqətli oynamalıyıq. Çünki qarşımızda məğlub olmağı sevməyən bir komanda var”.**



“Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov Skopyedə “Şkendiya”ya 1:0 hesabı ilə qalib gəldikləri oyunu belə şərh edib. Azərbaycan çempionu UEFA Çempionlar Liqası əsas mərhələsinə doğru inamla irəliləyir...

Bu mövsüm avrokuboklarda ardıcıl üçüncü qələbəsini qazanan “Qarabağ”a Şimali Makedoniya təmsilçiləri problem yaradacaq gücdə deyillər. Bizim çempion vaxtilə bunu “Metalurq Skopye” (1:1, 5:2, 1:0, 2:0) və “Sileks” (4:0) kimi komandalarla oyunlarda sübut edib.

“Şkendiya”ya gəlincə, oyun ərzində qapı çərçivəsinə zərbələrin sayında meydan sahiblərinin 7-6 hesabı ilə üstünyü qeydə alınsa da, qonaqların qapısı qarşısında real təhlükələr, demək olar ki, yaradılmadı.

Rəqibin futbolçuları texnikalı olsalar da, Avropa təcrübələrinin azlığı aşkar sezilirdi. Xüsusilə geydiyi 11 nömrəli formaya uyğun olmayaraq, cinah müdafiəçisi mövqeyində oynayan və adı ilə diqqət çəkən yamaykalı Ronaldo Vebsterin birinci hissədə meydanın mərkəzində “Qarabağ”ın bir neçə futbolçusunu driblinqlə keçməsi alqışalayiq idi.

"Şkendiya"nın ən təcrübəli futbolçusu Besart İbraimi avrokuboklarda ümumilikdə 29 qol vurub ki, belə məhsuldarlığı “Qarabağ”da indiyədək heç kim göstərə bilməyib. Amma yaşı tezliklə 39 olacaq hücumçudan əvvəlki performansı gözləmək sadəlöhvlük olardı.

90 dəqiqə boyunca oyuna nəzarət edən “Qarabağ” da kifayət qədər qol vəziyyətləri yaratmasa da, rahatlıqla istədiyi nəticəyə imza ata bildi.

Yeni transferlərdən start heyətində yer alan Pedro Bikalyo hələ ki, ümidləri doğrultduğundan Qurbanov bu mövsüm hər üç oyunda ona güvənib. İkinci hissədə Kris Kuakuya da şans verildi. Yeni oyunçulardan Sami Mmaee və Dani Bolt isə ehtiyatda qaldılar.

Yeri gəlmişkən, “Qarabağ” heyətini daha bir futbolçu ilə gücləndirib, amma o, “Şkendiya” ilə oyunlar üçün iştirak ərizəsində yer almayıb. Söhbət ispaniyalı yarımmüdafiəçi Xoni Montieldən gedir. 26 yaşlı futbolçu on il "Rayo Valyekano"nun üzvü olsa da, karyerasının böyük hissəsini İspaniyanın aşağı divizion klublarında icarədə keçirib. O, əvvəllər həmçinin ölkəsinin U17, U18 və U19 milli komandalarında çıxış edib.

Oyuna qayıdaq. Düzdür, makedoniyalılar tez-tez narahat etməsələr də, qapıçı Mateuş Koxalskinin inamlı oyunu diqqəti çəkdi. Digər futbolçular



da Azərbaycana qələbə ilə dönmək üçün var qüvvələri ilə çalışdılar. Marko Yankoviçin də zədəsini sağaldaraq qayıdışı “Qarabağ” üçün müsbət məqamlardandır.

Mənfi cəhət kimi ötən mövsümün bombardiri Leandro Andradenin “dişsizliy”ini vurğulamaq olar. Hücumda Nəriman Axundzadənin ümidinə qalan komanda isə Çempionlar Liqasında “nəsə edə” bilməz.

Kadi də əvvəlki formasından uzaqdır və tez-tez səhvlərə yol verirdi. Bunu etiraf edərək, “Ola bilər bəzi epizodlarda zəif təsir bağışladı” deyən baş məşqçi, həmişə olduğu kimi, futbolçusunu müdafiə də edir: “Amma bu gün bunu müzakirə etməli deyilik, çünki rəqibin gücünü də nəzərə almaq lazımdır.



Ona qarşı rəqib müdafiəçilər daha çox diqqət ayırırdılar. Hər oyunçu 90 dəqiqə eyni səviyyədə oynaya bilməz”.

Bu da doqquz ilə yaxın Şimali Makedoniya Futbol Federasiyasının baş katibi olmuş, hazırda isə qurumun Marketinq, kommunikasiya, logistika və texniki təminat sektorunun rəhbəri Filip Popovskinin oyunla bağlı fikirləri: “Avropa arenasında böyük təcrübəsi "Qarabağ"ı bu gərgin mübarizədə üstün tərəf kimi göstərirdi. Oyun, gözləntilərə uyğun olaraq, azqollu keçdi. Məğlubiyyətə baxmayaraq, Makedoniya çempionu matç boyunca taktiki intizam və möhkəm müdafiə ilə diqqət çəkdiyini demək mümkündür. "Qarabağ"ın hücum gücü və təcrübəsi, xüsusilə həlledici anlarda özünü göstərdi. Lakin “Şkendiya”nın sıx müdafiə düzülüşü və ara-sıra həyata keçirdiyi əks-hücumlar da alqışa layiq idi. Taktiki baxımdan meydan sahibləri yetkinlik və dözümlülük nümayiş etdirsələr də, ön xəttdə soyuqqanlılıq çatışmırdı. Bu qarşılaşma Avropa təcrübəsi baxımından olan fərqi üzə çıxarsa da, 0:1 hesabı cavab oyunu öncəsi “Şkendiya”ya ümid verir”.

“Qarabağ”ın Çempionlar Liqası liqa mərhələsinə düşmək şansı indi çox yüksək görünür. “Şkendiya” səddi keçilsə, sonrakı rəqib könə tanışlardan biri olacaq ki, Azərbaycan çempionu vaxtilə onlara “futbol dərsi” keçib. Son üç ildə həm “Ferentsvaroş”, həm də “Ludoqorets”i mübarizədən kənarlaşdıra bilib - özü də evdə onlarla bacarmasa da, səfərdə inamlı qələbələr qazanıb (müvafiq olaraq, 3:1, 7:2). “Qarabağ” onlardan pley-offa çıxacaq komandanı yenə uğurla keçəcəyi təqdirdə 2017-ci ildən sonra Çempionlar Liqasının əsas mərhələsinə qatılacaq, amma bu heyətlə orada heç də asan olmayacaq.

***Rasim MÖVSÜMOV***
***idman icmalçısı***

## Cüdo millimiz Skopyedə



**Cüdo üzrə gənc oğlanlardan ibarət Azərbaycan millisi Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən beynəlxalq təlim-məşq düşərgəsinə qatılıb.**

Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə baş tutan toplanışda cüdoçularımıza yığmanın baş məşqçisi Rüstəm Alimli və məşqçi Elxan Rəcəbli rəhbərlik edib.

Təlim-məşq toplanışı gənclər arasında Avropa çempionatına hazırlıq xarakteri daşıyıb. Qitə birinciliyi sentyabrın 4-7-si aralığında Slovakiyanın paytaxtı Bratislavada keçiriləcək.

## “Sabah” bu gün Sofiyada oynayacaq



**Bu sözləri Bolqarıstanın “Levski” komandasının baş məşqçisi Xulio Velaskes UEFA Konfrans Liqasının III təsnifat mərhələsində evdə “Sabah”a qarşı keçirəcəkləri ilk oyundan öncə təşkil olunan mətbuat konfransında deyib.**

İspaniyalı mütəxəssis matça məsuliyyətlə yanaşmalı olduqlarını bildirib: “Rəqibi qiymətləndirməmək bizim üçün böyük səhv olardı. “Sabah” hörmətə layiq komandadır. Onları təhlil etmək üçün kifayət qədər vaxt sərf etmişik. Ötən mövsümkü heyəti böyük ölçüdə qoruyublar. “Sabah” yaxşı oyunçuları və xarakteri olan kollektivdir. Rəqibə topla oynamağa imkan versək, bizə problem yaradacaq”.

Qeyd edək ki, bu gün Sofiyadakı Georgi Asparuxov adına stadionda keçiriləcək “Levski” – “Sabah” matçı Bakı vaxtı ilə saat 22:00-da start götürəcək.

## Boks yığmamız MDB Oyunlarına hazırlaşır




**Yeniyetmə oğlan və qız boksçulardan ibarət Azərbaycan millisi təlim-məşq toplanışına başlayıb. Boks Federasiyasından mətbuata bildirilib ki, Bakı Boks Mərkəzində keçirilən hazırlığa ölkənin ən güclüləri cəlb olunublar. Məşqlərdə əsas diqqət taktiki-texniki hazırlığa yönəlib.**

Vaqif Kazımovun baş məşqçisi olduğu oğlanlardan ibarət milli paytaxtda avqustun 15-dək hazırlıq keçəcək. Komanda toplanışın növbəti mərhələsi üçün ölkə xaricinə yollanacaq. İlkin Ağayevin baş məşqçisi olduğu qızlardan ibarət yığmanın məşqləri isə Bakıda davam edəcək. Qeyd edək ki, toplanış ölkəmizdə keçiriləcək III MDB Oyunlarına hazırlıq xarakteri daşıyır.

***M.HACIXANLI***
***XQ***

## BDU-da “Açıq qapı” günləri

**Bakı Dövlət Universitetində “BDU könüllüləri”nin təşkilatçılığı ilə “Açıq qapı” günləri davam edir. Universitetdən mətbuata bildirilib ki, iyulun 28-dən başlayan “Açıq qapı” günlərində BDU-ya gələn abituriyentlər və onların valideynləri üçün universitet ərazisində tanıtım turları təşkil olunur.**



İştirakçılar universitetin tədris korpusları, kitabxanaları, elmi-tədqiqat və tədris laboratoriyaları, ərazidə yeni yaradılan müxtəlif məkanlarla tanış olurlar.

Bununla bərabər, iştirakçılar üçün müxtəlif ixtisas sahələri üzrə universitet əməkdaşları, professor-müəllim heyəti tərəfindən məlumatlandırıcı sessiyalar keçirilir, ixtisas seçimi ilə bağlı suallar cavablandırılır. Həmçinin universitetin təqdim etdiyi təqaüd imkanları, beynəlxalq proqramlar, könüllülük fəaliyyətləri və tələbə həyatı barədə məlumat verilir.

BDU-da abituriyentlər üçün “Açıq qapı” günləri avqustun 8-dək davam edəcək.

***XQ***

## Zidan Fransa millisinin baş məşqçisi olacaq

**“Real Madrid”in sabiq baş məşqçisi Zinəddin Zidan DÇ-2026-dan sonra Fransa millisini çalışdıracaq. Bu barədə “Defensa Central” RMC After Foot-un jurnalisti Jilber Brisbua məlumat verib.**

“Didye Deşam 2026-cı ildə gedəcək. Bir ildən sonra bizdə Zidan olacaq! Necə sevincli, hər şey həll olundu!”, - o bildirib.

Qeyd edək ki, Zinəddin Zidan 2016-2018 və 2019-2021-ci illərdə “Real Madrid”ə rəhbərlik edib. O, məşqçi kimi üç dəfə Çempionlar Liqası, iki dəfə La Liqa, İspaniya Superkuboku, UEFA Superkuboku və Klublararası Dünya Çempionatının qalibi olub.

***XQ***



## Qorabişirən günlər davam edir...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 25-29, gündüz 35-40 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında hava əsasən, yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-27, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək, dağlarda gecə 16-21, gündüz 28-33 dərəcə isti olacaq.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3396
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00